“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”

# QƏDİR-XUM HƏDİSİ




*Müəllif:*
**Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri**

*Tərcümə edən:*
**Əbu Zeyd Həbibli**

**SUNNA.AZ**

**“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır”**

# QƏDİR-XUM HƏDİSİ

*Müəllif:*
Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri

*Tərcümə edən:*
Əbu Zeyd Həbibli

بسم الله الرحمن الرحيم

# MÜNDƏRİCAT

## (kitabın içindəkilər)

Müqəddimə........................................................................ 5
Qədir-Xum........................................................................ 7
Qədir-Xum hadisəsinin öncəsi................................................11
Zaman və məkan baxımından Qədir-Xum.............................. 28
Yerin yaddaşı........................................................................31
Qədir-Xum xütbəsi.............................................................. 33
Qədir-Xum xütbəsinin təsiri..................................................39
Hər möminin mövlası........................................................... 43
Qədir-Xum hədisinin başqa bir versiyası.................................47
Qədir-Xum hədisinin "canişin təyinetmə" versiyası barədə təhlillər........................................................................ 49
Qədir-Xum hadisəsi və məntiqi təhlilin vacibliyi.................. 95
Kitabın ərsəyə gəlməsi........................................................ 101
Minnətdarlıq və ithaf..........................................................104
Xəritə və şəkillər................................................................106
Haşiyələr (kitabda qeyd edilən mənbələr)..............................114

# MÜQƏDDİMƏ

Üzünü sevimli şəhərinə tərəf çevirərək...

İllər öncə oradan ayrıldıqda qəlbində yer etmiş sevimli şəhərinə əlvida edərək...

Ətrafına dostları və yaxınları yığışmış...

Hər addımını atdıqda bilirdi ki, bir daha bu şəhərə dönməyəcəkdir...

Dönüşü olmayan bir gediş idi bu gediş...

Ömür qısadır, vaxt isə durmadan irəliləyirdi...

Deyiləsi sözlər çox idi, lakin onları böyük məharətlə ifadə edə bilirdi...

Bir tərəfdən də camaatın səfər sonrası yorğunluğu...

Həm də məqsədə nail olunmuş uğurlu bir səfərdən (həcc səfərindən) sonra...

Məkkə ilə Mədinə arasında Qədir-Xum adlı yerdə durdu. Bu yer onların hər birini öz ağuşuna almış, yorğunluqlarına məlhəm olmuşdur. Həm özü durdu, həm də camaatın dayanmasını tələb etdi. Hər kəsi səslədi və bir yerə topladı. Daha sonra hündür bir yerə çıxdı.

Səhabələr növbə ilə onun gözü önündən keçib gedirdi. Təbii ki, onun üçün hər birinin ayrı yeri var idi. Hər kəs öndə olmağa həris idi. Lakin bu dəfə hər kəsdən öndə onun sevimlisi, can dostu Əli idi. Çünki bu toplantı məhz onun üçün qurulmuş və deyiləcək sözlər də məhz onun şəninə deyiləcəkdir. Qədir-Xum da olub-keçənlərə şahid olmuş, deyilən hər kəlməyə qulaq vermişdi...

Hər kəs diqqətlə qulaq kəsilmiş, həyəcanlı baxışlarla sevimli Peyğəmbəri görmək üçün boylanırdı. Olduqca heybətli bir mənzərə idi. Peyğəmbər tərəfindən deyilən sözlər isə son dərəcə açıq və dəqiq idi. Birinin unutduğunu digəri hifz edir, bəşərin yaddan çıxartdığını oranın daşı, torpağı yadda saxlayırdı...

Qədir-Xumun olduğu yerdə kəlmələri sapa düzdüm. Orada bəzi şeyləri incələməyə başladım. Əlinin öz dostlarının, habelə bizim qəlbimizdə olan yeri, dəyəri barədə düşünməyə başladım...

Qədir-Xumda nəinki cismimizlə, habelə qəlbimiz və ruhumuzla birgə dururuq, necə ki Allah rəsulu səhabələrin durmasını tələb etdikdə onlar da belə etmişdilər...

Öz duyğularımızla qulaq veririk, necə ki Allah rəsulu səhabələrindən bunu tələb etdikdə onlar da belə etmişdilər...

Beləcə Peyğəmbərin dediklərini həm qəlbimizlə, yəni sevgi və təzimlə, həm də ağlımızla, yəni düşünərək və bizə nəql olunanları təhlil edərək qəbul edirik.

Beləcə nə qəlbimizin hissləri ağıl və düşüncəmizin üstündən xətt çəkər, nə də məntiqlə hərəkət etməyimiz hisslərimizin alovunu söndürər.

Qədir-Xumun ağaclıqlarına doğru...

Orada Qədir-Xum hadisəsi baş vermiş, Qədir-Xum xütbəsi deyilmiş və Peyğəmbər tərəfindən vəsiyyət edilmişdir. Xütbəsinin sonunda, yəni ömrünün sonlarında vida çıxışı edilmişdir...

*Mədinə şəhəri (hicri 1437/2/2)*

# QƏDİR-XUM

Qədir-Xumda möminlərin əmiri Əbül-Həsən Əli ibn Əbu Talibə ﵇ fəzilət tacı taxılmışdır. Təbii ki, onun fəziləti məhz Qədir-Xumda elan edilməmişdir, lakin orada onun fəziləti ən yüksək zirvəyə çatmışdır.

Əli ﵇ o kəs idi ki, Peyğəmbər ﷺ ona xəbər vermişdir ki, onu yalnız mömin sevəcək və ona yalnız münafiq nifrət edəcəkdir.[1]

Əli ﵇ o kəs idi ki, Peyğəmbər ﷺ ona belə demişdir: *"Mənim yanımda Harunun Musa yanında olan məqamı kimi məqamının olmasına razı deyilsən? Lakin məndən sonra peyğəmbər gəlməyəcəkdir"*.[2]

Əli ﵇ o kəs idi ki, Peyğəmbər ﷺ ona belə demişdir: *"Sən məndən, mən isə səndənəm"*.[3]

Əli ﵇ o kəs idi ki, Peyğəmbər ﷺ bəyan etmişdir ki, o, Allah və Rəsulunu, Allah və Rəsulu da onu sevir.[4]

Nə xoş bu cür şəxsiyyətin halına! Təsəvvür edin ki, o, yer üzündə gəzir və bilir ki, yeddi qat səmanın fövqündə olan Rəbbi və Onun peyğəmbəri onu sevir.

İslam tarixinin başladığı ilk gündən Əli ﵇ bu tarixdə öz yerini tutmuşdu. Düşüncə və idrakının inkişaf etməyə başladığı ilk günlərdən bəri İslam onun zehnində yerləşmişdi.

İyirmi üç illik risalət döneminin ilk günündən etibarən o, Peyğəmbər ﷺ ilə birlikdə idi. İyirmi üç ilin hər gününü səbirlə, əzmlə və cihadla – çalışqanlıqla keçirmişdir.

Peyğəmbər ﷺ ilə keçirdiyi bu iyirmi üç il ərzində böyük çətinliklər yaşamış və əziyyətlərə qatlaşmışdır. Beləcə Peyğəmbər ﷺ onu böyük və keşməkeşli həyat yoluna hazırlamışdır.

İyirmi üç il ərzində insanlar bir-birlərinin ardınca dəstə-dəstə Peyğəmbərin ﷺ haqq dəvətinə qoşuldular. Əli isə ﵁ onun çağırışına səs verənlərin ilki və ona ən çox bağlı olan biri idi.[5]

İyirmi üç il ərzində o, Peyğəmbərdən ﷺ ayrılmadı. O həm qohumluq və nəsəb baxımından, həm sevgi və hörmət yönündən, həm də qonşuluq cəhətindən Peyğəmbərə ﷺ çox yaxın biri idi.

***Görəsən, Əlinin ﵁ Peyğəmbərə ﷺ olan yaxınlığı nə ilə ölçülə bilər?***

***Sevgisi ilə?*** – Belə ki, Allah rəsulu ﷺ onun haqda demişdir: *"Allah və peyğəmbəri onu sevir"*.[6]

***Yoxsa qohumluğu ilə?*** – Belə ki, Əli ﵁ Peyğəmbərin ﷺ doğma əmisi oğlu idi.

***Kürəkəni olması ilə?*** – Belə ki, Əli ﵁ Peyğəmbərin ﷺ doğma qızı, onun ciyərparası və dünya xanımlarının ən fəzilətlisi olan Fatimənin əri idi. Allah rəsulu ﷺ məhz onu qızına layiq bilmiş və qızını ona əmanət etmişdir.

***Yoxsa qonşuluğu ilə?*** – Belə ki, Əlinin ﵁ evi Peyğəmbərin ﷺ evinə ən yaxın ev idi. Peyğəmbərin ﷺ evləri (hücrələri) onun evini öz ağuşuna elə almışdı ki, sanki onun evi də Peyğəmbərin ﷺ evinin bir hissəsi idi. Bu səbəbdən də, Abdullah ibn Ömərdən ﵄ Əli ibn Əbu Talib ﵁ barədə soruşduqda o belə demişdir: *"Onun evinin Peyğəmbərin ﷺ evinə olan yaxınlığına baxın!"* [7] Yəni təkcə bu hal Əlinin ﵁

Peyğəmbərə ﷺ olan yaxınlığını və fəzilətini bəyan etmək üçün kifayət idi.

Peyğəmbər ﷺ doğma nəvələri – Əlinin ﵁ övladları barədə belə demişdir: *"Mənim bu oğlum seyiddir (ağadır). Ümid edirəm ki, Uca Allah onun əli ilə iki böyük müsəlman dəstəsinin arasında sülh yaradacaqdır".*[8] Peyğəmbər ﷺ bu sözü nəvəsi Həsən ibn Əli ﵁ barədə demişdir.

Həmçinin o ﷺ belə demişdir: *"Mən bu iki balamı gəzən gördükdə dözə bilmədim, sözümü (xütbəmi) kəsdim və onların yanına gəldim".*[9] Bu sözləri ilə o ﷺ, Əlinin övladları Həsən və Hüseyni nəzərdə tuturdu (Allah onların hamısından razı olsun!).

Əli ﵁ Peyğəmbərin ﷺ tutan əli, vuran qılıncı idi. Belə ki, Allah elçisi ﷺ: *"Ey Əli, qalx!"* dedikdə hamı bilirdi ki, mühüm bir iş Əlini gözləyir. Necə ki Bədr günü ilk döyüşçü olması üçün Əliyə belə demiş, ona önə çıxmasını əmr etmişdir.[10]

Əli ﵁ Peyğəmbərin ﷺ əmanətini insanlara çatdırmışdır. Belə ki, Peyğəmbər ﷺ Mədinəyə hicrət edən vaxt o, Məkkədə qalmış və Peyğəmbərin ﷺ tapşırığı ilə əmanətləri öz sahiblərinə təhvil vermişdir.[11]

Əli ﵁ Peyğəmbərin ﷺ risalətini – sözünü həcc mövsümündə insanlara təbliğ etmişdir. Belə ki, o, həcc mövsümündə Peyğəmbərin ﷺ əmri ilə insanlara ət-Tövbə surəsini oxumuş, hər kəsə öz haqqını anlatmış, bu ildən sonra heç bir müşrikin həcc edə bilməyəcəyini və Kəbənin çılpaq şəkildə tavaf edilməyəcəyini elan etmişdir.[12] Beləcə Əlinin ﵁ Peyğəmbərin ﷺ sözünü insanlara çatdırması ilə Kəbə tövhid evinə, Məkkə isə İslam diyarına çevrilmişdir.

Nəhayət, İslam dəvətinin üstündən iyirmi üç il keçdikdən sonra Uca Allahın zəfər müjdəsi aşkara çıxdı, Məkkə şəhəri müsəlmanlar tərəfindən fəth edildi və insanlar dəstə-dəstə Allahın dininə – İslama daxil olmağa başladılar. Beləcə Uca Allah öz dinini tamamladı və bəndələrinə olan İslam nemətini kamala yetirdi. Müsəlman ümməti İslamın beşinci rüknü olan Həcc ibadətini də tamamladı və bu Vida həccini Peyğəmbər ﷺ ilə birlikdə əda etdi. Həcc ibadətini tamamlayıb Mədinəyə geri döndükləri yolda məhz Əliyə ؓ fəzilət tacı taxmaq, bu yöndə onun haqqını tam ödəmək və onun qədir-qiymətini uca tutmaq naminə Allah rəsulu ﷺ insanların dayanmasını tələb etdi. Qədir-Xumda ağamız Əli üçün bu təqdirəlayiq mövqe və bu əzəmətli fəzilət tam çılpaqlığı ilə ortada idi və bunda heç bir gizlilik, heç bir qaranlıq məqam yox idi.

İndi isə Qədir-Xum hadisəsinə gələk və onu xatırlayaq. Peyğəmbər ﷺ insanların dayanmasını tələb etdikdə sanki biz də onunla birlikdəyik kimi dayanaq, o ﷺ, insanların sakit olmasını istədikdə biz də onunla birlikdəyik kimi sakit duraq. Beləcə onlarla birlikdə həmin hadisəni yaşamış və ehtiva etmiş olarıq. Bu hadisədə Peyğəmbərin ﷺ Əli ؓ barədə söylədiyi əzəmətli kəlamı yer almaqdadır. Bu kəlamı söyləyən, habelə özü barədə bu kəlamın söyləndiyi şəxs nə əzəmətlidir! Əlinin şanı, şərəfi və fəziləti barədə deyilmiş bir kəlam hər mömin kişi və qadının qəlbində necə də böyük bir yer tutur!

# QƏDİR-XUM HADİSƏSİNİN ÖNCƏSİ

Qədir-Xum hədisi Əli ﵁ tərəfindən baş vermiş və bəzi səhabələrə qaranlıq qalan müəyyən hadisələrdən sonra deyilmişdir. Həmin hadisələrə görə Əlini qınamış, daha sonra isə bunu Peyğəmbərə ﷺ xəbər vermişlər. Başlanğıcı bəzi səhabələr tərəfindən Əliyə ﵁ qarşı qınaq və azarlama olan bu hadisə Peyğəmbər ﷺ tərəfindən ona fəzilət tacının taxılması, şəninin hər yana yayılması, hər bir mömin kişi və qadına onun vəlayətinin (dostluğunun) elan olunması ilə nəticələndi.

***Gəlin həmin hadisəni onun bütün rəvayət yollarını ələ alaraq dolğun bir şəkildə nəql edək:***[13]

Taif və Həvazin savaşlarından sonra Peyğəmbər ﷺ Xalid ibn Vəlidi ﵁ baş qaldıran bəzi qəbilələrlə savaşması üçün Yəmənə yolladı. Xalid onları məğlub edərək qalib gəldi, çoxsaylı mal və əsir qəniməti əldə etdi. Daha sonra qənimət mallarının bölüşdürülməsi üçün yanlarına bir nəfərin göndərilməsi barədə Peyğəmbərə ﷺ xəbər yolladı.

Peyğəmbər ﷺ də bu zəfəri tamamlaması, qəniməti ələ alması və onu beş hissəyə bölərək paylaması üçün Əlini ﵁ göndərdi. Onunla birlikdə savaşdan öncə həmin qəbilələrə ərz etməsi üçün bir məktub da yolladı. Həmçinin Əliyə ﵁ tapşırdı ki, Xalidin ﵁ qoşunu seçim etsin: geri qayıtmaq istəyən geri dönsün, savaşı Əli ilə tamamlamaq istəyən kəslər də qalıb Əli ilə tamamlasın! Təbii ki, bu, döyüşdə bilinən bir üslub idi. Belə ki, döyüşçülər daima növbələşər,

yerlərini bir-birlərinə verərdilər. Belə etməsəydilər, savaş onlar üçün çətin olardı.

Beləcə Əli عليه السلام gəlib sərkərdəliyi və qənimət mallarını Xaliddən təhvil aldı. Daha sonra onlara bildirdi ki, istəyən geri qayıda, istəyən isə qalıb onunla davam edə bilər. Beləcə bəziləri geri döndü, qalmaq istəyənlər də qalıb onunla birgə yola davam etdilər.

Əli عليه السلام qənimətləri təhvil aldı və döyüşü davam etdirdi. Həmdana yaxınlaşdıqda oranın əhli ordunun önünə çıxıb səff tutdu. Əli عليه السلام onunla birgə olanlara namaz qıldırdı və onları bir səff halında düzdü. Sonra ordunun önünə keçdi və Həmdan əhlinə yaxınlaşdı. Onlara Peyğəmbərin ﷺ məktubunu oxudu və onları İslama dəvət etdi. Nəticədə hamısı İslam dinini qəbul etdilər. Əli ibn Əbu Talib عليه السلام bir məktub yazaraq onların müsəlman olma xəbərini Peyğəmbərə ﷺ çatdırdı. Həmin məktub Allah rəsuluna ﷺ oxunduqda həmən şükr əlaməti olaraq səcdəyə qapandı və sonra belə dedi: *"Salam olsun Həmdan əhlinə!"*

Daha sonra Əli عليه السلام ordunun əldə etdiyi qənimətin beşdə birini ayıraraq beş hissəyə böldü.* Əsirlər arasında gözəl bir cariyə də var idi. Əli عليه السلام qənimətin beşdə birini ayıranda həmin cariyə də beşdə bir olan hissəyə düşdü. Sonra ayrılan

---

* Xüms – "beşdə bir" deməkdir. Şəriət qaydasına əsasən qənimət malları ordu arasında bölüşdürülməmişdən öncə onun beşdə biri ayrılmalı və beş sinif arasında paylaşılmalıdır. Həmin beş sinif arasında Peyğəmbərin ailəsi – əhli-beyti də mövcuddur. Uca Allah buyurur: *"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha və elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir"* (əl-Ənfal, 41) ***(Tərcüməçi)***.

malı da beş hissəyə böldükdə həmin cariyə Peyğəmbərin ﷺ qohum-əqrəbasına çatacaq hissəyə düşdü. Daha sonra əhli-beytə aid olan hissəni də beş pay olaraq böldükdə cariyə Əlinin ailəsinə qaldı və Əli ؓ onu özünə cariyə olaraq götürdü.

Bir müddət sonra orduda olanlardan bəziləri Əlini qüsl almış və başını bağlamış halda çadırdan çıxan gördülər. Saçından su damcılayırdı. Bu hadisə onlardan bəzilərinin qəlbində yer etdi və elə düşündülər ki, Əli ؓ bu hərəkəti ilə özünü digərlərindən seçib üstün saymışdır.

Qəlbində Əliyə qarşı inciklik olan Bureydə ibn əl-Huseyb əl-Əsləmi Xalid ibn Vəlidə ؓ belə dedi: "Məgər onun nə etdiyini görmürsən?" Xalid Əliyə ؓ dedi: "Ey Əbül-Həsən, bu nədir?" Əli ؓ belə cavab verdi: "Məgər əsirlər arasında olan cariyəni görmədin? Qənimət mallarını böləndə cariyə beşdə bir olan hissəyə düşdü, daha sonra əhli-beytin payına, sonra isə Əlinin ailəsinə düşdü və mən də ona sahib oldum".

Xalid ؓ Əlinin ؓ bu davranışı ilə əlaqəli Peyğəmbərə ﷺ bir məktub yazdı. Bureydə dedi: "Məni də məktubun doğruluğunu təsdiq etməyim üçün göndər". Beləcə Xalid ؓ onu məktubla birlikdə yola saldı.

Bureydə ؓ deyir ki, Peyğəmbərin ﷺ yanına gəldikdə Əli barədə danışmağa və onu pisləməyə başladım. Sonra dedim ki, Əli xümsdən özünə cariyə bir qadın götürüb. Daha sonra Xalidin yazdığı məktubu ona oxudum və "Xalid düz deyir, Xalid düz deyir" deməyə başladım. Ümumiyyətlə, mən danışdıqda başını aşağı salıb danışan biri idim. Həmin an başımı qaldırdım və Peyğəmbərin ﷺ çöhrəsinin dəyişdiyini və qızardığını gördüm. Əlimdən və məktubdan tutaraq

mənə belə dedi: *"Ey Bureydə, sən Əliyə nifrət edirsən?"* Mən dedim: *"Bəli"*. Peyğəmbər ﷺ dedi: *"Ona nifrət etmə! Əgər onu sevirdinsə, daha çox sev! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Canım Əlində olana and olsun ki, Əlinin ailəsinin xümsdə olan payı həmin kənizdən daha üstün və ondan daha artıqdır"*.

Bureydə ؓ deyir ki, Peyğəmbərin ﷺ bu sözündən sonra insanlar içində mənə ən sevimli şəxs məhz Əli ؓ oldu.

Ola bilsin ki, Bureydənin və Xalidin ؓ qəlbinə düşən incikliyin eynisi elə orduda olan digərlərinin də qəlbinə düşmüşdür. Çünki Xalidin məktubda yazdıqlarını digərləri də dilə gətirirdi.

Əlinin ؓ ordusu dəvələrinin çox yorulduğunu və taqətdən düşdüyünü görüb Əlidən xahiş etdilər ki, sədəqə malından olan digər dəvələrə minmələri üçün onlara icazə versin və beləcə öz dəvələri də dincəlmiş olar. Əli ؓ isə bundan imtina edərək belə dedi: "Digər müsəlmanlar kimi sizə də qənimət mallarından yalnız bir pay düşür". Ola bilsin ki, Əlinin bu davranışı da onların incikliyinə səbəb olmuşdur.

Bu əsnada Peyğəmbər ﷺ Vida həcci üçün Mədinədən Məkkəyə doğru yola çıxmışdı. Əli ؓ də artıq işlərini tamamlamışdı və Yəməndən geri qayıdırdı. O, Peyğəmbər ﷺ ilə birlikdə həcc edə bilməsi üçün tələsirdi. Beləcə yaxın adamlarından birini ordu üzərinə başçı təyin edərək özü Peyğəmbərlə ﷺ birgə həcc edə bilməsi və yanında olan Peyğəmbərin digər qurbanlıq heyvanlarını aparıb çatdırması üçün tez yola çıxdı. O, Peyğəmbərin ﷺ ehrama girdiyi kimi ehrama girərək (həccə niyyət edərək) belə dedi: "Allahım, mən Rəsulunun ehrama girdiyi kimi ehrama girirəm".

Əli رضي الله عنه gəlib çatdıqda Peyğəmbər ﷺ Məkkədə idi, artıq təvaf və səy də etmişdi, Əbtah adlı yerdə çadırını qurmuşdu. Özləri ilə qurbanlıq heyvan gətirməyən səhabələr artıq ibadətlərini (ümrəni) tamamlayıb ehramdan çıxmışdılar. Əli رضي الله عنه yoldaşı Fatimənin yanına daxil olduqda gördü ki, o, ümrəni tamamlayıb ehramdan çıxıb, rəngli paltar geyinib, sürmələnib və çadırını ətirləyib. Onun bu halına və ehramdan çıxmasına çox təəccüb etdi və ondan bunun səbəbini soruşdu. O dedi: “Bunu mənə atam əmr edib”. Bunu eşidən Əli رضي الله عنه bir çox dəliqanlı gənc kişilərin etdiyi kimi, Peyğəmbərin ﷺ yanına qızından şikayət etməyə getdi. Allah rəsuluna ﷺ xəbər verdi ki, qızı Fatimə ehramdan çıxıb, sürmələnib, boyanmış paltar geyib və üstəlik bütün bunların ona sən tərəfindən əmr edildiyini bildirib. Peyğəmbər ﷺ dedi: *“Bəli, düz deyir, düz deyir, bunu ona mən əmr etmişəm”.* Sonra Əliyə belə dedi: *“Nəyə (yəni həccin hansı növünə) niyyət etdin?”* Əli رضي الله عنه dedi: “Dedim ki, Allahım, mən Rəsulunun ehrama girdiyi kimi ehrama girirəm”. Əli رضي الله عنه özü ilə qurbanlıq heyvanlar da gətirmişdi. Peyğəmbər ﷺ ona dedi: *“Ehramdan çıxma!”* Beləcə Əli رضي الله عنه Peyğəmbər ﷺ ilə birlikdə həcci tamamladı.

Qurban bayramı günü gəldikdə Peyğəmbər ﷺ qurbanının gətirilməsini əmr etdi. Peyğəmbərin ﷺ özü ilə gətirdiyi və Əlinin رضي الله عنه Yəməndən gətirdiyi qurbanlıq heyvanların sayı birlikdə yüz baş dəvə idi. Peyğəmbər ﷺ dedi: *“Əbül-Həsəni yanıma çağırın!”* Əli رضي الله عنه gəldi və Peyğəmbər ﷺ ona uzun bir süngünün – kəsici alətdir – aşağı tərəfindən tutmasını əmr etdi. Özü isə yuxarı tərəfindən tutdu və dəvələrin boğazlarının ən aşağı nahiyəsindən

vuraraq onları kəsdi. Dəvələr isə onun önündə birinci hansı qurban olacaq deyə bir-birləri ilə itişirdilər.

Peyğəmbər ﷺ mübarək yaşı qədər, yəni altmış üç dəvəni öz əli ilə kəsdikdən sonra qalanlarının kəsilməsini Əliyə tapşırdı. Beləcə Allah rəsulu ﷺ Əlini ؓ də öz qurbanına şərik elədi və ətlərin camaata paylaşdırılmasını əmr edərək ona belə dedi: *"Dəvələrin ətlərini, dərilərini və çullarını (yundan toxunmuş dəvə örtüyü) camaat arasında bölüşdür və qəssaba bu şeylərdən heç nə verməǃ Onun haqqını öz cibimizdən ödəyəcəyik. Hər dəvənin ətindən bir parça götür və onları bir qazana töküb bişir ki, hamısının ətindən dadmış və şorbasından içmiş olaq".*

Əlinin ؓ Peyğəmbərin ﷺ arxasında duraraq kəsici alətin aşağı tərəfindən tutması səhnəsinə bir anlıq diqqət yetirsək, anlayarıq ki, bu iki mübarək və pak cismin bir-birlərinə olan yaxınlığı onların ruhlarının bir-birinə olan yaxınlığına və qəlblərinin bir-birinə olan sevgisinə dəlalət edir.

Onların arasında olan bu növ yaxınlıq nəinki dostlar, hətta çox vaxt doğma qardaşlar arasında belə olmur. Lakin Uca Allah Əliyə lütf etmiş və onu Peyğəmbərin ﷺ sevgisinə məzhər etmişdir.

Bəlkə də Əlinin ؓ Peyğəmbərin ﷺ arxasında duraraq kəsici alətin aşağı tərəfindən tutması və Allah rəsulunun ﷺ da yaşı qədər (63 ədəd) heyvan kəsməsi Əlinin Peyğəmbər ﷺ ilə birgə keçirdiyi ömür yoluna bir işarə idi. Belə ki, Allah rəsulunun ﷺ peyğəmbərlik həyatında Əli ؓ daima onun arxasında durmuş və ona dəstək olmuşdur. Beləcə Allah rəsulu ﷺ onu öz mübarək həyatında dəvətinə və cihadına şərik etdiyi kimi, özündə mübarək həyatının səhifələrini – yaşını əks etdirən qurbanına da şərik etdi.

Burada diqqət olunası başqa bir məqam da var. O da Peyğəmbərin ﷺ yaxınları olmalarına baxmayaraq, öz doğma qızını, həyat yoldaşlarını və ya hər hansı bir səhabəsini deyil, məhz Əlini ؓ öz qurbanına şərik etməsidir.

Bir anlıq təsəvvür et ki, Peyğəmbər ﷺ ilə Əli ؓ içində qurban ətinin bişdiyi qazanın ətrafında oturmuş, ətindən yeyir və suyundan içirlər. Bu süfrə digər süfrələrə bənzəməz! Bu yemək hər hansı bir qonaqlığın deyil, məhz Peyğəmbər ﷺ və Əlinin ؓ birlikdə Uca Allaha ibadət qəsdi ilə kəsdikləri qurbanların ətidir. Belə ki, onlar ən şərəfli yerdə – Məkkədə ən bərəkətli gündə – bayram günündə ən əzəmətli ibadətlərdən birini – həcci tamamlamışlar. Həcc ibadətinin tamamlanması ilə qəlblər sevinc hissinə qərq olmuş, fərəh, sevinc və səadət hissləri bir-birinə qarışmışdır.

Ey Rəbbim! Bu cür ali sevgi və dərin dostluq içində olan bu ülvi hissləri necə xəyal edə bilərəm? Uca Allaha and olsun ki, bu səhnəni göz önünə gətirdikdə sanki həmin zamana səyahət etmiş və həmin yerdə durmuş oluram. Sanki xəyal etdiyim həmin səhnəni öz gözlərimlə görürəm. Sadə və bəsit görünən həmin səhnə necə də təsirli və mənalı imiş! Hiss edirəm ki, qəlbim həmin səhnə səbəbi ilə həyəcanlanır. Bu hissi dillə vəsf etməyə çalışmayacam.

Lakin sən özün bu səhnəni göz qabağına gətir və gözlərinlə görürmüşcəsinə bu səhnəni xəyal et! Beləcə həmin hissləri sən də yaşamış olacaqsan.

Bu səhnələrin hamısı bizə bir şey deyir: “Əlinin ؓ Peyğəmbər ﷺ yanında xüsusi bir yeri var idi”. Şübhəsiz ki, bütün bunlar Peyğəmbər ﷺ tərəfindən Əliyə ؓ deyilmiş *“Sən məndən, mən isə səndənəm”*[14] kəlamının əyani bir sübutu və əməli bir tətbiqi idi.

Uca Allahın Muhəmmədə və onun ailəsinə salamı, xeyir-bərəkəti olsun!

Gəlin indi Əlinin ﵁ arxada buraxdığı ordudan danışaq! Onlar da Əlinin ardınca Məkkəyə yola düşdülər. Belə görünür ki, Əlinin ﵁ orduya başçı təyin etdiyi şəxs çox yumşaq biri idi və ordu istədiyini ondan tələb edə bilirdi. Onlar Əlinin ﵁ onlara qadağan etdiyi şeyi, yəni sədəqə dəvələrinə minməyi və öz dəvələrinin dincəlməsini həmin başçıdan tələb etdilər. O da buna müvafiq oldu. Beləcə dəvələrə mindilər və üstəlik qənimət malları içində olan paltarlardan da geyindilər.

Əli ﵁ həccini tamamladıqdan sonra Peyğəmbər ﷺ ona belə dedi: *"Öz dostlarını (ordunu) qarşılamaq üçün onların yanına get"*. Əli ﵁ onları qarşılamaq üçün çıxdı və onların üzərində qənimət malından olan paltarları gördükdə təyin etdiyi naibinə belə dedi: "Vay sənin halına, bu nədir?" Belə dedi: "İnsanların önünə çıxdıqda daha yaxşı görkəmdə olsunlar deyə, onlara bu paltarları verdim". Əli ﵁ dedi: "Vay sənin halına, Peyğəmbərlə görüşməmişdən öncə bunları çıxart!" O da həmin paltarları çıxardıb öz yerinə qaytardı. Daha sonra Əli ﵁ sədəqə dəvələrinin üzərində minik əlamətlərini gördü və bildi ki, həmin dəvələrə minilib, buna görə də çox qəzəbləndi və təyin etdiyi müavinini tənqid etdi.

Ordu isə öz növbəsində Əlinin bu davranışını sərtlik və kobudluq sayırdı. Hətta onlardan bəziləri olub-bitənləri Peyğəmbərə ﷺ nəql etmək və öz zənlərincə Əlinin onlara qarşı etdiyi kobudluq və sərtliyi Peyğəmbərə xəbər vermək, habelə insanların onun davranışından doğan şikayətlərini Peyğəmbərə ﷺ çatdırmaq qərarına gəldilər.

Ola bilsin ki, ordunun Əliyə ﵇ qarşı qınağının və şikayətinin əsas səbəbi qəlblərinin onlara hədiyyə verilən şeylərə bağlanması olmuşdur. Daha sonra həmin şeylərin əllərindən alınması onlara ağır gəlmiş və beləcə incik düşmüşlər.

Belə görünür ki, Əlini qınayan tək Bureydə və Xalid ﵁ olmamışdır. Həmçinin Əbu Səid əl-Xudrinin ﵁ də ondan incidiyi tarixi rəvayətlərdə sabit olmuşdur.[15] Nəticə etibarilə deyə bilərik ki, bu, ordunun əksəriyyətinin rəyi idi və bu fikir onların hamısına sirayət etmişdir.

Ola bilsin ki, Əli ﵇ barədə bu qınağın və incikliyin orduda yayılmasına səbəb həm də onların İslam dininə yenicə daxil olmaları idi. Çünki onlar Əlidən fərqli olaraq, cihadın və qənimət mallarının ehkamlarını yaxşı bilmirdilər. Buna görə də Peyğəmbər ﷺ kin-küdurəti aradan qaldıracaq ümumi bir çıxışla bu problemi həll etdi və Əlinin ﵇ qədir-qiymətini uca tutaraq onun fəzilətini bəyan etdi. Bir növ “kim belə bir fəzilətə sahibdirsə, ona doğru yönəldilmiş qınaq və şikayətlərdən bəri olar” məntiqi ilə məsələni öz yoluna qoydu.

***Əgər biz bu məsələdə Əlinin ﵇ davranışına diqqət yetirsək, onun hər əməlində haqlı olduğunu görərik:***

• Özü üçün cariyə götürdüyü kənizi qənimət mallarını bölüşdürməmişdən öncə götürməmişdir. Yəni, həmin kəniz qənimət malı bölüşdürüldükdən və kiminsə payına düşdükdən sonra Əli ﵇ ayrı-seçkilik edərək onu kiminsə əlindən almamış və özünü kimdənsə üstün saymamışdır. Sadəcə olaraq, Əli ﵇ qənimət mallarını beş hissəyə böldükdə həmin kəniz təsadüfən beşdə bir hissəyə düşmüş,

həmin hissəni də beş hissəyə böldükdə kəniz əhli-beytin payına düşmüşdür. Əhli-beytin payını da beş hissəyə böldükdə kəniz Əlinin ailəsinə qalmış və beləcə Əli رضي الله عنه də öz haqqı olan bir şeyə sahib çıxmışdır. Buna görə də Peyğəmbər ﷺ belə demişdir: "*Canım Əlində olana and olsun ki, Əlinin ailəsinin xümsdə olan payı həmin kənizdən daha üstün və ondan daha artıqdır*". Deməli, burada qınanılacaq və incik düşəcək heç bir şey yoxdur.

• Qənimət mallarından götürülən paltarlara gəldikdə isə həmin mallar ordu arasında bölüşdürülməmiş mallardan idi və bu növ mallardan səfər əsnasında istifadə etmək həmin mallara xələl gətirən əməllərdən hesab edilir. Heç şübhəsiz ki, Əli رضي الله عنه bu kimi mövzularda elm sahibi idi və qənimət bölgüsünün qayda-qanununu onlardan daha yaxşı bilirdi. Əli رضي الله عنه Peyğəmbər ﷺ ilə cihad meydanına qədəm qoyan ilk şəxslərdən biri idi. O, qənimət mallarının və qənimətin paylaşılmamış hissəsinin toxunulmazlığını çox gözəl bilirdi. Elə bu səbəbdən də dərhal paltarların çıxarılmasını və yerinə qaytarılmasını tələb etdi. Çünki onlar öz nəsibləri olmayan və başqalarının haqqı olan paltarları geyinmişdilər.

• Əlinin رضي الله عنه sədəqə dəvələrinin minilməsinə və üzərlərinə yük yüklənməsinə maneə olmasına gəldikdə isə həmin dəvələr fəqir-füqəranın və sədəqəyə haqqı çatan digər insanların nəsibi idi. Beləcə Əli رضي الله عنه də həm zəif, həm də uzaqda olduqlarına görə öz haqlarını qoruya bilməyən həmin kəslərin haqlarını və mallarını qorumuşdur. Əslində, gərək ordu sədəqə dəvələrindən istifadə edərək öz dəvələrinin dincliyini və rahatlığını düşünməzdi. Bu səbəbdən də Əli رضي الله عنه onlara belə demişdir: "Digər

müsəlmanlar kimi sizə də qənimət mallarından yalnız bir pay düşür”. Yəni sizin kimdənsə üstün bir cəhətiniz yoxdur. Həmçinin qənimət mallarından nəsibi olan digər müsəlmanların payına nə əl qoymaq, nə də əl qoyub istifadə etdikdən sonra onu haqqı çatan kəslərə paylamaq icazəli deyildir.

Uca Allah Əbül-Həsəndən razı olsun! Paltarları onların əynindən onlara sahib olmaq, yaxud satıb qazanc əldə etmək qəsdi ilə deyil, əksinə, onu öz sahiblərinə və ona ehtiyacı olanlara çatdırmaq qəsdi ilə çıxartdırdı. Həmçinin sədəqə dəvələrini şəxsi mənafeyi və ehtiyacına görə qorumadı. Onsuz da o özünə sədəqə malı haram olan kəslərdən sayılır.

Qoşunda olan səhabələrin Əlini qınaması, bir növ, ənsarın – Mədinəli səhabələrin Hüneyn savaşından əldə edilmiş qənimətləri bölərkən Peyğəmbəri ﷺ qınamalarına bənzəyir. Belə ki, Allah rəsulu ﷺ xüms malından qəlbləri İslama yeni isinişmiş kəslərə yüz dəvə pay ayırmış və ənsara heç bir şey verməmişdir. Bu səbəbdan də Mədinə əhli Peyğəmbərdən ﷺ incimişdir. Daha sonra Allah rəsulu ﷺ onları bir araya toplamış və onlara izah etmişdir ki, o belə etməklə qəlbləri İslama yenicə isinmiş kəsləri İslama yaxınlaşdırmaq istəmişdir. Ənsarlara isə Allahdan pay olaraq iman neməti kifayət edər. Beləcə razı qalmış və könülləri xoş olmuşdur.[16]

Allah rəsulu ﷺ həmin vaxt qənimət malından qəlbləri İslama yenicə isinmiş kəslərə pay ayırdığı halda, öz qohum-əqrəbasına, ailəsinə və qabaqcıl əshabına pay ayırmamış, habelə qənimət malından özü üçün heç nə saxlamamışdır.

Uca Allah Əbül-Həsəndən razı olsun! Onun həyatı zahidlik ilə keçmiş və daima dolanışığına bəs edən miqdar ilə kifayətlənmişdir. Onun həyatı boyunca şövqü-həvəsi yalnız ilahi məqama idi. Əli ؓ həyat tərzi Peyğəmbərə ﷺ ən çox oxşayan şəxs idi. Evi Allah rəsulunun ﷺ evi kimi xudmanı, alçaq tavanlı, az əşyalı idi. Evində xidmətçisi yox idi. Həyat yoldaşı, dünya qadınlarının ən fəzilətlisi olan Fatimə əlləri qabar salana qədər əl dəyirmanı ilə un üyüdərdi. Paltarı bulaşana qədər evini süpürər, çiyinlərində iz buraxana qədər su tuluqları ilə su daşıyar, üzündə iz qoyana qədər sobada çörək bişirərdi.

Allah rəsulu ﷺ onların bu halından xəbərdar idi, buna rəğmən mal ayıraraq, bəxşiş verərək onları başqalarından fərqləndirməmişdir. Lakin onlar üçün keçici dünya malının əvəzinə qalıcı Axirət əcrini seçmişdir.

Budur, Muhəmmədin ﷺ qızı, Əlinin ؓ həyat yoldaşı və dünya xanımlarının fəzilətlisi olan Fatimə Aişə anamızın evinə – atasının yanına gedir ki, Peyğəmbərdən ev işlərində ona köməklik etməsi üçün ona gətirilən əsirlər arasından bir xidmətçi qadın verməsini xahiş etsin. Lakin o, Allah rəsulunu ﷺ evdə tapmır. Fatimə ilə Aişə anamızın arasında isti münasibət, sevgi və hörmət olduğuna görə, ona gəliş səbəbini deyir və ehtiyacını bildirir, daha sonra qayıdıb evinə gedir. Peyğəmbər ﷺ axşam evinə döndükdə Aişə anamız həmən ona Fatimənin gəldiyini və ehtiyacını bildirir. Allah rəsulu ﷺ vaxt itirmədən qızının evinə gedir. Ora getdikdə artıq Əli və Fatimə رضي الله عنهما axşam yatışı üçün yerlərinə çəkilmişdilər. Əli ؓ deyir ki, üstümüzdə qara rəngli dördbucaq bir örtük var idi, uzununa örtdükdə böyrümüz açılar, eninə örtdükdə isə baş və ayaqlarımız görünərdi.

Ayağa qalxmaq istədikdə Allah rəsulu: *"Yerinizdə qalın!"* – dedi və onlar yerlərində olduqları halda gəlib aralarında oturdu. Əli ﷺ deyir ki, hətta Peyğəmbərin ﷺ ayağının soyuqluğunu sinəmdə hiss etdim. Sonra Peyğəmbər ﷺ belə dedi: *"Sizə məndən istədiyiniz şeydən daha xeyirlisini göstərimmi?"* Biz: "Bəli", – dedik. Belə dedi: *"Axşam yatağa çəkildikdə otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "əlhəmdulilləh" və otuz dörd dəfə "Allahu əkbər" deyin! Bu sizin üçün xidmətçidən daha xeyirlidir. Allaha and olsun ki, aclıqdan belləri bükülən suffə əhlini** tərk edib sizə xidmətçi verə bilmərəm. Onlara verməyə bir şey tapa bilmirəm. Ona görə də qənimət mallarını satıb pulunu onlara xərcləyirəm"*.[17]

Əli və Fatimə ﷺ bu cür Peyğəmbər ﷺ təlimi almışdılar.

Əli və Fatimə ﷺ bu cür Peyğəmbər ﷺ tərbiyəsi görmüşdülər.

Daha sonra Uca Allah Öz Rəsuluna ﷺ bol ruzi qapısı açmışdır. Beləcə insanlara yüzlərlə dəvə paylamış, lakin həmin dəvələrdən Əliyə ﷺ verməmiş, onu digər insanlardan üstün tutmamışdır. Həmçinin camaat arasında qənimət mallarını bölüşdürmüş, onlara paş-paltar paylamış, Əliyə isə heç nə verməmişdir. Habelə bəzi səhabələrə torpaq sahəsi ayırdığı halda, Əliyə bir metr belə torpaq verməmişdir.

Bir sözlə, Əli ﷺ Peyğəmbərin ﷺ həyat tərzi kimi bir həyat sürmüşdü. Evi Allah rəsulunun ﷺ evi kimi son dərəcə mütəvazi bir ev, yaşayışı isə onun yaşayışı kimi sadə və qənaətcil olmuşdur.

Peyğəmbərin ﷺ vəfatından sonra İslami fəthlər və İslam coğrafiyasının genişlənməsi səbəbi ilə bolluq zamanı gəldi.

---

* Süffə əhli – Peyğəmbərin ﷺ məscidində qalan, gecələyən kasıb səhabələr idi.

Lakin Əli رضي الله عنه elə Peyğəmbərin ﷺ sağlığında olduğu kimi onun vəfatından sonra da sadə bir həyat sürməyə davam etdi. Dünya nemətləri aşıb-daşmış, insanlar onu yığmağa, toplamağa can atmış, Əli رضي الله عنه isə Peyğəmbərin ﷺ sağlığında necə idisə, həmin hal üzərində də sabit qalmışdı.

Xilafətə gəldikdən və dünya malı tamamilə önündə olduqdan sonra belə müsəlmanların dünyəvi haqlarından heç bir şeyi əskiltməmiş və onların malına əl sürtməmişdir. Ümumiyyətlə, müsəlmanların malı barədə tarixi mənbələr ondan ədalətsizlik deyil, yalnız və yalnız ehtiyatlılıq və dəqiqlik nəql etmişdir.[18]

Kufədə beytülmala mal toplandıqda həmən insanlara xəbər göndərər və həmin malı camaat arasında bölərdi. Hətta bir dəfə il ərzində camaata üç dəfə mal paylamışdı. Daha sonra İsfahandan xərac vergisi gəldikdə insanların arasında ayağa qalxmış, Uca Allaha həmd və səna etdikdən sonra belə demişdir: “Ey camaat, dördüncü paya tələsin və onu götürün! Allaha and olsun ki, mən sizin üçün xəzinədar deyiləm”. Beləcə bütün malı camaat arasında bölüşdürdü. Sonra beytülmalın təmizlənməsini əmr etdi. Beytülmalı süpürdülər və ora su səpdilər. Əli رضي الله عنه orada iki rükət namaz qıldı və sonra belə dedi: “Ey dünya, get, məndən başqasını aldat!”

Əli رضي الله عنه dünyanı ən yaxşı tanıyanlardan və dünyaya qarşı ən çox zahid olanlardan biri idi. O, daima dünyaya belə səslənərdi: “Məni həsrətlə özlədin və mənə çox hiylələr qurdun. Get, məndən başqasını aldat! Mən sənin üç dəfə talağını verdim. Ömrün qısa, məclisin son dərəcə həqir, dəyər-qiymətin isə çox aşağıdır”.[19]

Əlinin عليه السلام dünya nemətlərinə qarşı olan zahidliyi bu nemətləri əldə edə bilməməsi və bu nemətlərdən qafil olması səbəbi ilə deyildi. Onun zahidliyi Axirət həyatını dünyaya tərcih etməsinə və insanların dünya malı üzərində olan haqlarını öz haqqından önə çəkməsinə bağlı idi. Bu səbəbdən də o, "Nəhc əl-Bəlağa"da da qeyd edildiyi kimi, belə demişdir: "Əgər istəsəydim, balın ən təmiz olanını, buğdanın ən yaxşı növünü, ipəyin ən yumşağını əldə edərdim. Lakin Hicazda, yaxud Yəməmədə çörək tapa bilməyən, qarnı ac dolanan kəslər olduğu müddətcə nəfsimin mənə qalib gəlməsi, tamahımın məni yemək seçiminə sövq etməsi mümkünsüz bir şeydir".[20]

Aman Allah! Bu sözə bir bax: "Hicazda, yaxud Yəməmədə çörək tapa bilməyən, qarnı ac dolanan kəslər olduğu müddətcə...". Sonra da bu kəlamı Peyğəmbərin ﷺ Əli və Fatiməyə عليهما السلام dediyi bu söz ilə müqayisə et: "*Allaha and olsun ki, aclıqdan belləri bükülən suffə əhlini tərk edib sizə xidmətçi verə bilmərəm*".[21]

Görürsənmi, Əli عليه السلام Peyğəmbərdən ﷺ necə ibrət almış, onu özünə örnək tutaraq izi ilə getmişdir?!

Bu səbəbdən də o, daima xilafəti dönəmində beytülmalın son dinarına, dirhəminə qədər insanlara mal paylamış, lakin özü üçün nə bir qəsr tikmiş, nə pul-para toplamış, nə də israfçılıq etmişdir.

Beytülmaldan ona çatan yalnız xəlifə maaşı hesab edilən az miqdarda pul idi. Əli عليه السلام şəhid olduqda müsəlmanların ağası, möminlərin əmiri Həsən ibn Əli عليه السلام atası Əlinin sərvətinin siyahısını camaata açıqlayaraq belə dedi: "Özündən sonra öz maaşından ailəsinə xidmətçi alınması

üçün ayırdığı yeddi yüz dirhəmdən başqa heç bir şey qoymamışdır”.[22]

Fikir verin! Bu miqdar belə onun topladığı əlavə bir mal deyil, məhz beytülmaldan aldığı halal maaşından idi.

Ömrünün son çağları, yəni xilafət illəri belə səltənətin ehtişamından, dəbdəbəsindən və qürurundan tamamilə uzaq, son dərəcə çətin, sıxıntılı və ağır keçmişdir. O qədər sıxıntılı və ağır keçmişdir ki, hətta həmin illər onun həyatının ən çətin illəri hesab edilirdi. Bu illər boyunca o, ümmət arasında olan təfriqəni aradan qaldırmaq, müsəlmanların səflərini birləşdirmək, fitnələri dəf etmək və dağınıqlığı aradan qaldırmaq üçün çalışır, Peyğəmbər ﷺ tərbiyəsi görməmiş bir nəsli idarə edirdi. Fitnə-fəsada sinə gərmiş, bağilər və xəvariclər ilə savaşmışdı. Sübh namazına gedərkən xain qılıncına tuş gələnə qədər onun xilafəti ümməti qorumaq, islah etmək və ümmətin dağınıqlığını aradan qaldırmaq üçün bir mübarizə yolu olmuşdur.

Əli رضي الله عنه əhdlərinə sadiq və son nəfəslərinə qədər vəfalı olan möminlərin göz nuru idi. Əli رضي الله عنه əziyyət çəkən, tər tökən, çalışan, lakin əvəzini Rəbbindən bu dünyada deyil, Axirət həyatında uman kəslərdən idi.

Biz Əlini رضي الله عنه sevməklə Uca Allahın və Peyğəmbərinin ﷺ sevdiyi, habelə sevdiyini hər kəsə bəlli etdiyi bir şəxsi sevmiş oluruq.

Biz Əlini رضي الله عنه sevməklə Peyğəmbərin ﷺ ondan və onun da Peyğəmbərdən ﷺ olduğu bir kəsi sevmiş oluruq. Allah rəsulu ﷺ ona belə demişdir: *“Sən məndən, mən isə səndənəm”*.[23]

Biz Əlini رضي الله عنه sevməklə və onu özümüzə dost tutmaqla əslində Peyğəmbərin ﷺ vəlayətinə (dostluğuna) məzhər

olmuş oluruq. O belə demişdir: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"*.[24]

Biz Əlini ﵁ sevməklə imanımızın kamilləşməsinə ümid edə bilərik. Çünki Allah rəsulu ﷺ Əli ﵁ haqda demişdir ki, onu yalnız mömin sevər və ona yalnız münafiq nifrət edər.[25]

Biz Əlini ﵁ sevməklə Peyğəmbərin ﷺ dünya həyatında ikən Cənnətlə müjdələdiyi bir şəxsi sevmiş oluruq. O demişdir: *"Əli Cənnətdədir"*.[26] Ümid edirik ki, Əliyə ﵁ qarşı olan sevgimiz bizim Cənnətdə onunla birgə olmamıza bir vəsilə olar. Çünki *"insan sevdiyi ilə birlikdə olur"*.[27]

# ZAMAN VƏ MƏKAN BAXIMINDAN QƏDİR-XUM

**Zaman baxımından:**

Qədir-Xum hadisəsi hicrətin 10-cu ili, Zilhiccə ayının 18-i, Bazar günü (Miladi təqvimi ilə 632-ci il, Mart ayının 16-sı) baş vermişdir. Peyğəmbər ﷺ həccini tamamladıqdan sonra insanlara vida edərək belə dedi: *"Ola bilsin ki, gələn il sizinlə görüşə bilməyim".* [28] İnsanlar dağılışdılar və hərə öz istiqamətində yola düşdü. İbn Abbas ؓ dediyi kimi: "İnsanlar Minadan hərə öz istiqamətində dağılışırdı".[29] Yəni həcc ibadətini tamamladıqdan sonra hər kəs öz evinə-eşiyinə, elinə-obasına gedirdi. Peyğəmbər ﷺ ilə birlikdə yalnız Mədinədən onunla birgə gələnlər və evləri yol üzərində olanlar qalmışdı.

Allah rəsulu ﷺ Zilhiccə ayının 14-ü, Çərşənbə gününün səhəri Məkkədən ayrıldı və səfərinin dördüncü günü, yəni Bazar günü Qədir-Xuma çatdı.

**Məkan baxımından:**

Qədir-Xum Məkkə ilə Mədinə arasında – Məkkədən 159 kilometr şimalda, Mədinədən 196 kilometr cənubda, Cuhfə miqatından 6.5, Rabığ adlı məntəqədən isə 18 kilometr şərqdə yerləşir. Həmin yer hal-hazırda "əl-Ğuraba" adlanır.[30]

Məkkə ilə Mədinə arasında səfər edən biri Qədir-Xuma çatması üçün təxminən yolun yarısını qət etməlidir. Qədir-Xum Mədinəyə gedən karvan yolu üzərində deyil, yoldan azacıq şərq istiqamətində yerləşir. Orada su olduğuna görə müsafirlər səfər əsnasında ora baş çəkərdilər. Həmin yer düz və geniş bir ərazi idi. Orada çoxlu və sıx budaqlı ağaclar var idi. Həmin yer "Xum" adlanırdı. Buna görə də ora "Qədir-Xum", yəni "Xum nohuru" deyilərdi.* Qədir-Xum su tədarükü görülə bilən, geniş və kölgəli bir ərazi olduğu üçün müsafirlərin yolüstü dincəldikləri yerlərdən biri idi.

Peyğəmbərin ﷺ xütbə vermək üçün bu yeri seçməsinin səbəbi də elə bu idi. Çünki həmin yer düz və geniş bir ərazi olduğuna görə insanların orada toplanmaları və Allah rəsulunun ﷺ ətrafında oturmaları daha asan idi. Bu yer, bir növ, Vida həcci zamanı Peyğəmbərin ﷺ xütbə verdiyi Uranə vadisinə bənzəyir. [31] Həmin yer də geniş və insanların Peyğəmbərin ﷺ ətrafında toplana bilmələri üçün son dərəcə münasib bir ərazi idi.

Şəxsən mən özüm hicri 1437-ci (miladi 2016-cı) ildə Qədir-Xuma getdikdə Qədir-Xuma yaxın ərazilərdə – Cuhfə vadisində doğulmuş və orada böyüyüb yaşa dolmuş bəzi uzunömürlü, yaşlı insanlarla görüşdüm. Onlardan Qədir-Xum ərazisinin dəyişikliyə uğramamışdan öncəki halı barədə maraqlandım və mənə bəlli oldu ki, bu ərazidə qədim zamanlarda axar bulaqlar, sıx ağaclar, əkin sahələri, meşəliklər və xurma ağacları mövcud olub.

Həmçinin öyrəndim ki, "Qədir" (nohur) vadinin kənarında olub və çox geniş olmayıb. Uzunluğu və eni bir

---

* Nohur – güclü yağışdan, seldən sonra su yığılmış, çökək gölməçə yerə deyilir.

neçə metr olub. Su həmin nohura mənbəyi qayalıq olan bir bulaqdan axıb gəlirdi. Mənbəyindən daima su gəlməsinə baxmayaraq, həmin nohurun suyu müəyyən miqdarda qalardı, aşıb-daşmazdı. Lakin yağış yağdıqda və vadiyə sel gəldikdə "Qədir" (nohur) aşıb-daşar, hətta ərazisi eninə və uzununa genişlənərək onlarla metrə çatardı. Daha sonra bulağın suyu çəkilmiş və nəticədə "Qədir"in (nohurun) suyu qurumuşdur.

Hicri 1406-cı (miladi 1986-cı) ildə vadiyə güclü sel gələrək Xum nohurunu ağuşuna alsa da, həmin yer əvvəlki kimi qalmışdı. Beləcə həmin yerin izləri və qalıqları bizə keçmişindən xəbər verirdi.

Amma hal-hazırda həmin nohurun yeri torpaqla doldurulmuş və üzərində də üstündən dəmir yolu xətti keçən beton körpü inşa edilmişdir.

Hal-hazırda vadinin kənarında, körpünün uc tərəfində olan az qisim yerdən başqa həmin tarixi məkandan bir əsər-əlamət qalmamışdır. Yolçulardan biri təşəbbüs göstərmiş və orada "Qədir-Xum" sözünü yazmışdır. Daha yaxşı olardı ki, orada "Qədir-Xum" sözünü deyil, "vaxtı ilə burada Qədir-Xum olub" ibarəsini yazardı.*

* Kitabın 106-cı səhifəsindən etibarən Qədir-Xum ilə əlaqəli xəritə və şəkillərlə tanış ola bilərsiniz.

# YERİN YADDAŞI

Görəsən, yerin yaddaşı xatırlasa, bizə nəyi xatırladar və dil açıb danışsa, bizə nələri söyləyər? Qədir-Xumun ərazisində dolaşdığım vaxt içim hey bu suallarla çalxalanırdı. Sanki vaxtı ilə burada baş verənlər tam canlılığı ilə ağacların budaqlarında, dağların daşlarında və vadinin ərazisində iz buraxmışdır. Sanki ayaq səsləri ətrafımda dövrə vurur və kəlimələrin sədası qulağımda cingildəyirdi.

Qədir-Xum məntəqəsini günortaya yaxın bir vaxtda ziyarət etdim. Peyğəmbər ﷺ də Qədir-Xumda məhz bu vaxt insanlara xütbə vermişdir. Qədir-Xuma yaxın bir yerdə durub ətrafında gəzişməyə başladım. Xəyallarım artıq zaman pərdəsini yarmış, məni çox uzaqlara aparmışdı. “Bəlkə ayağım Peyğəmbərin ﷺ ayaq qoyduğu yerə tuş gələr” deyə-deyə gəzirdim. Necə ki Abdullah ibn Ömər ؓ belə demişdir: “Bəlkə xuflar xufların* dəydiyi yerə tuş gələr”.[32]

Görəsən, Peyğəmbər ﷺ burada durmuşdu? Görəsən, qədəmini bura qoymuşdu? Gözəl nəfəsi, görəsən, buradamı ətrafa yayılmışdı? Görəsən Allah rəsulu ﷺ burada oturmuş, namaz qılmış və xütbə vermişdi? Ətrafımda olan bu dağlar Peyğəmbərin ﷺ səsini eşitmiş, bu dağlar onun namazına, zikrinə və tilavətinə səs vermişdi? *“Ey dağlar, onunla birlikdə Allahın şəninə təriflər deyin!”* (Səba surəsi, 10).

---

* Xuff – dəridən olan ayaq geyiminə deyilir.

Qədir-Xum ətrafında gəzişdiyim vaxt sanki səhabələrin xəyalı gözümdə canlanırdı. Onların ətrafımda olan vadidəki səmur ağaclarının kölgəsinə toplaşdıqlarını və sonra da "əs-salətə camiə" – "hamılıqla birgə namaza!" nidasına necə icabət etdiklərini xəyal edirdim.

Gözümün önündəki vadinin genişliyinə baxıram. Peyğəmbərin ﷺ ətrafında toplaşmış və çiyin-çiyinə durmuş minlərlə səhabə gözümün önünə gəlirdi. Hər biri ona yaxın olmaq üçün səy göstərir, çalışırdı. Lakin içlərində Allah rəsuluna ﷺ ən yaxın olan məhz Əli رضي الله عنه idi.

Mən onların diqqətlə və açıq gözlə, habelə sevgi və təzimlə Peyğəmbərin ﷺ xütbəsinə qulaq verdiklərini xəyal edirdim. Allah rəsulu ﷺ ilə həmsöhbət olmanın sevinci onların üzlərindən, gözlərindən sezilirdi. Peyğəmbərin ﷺ kəlamını diqqətlə dinləyən qulaqlardan qabaq iman dolu qəlblər qarşılayırdı.

Bu yerin dağları, daşları, torpağı az qala dilə gəlib keçmişdən bizə xəbər vermək istəyirdi.

Sanki həmin yerdə baş vermiş hadisələrin canlı şahidi oldum. Həqiqətən də, bu məkanın özünəməxsus dəyəri, bu mənzərənin öz əzəməti və bu yerin öz heybəti var idi.

Bir sözlə, bu yerdə olan hər şey bir ağızdan belə deyirdi: "Allahın elçisi ﷺ burada olub!"

# QƏDİR-XUM XÜTBƏSİ

Bu xütbə, bir növ, insanları mühüm bir mövzuya hazırlamaq mərhələsi idi. Təbii ki, ondan öncə Qədir-Xum düzü kimi münasib bir məkan, Zilhiccənin 18-i kimi uyğun bir zaman seçilmişdi. Belə ki, insanlar artıq həcc ibadətlərini tamamlamış, üzərlərində olan ən ümdə vəzifəni yerinə yetirmişdilər. Məkkədən çıxmış, lakin hələ Mədinəyə daxil olmamış və onları orada gözləyən dünya işlərinə, gündəlik həyat fəaliyyətlərinə başlamamışdılar. Beləcə onlar zehinləri tam açıq bir vəziyyətdə idilər. Belə bir vəziyyətdə deyilən hər hansı bir sözü yaxşı anlamaq və yadda saxlamaq qabiliyyətinə sahib idilər. Həmçinin seçilmiş vaxt da çox münasib idi. Həmin vaxt Zöhr namazından sonrakı vaxt idi. Bu vaxt insanın tam oyaq olduğu bir vaxtdır. Çünki insanlar günorta istirahətini artıq tamamlamışdılar. Bu xütbə uyğun və münasib vaxt seçimi baxımından Cümə xütbəsinə çox bənzəyirdi. Ümumiyyətlə, Peyğəmbərin ﷺ Mədinədə insanlar önündəki əksər çıxışları, xütbələri məhz bu vaxtda, yəni Zöhrdən sonra olardı.[33]

Beləcə "əs-salətə camiə" – "hamılıqla birgə namaza!" deyilərək insanlar Peyğəmbərin ﷺ ətrafına çağırıldı. Bu cür nida – səsləniş forması, adətən, insanları mühüm və fövqəladə bir iş üçün topladıqda istifadə olunardı. Allah rəsulu ﷺ üçün xütbə verəcəyi yer hazırlandı: iki səmr ağacı arasında bir yer təmizləndi, ağacın tökülən budaqları, tikanları qaldırıldı və ağacın üzərinə kölgələnməsi üçün bir

örtük sərildi. Çünki həmin gün hava çox isti idi. Beləcə insanlar Peyğəmbərin ﷺ ətrafında toplaşdılar: Mədinə istiqamətində yola qoyulan insanlar bu xəbəri eşidib geri qayıtdılar və hələ yolda olub Qədir-Xuma çatmayanlar isə gəlib xütbəyə yetişdilər.

Peyğəmbər ﷺ ilk öncə Zöhr namazını qıldı, daha sonra xütbə üçün ayağa qalxaraq ilk növbədə Uca Allaha həmd və səna etdi. Sonra insanlara belə səsləndi: *"Ey insanlar, Allahın dinini sizə çatdırdımmı?"* Camaat: "Bəli", – dedi. Peyğəmbər ﷺ dedi: *"Allahım, şahid ol! Allahım, şahid ol! Allahım, şahid ol!"*

Sonra sözünə belə davam etdi: *"Ey insanlar, mən də bəşər övladıyam, Rəbbimin elçisinin gəlməsinə və mənim də onu qarşılamağıma çox az qalıb. Mən sizə iki ağır yükü tərk edib gedirəm. Birincisi, Allahın kitabıdır. Onda hidayət və nur vardır. O, Allahın sarsılmaz ipidir. Kim onu əsas götürər və ondan möhkəm tutunarsa, hidayət üzərində olar. Kim onu tərk edər və ondan yan keçərsə, zəlalət üzərində olar. Allahın kitabını əsas götürün və ondan möhkəm tutunun!"* Bir müddət Allahın kitabı haqqında danışıb insanları ona rəğbətləndirdi və sonra belə dedi: *"(İkincisi) Əhli beytimdir. Əhli beytimin haqqı barədə sizə Allahı xatırladıram. Əhli beytimin haqqı barədə sizə Allahı xatırladıram. Əhli beytimin haqqı barədə sizə Allahı xatırladıram"*.

Sonra Əlinin ﵁ əlindən tutaraq onu ayağa qaldırdı və belə dedi: *"Siz mənim möminlərə özlərindən daha yaxın olduğumu bilmirsinizmi?"* Camaat: "Bəli, bilirik", – dedi. Peyğəmbər ﷺ yenə də eyni sualı verdi: *"Siz mənim möminlərə özlərindən daha yaxın olduğumu bilmirsinizmi?"* Camaat: "Bəli, bilirik", – dedi. Allah rəsulu ﷺ yenə də soruşdu: *"Siz mənim hər bir möminə öz nəfsindən daha yaxın olduğumu*

*bilmirsinizmi?"* Camaat dedi: "Bəli, bilirik və şahidlik edirik ki, hər bir möminə öz nəfsindən daha yaxınsan". Peyğəmbər ﷺ belə dedi: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır (dostudur, yaxınıdır, ağasıdır). Allahım, ona dost olana dost, düşmən olana düşmən ol!"*[34]

Ya Rəbbim, görəsən, Peyğəmbərin ﷺ ətrafında olan minlərlə insan içində ona ən yaxın olan və onun yanında duran Əlinin ﵁ bu məqamda düşüncə və təsəvvüratı, hissləri nə idi?

Görəsən, Peyğəmbər ﷺ onun əlindən tutub minlərlə insanın gözü önündə əlini qaldırdıqda nə hisslər keçirirdi?

Görəsən, Peyğəmbərin ﷺ *"mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* kəlamını eşitdikdə Əli ﵁ hansı hissləri keçirmişdir?

Bir anlıq Əlini ﵁ təsəvvür edirəm və keçirdiyi həmin hissləri mən də dadmağa çalışıram. Şübhəsiz ki, bu hisslər ilə o sanki səmaya – ilahi aləmə səyahət etmişdir. Peyğəmbər ﷺ onun əlini qaldırmaqla sanki onu asimana yüksəltmişdir. Beləcə Peyğəmbərin ﷺ onun barədə dediyi sözü ilə yüksəldiyi bu ali məqamdan sanki aşağıda olan insanlara boylanırdı.

Görəsən, ağamız Əli ﵁ bu hisslərə hansı mənəvi güc ilə qalib gəlmiş, özünü toparlaya bilmiş, hisslərini cilovlamış, hisslərinə qapanmamış və gözlərindən sevinc yaşı axmamışdır?! Onun barədə deyilən bu söz risalətinə iman etdiyi, sevdiyi və sevgisinə sevgi ilə cavab verdiyi Peyğəmbərin ﷺ sözü idi. Bu sözlər öz nəfsindən danışmayan, vəhy ilə söz söyləyən, danışdıqda yalnız doğrunu deyən və haqqı dilə gətirən Peyğəmbərə ﷺ məxsus idi.

Bu kəlmələri eşitdikdə, görəsən, onun könlünü hansı hisslər bürüdü? Şəkk yoxdur ki, bu elə bir şərəf və elə bir fəxrdir ki, bütün fəxrlər, şan və şöhrət bu cür bir şərəfin, fəxrin önündə baş əyər.

Əlinin ﷺ yaşadığı o anları hər dəfəsində xatırladıqda, həmin hissləri xəyal etməyə, yaşamağa çalışdım və gördüm ki, həmin hisslər sözlə vəsf olunası hisslər deyildir. Şübhəsiz ki, insanın qəlbində kök salan hisslər kəlmələr ilə vəsf olunmayacaq qədər çox və əhatəli olur. Bu səbəbdən də ən gözəli budur ki, həmin hissləri yalnız xəyal et və qəlbində iz qoyan həmin hissləri yaşa və belə de:

Sənə Allahın salamı olsun, ey Əbül-Həsən!

Həqiqətən də, Allahın sənə olan lütfü çox böyükdür!

Bu nemətə görə sənin sevinmək və fərəh duymaq haqqın var: *“De: "Bunlar Allahın lütfü və mərhəməti sayəsindədir!" Qoy onlar buna sevinsinlər. Bu ki onların yığdıqlarından daha xeyirlidir”* (Yunus, 58-ci ayə).

Sənə Allahın salamı olsun, ey Əbül-Həsən!

Uca Allahın sənə olan lütfünə və nemətinə, habelə Peyğəmbərə ﷺ qarşı olan yaxınlığına və qohumluğuna görə gözün aydın olsun! *“Məgər Allah şükür edənləri daha yaxşı tanımır?”* (əl-Ənam, 53-cü ayə)

Bəs, görəsən, səhabələr Peyğəmbərin ﷺ *"Ey insanlar, mən də bəşər övladıyam, Rəbbimin elçisinin gəlməsinə və mənim də onu qarşılamağıma çox az qalıb"* sözlərini, yəni onun vida mesajını eşitdikdə nə hisslər keçirdilər? Şəfqət dolu gözlər sevgi ilə ona tərəf dikilmiş, sevgi dolu qəlblər isə hüznlə titrəyirdi. Axı bu vida edən birinin vəsiyyəti idi. Görəsən, sevən sevdiyinin son vəsiyyətini necə qəbul edər?!

Görəsən, səhabələr Əlinin Peyğəmbər ﷺ yanında olan bu məqamını, hörmətini gördükdə hansı hissləri keçirirdilər? Belə ki, onlar Peyğəmbərin ﷺ Əli رضي الله عنه barədə olan çağırışını eşitdikdə və onun haqqını müdafiə etməsini gördükdə onlardan bəzilərinin qəlbində Əliyə رضي الله عنه qarşı olan inciklik aradan qalxmış, həmin incikliyi sevgi və hörmət əvəz etmişdir. Qəlblərində ona qarşı heç bir incikləri olmayan kəslərin isə Əliyə qarşı sevgi və hörmətləri daha da artmışdır.

Onu da qeyd edək ki, Peyğəmbər ﷺ tərəfindən Əliyə رضي الله عنه qarşı olan hörmətin bu formada nümayiş etdirilməsi bütün Ərəb yarımadasının İslamı qəbul etməsi, yalnız Allah rəsuluna tabe olan və onunla eyni dini bölüşən yüz mindən artıq insanın onunla birgə həcc etməsi zamanına təsadüf etmişdir.

Peyğəmbərin ﷺ bu mövqeyini Əliyə رضي الله عنه qarşı vəfa borcunu ödəmək kimi də dəyərləndirmək olar. Çünki insanlar hələ tərəddüd içərisində ikən Əli رضي الله عنه İslamı qəbul etməklə onları qabaqlamış, digərləri geri addım atdıqda o, irəli çıxmışdı. Əli رضي الله عنه İslamı qəbul etdikdə risalət günəşi hələ ilk şəfəqlərini saçırdı. Dörd bir yandan şirk onu əhatə etmiş, gözünün önündə bütlər dikilmişdi. Yer üzündə ondan və digər üç nəfərdən * başqa heç bir müsəlman yox idi. Təsəvvür edin ki, günəş öz şüalarını yer üzünə saçır və həmin dünyada Əli رضي الله عنه müsəlmanların dörddə biridir! O, İslamı imanla qəbul etmiş, sonra yəqinliyi artmışdı, İslam

---

* Həmin üç nəfər Əbu Bəkr, Xədicə və Peyğəmbərin ﷺ oğulluğu Zeyd idi. Bu şəxslər, yəni kişilər içində Əbu Bəkr, qadınlar içində Xədicə, uşaqlar arasında Əli və kölələr içində Zeyd İslam dinini ilk qəbul edən şəxslər sayılırlar. Allah hamısından razı olsun!

dininə cəsarətlə daxil olmuş və bu yolda sabitqədəm olmuşdur. Onun din və Peyğəmbər yolunda göstərdiyi comərdlik ən əzəmətli comərtlik idi. Belə ki, o, dinin zəfəri və Peyğəmbərin ﷺ müdafiəsi uğrunda canını qurban verməyə hazır olmuş, özünü təhlükəyə atmış və ölümlə üz-üzə durmuşdu. Əli ؓ Bədr döyüşünün ilk qılınc çalanı,[35] Xəndək savaşının qalib döyüşçüsü[36] və Xeybər gününün fatehi idi.[37]

Peyğəmbərin ﷺ bu mövqeyi İslam dəvəti ilə birlikdə hərəkətə keçən və risalət günəşinin doğması ilə İslamı qəbul edən Əlinin ؓ keçmişinə bir vəfa borcu idi. Allah rəsulu ﷺ belə demişdir: *"Vəfa borcunu ödəmək imandandır".*[38]

Bəli, sonralar insanlar dəstə-dəstə İslam dininə daxil oldular, qəbilələr, ümmətlər bu dini qəbul etdilər. Lakin bütün bunlar çox sonralar baş verdi. Əli ؓ isə İslamı bütün bunların hamısından öncə qəbul etmişdi. Uca Allah belə buyurur: *"Sizlərdən Məkkənin fəthindən əvvəl mallarını xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır"* (əl-Hədid, 10-cu ayə).

Xülasə, Qədir-Xum günü Əli ؓ üçün bir vəfa, sayğı və hörmət günü idi.

# QƏDİR-XUM XÜTBƏSİNİN TƏSİRİ

Səhabələr Peyğəmbərin ﷺ Qədir-Xumda söylədiklərini sevinclə qarşılamış, deyilənləri yadda saxlamış və özlərindən sonrakı nəsillərə çatdırmışlar. Təbii ki, bütün bunlar onların Əliyə ؓ qarşı olan sevgilərinin, sayğı və hörmətlərinin, habelə onun fəzilətlərini rəvayət etməyə qarşı olan istək və həvəslərinin bir göstəricisi idi. Hədis imamları belə demişlər: “Əli ibn Əbu Talibin ؓ fəziləti qədər heç bir səhabənin fəziləti barədə səhih hədislər rəvayət olunmamışdır”.[39]

• Budur, Ömər Əli ؓ ilə qarşılaşdıqda onu bu xoş münasibət səbəbi ilə təbrik edərək belə deyir: “Ey Əbu Talibin oğlu, gözün aydın olsun! Artıq sən hər bir mömin kişi və qadının mövlası oldun”.[40]

• Peyğəmbərin ﷺ Qədir-Xumda söylədiyi kəlam onların Əliyə ؓ qarşı sevgilərini artırmışdır. Hətta Qədir-Xum hadisəsindən öncə Əliyə qarşı qəzəbli olan Bureydə ؓ daha sonra belə demişdi: “Peyğəmbərin ﷺ bu sözündən sonra insanlar içində mənə ən sevimli şəxs məhz Əli ؓ oldu”.[41]

Abdullah ibn Ömərə belə dedilər: “Sən Əliyə ؓ qarşı göstərdiyin sevgi və hörməti Peyğəmbərin ﷺ digər əshabına qarşı göstərmirsən?”. İbn Ömər belə cavab verdi: “O mənim mövlamdır”.[42]

İçlərində Əbu Əyyub əl-Ənsarinin də olduğu bir qrup mədinəli səhabə Kufə məscidinin həyətinə – Əlinin ؓ yanına gəldikdə: “Sənə salam olsun, ey mövlamız (ağamız)”,

– dedilər. Əli ﷺ belə dedi: "Siz özünüz ərəb olduğunuz halda, mən necə sizin mövlanız ola bilərəm?!" Belə cavab verdilər: "Biz Peyğəmbərin ﷺ Qədir-Xumda belə dediyini eşitdik: *Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!*"[43]

Əbu Bəkr əs-Siddiq ﷺ demişdir: "Nəfsim Əlində olan Allaha and olsun ki, Peyğəmbərin ﷺ yaxınları – qohumları mənə mənim öz qohumlarından daha sevimlidir".[44]

Həmçinin xilafətə gəldiyi gün minbər üzərində belə demişdir: "Muhəmmədin ﷺ haqqını əhli-beyti üzərində ödəyin!"[45] Yəni Peyğəmbərin ﷺ haqqını onun əhli-beytini sevərək, onlara ikram edərək, onlarla dostluq quraraq və onlara hörmət edərək qoruyun![46]

Məgər mümkündürmü ki, bir müsəlman Peyğəmbərin ﷺ *"əhli beytimin haqqı barədə sizə Allahı xatırladıram"* sözünü eşitsin, sonra isə əhli-beytə qarşı sevgi və sayğısı olmasın?

Məgər mümkündürmü ki, bir müsəlman Peyğəmbərin ﷺ *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* sözünü eşitsin, sonra isə Əliyə qarşı dostluğu və yaxınlığı olmasın?

İsmayıl ibn İshaq əl-Qazi demişdir: "Mövlası Əli ﷺ olmayan kəs xüsrana uğramışdır".[47]

• Qədir-Xumda olan hər səhabə bu hədisi əzbərləmiş, yadda saxlamış və rəvayət etmişdir. Budur, səhabə Zeyd ibn Ərqam ﷺ yaşa dolduqdan sonra ondan Peyğəmbərdən ﷺ eşitdiyi hədislərdən bəzilərini nəql etməsini xahiş etdikdə o, qocalığına görə üzrxahlıq etmiş və bildirmişdir ki, eşitdiyi əksər hədisləri unutmuşdur, buna görə də hədisi düzgün şəkildə çatdıra bilməyəcəyindən ehtiyat edirdi. Belə ki, bir gün ondan Peyğəmbərdən ﷺ eşitdiyi hədislərdən bəzilərini nəql etməsini xahiş edən birinə belə demişdir: "Ey qardaşım oğlu, artıq qocalmışam, ona görə də Peyğəmbərdən ﷺ eşidib

yadda saxladığım bəzi hədisləri unutmuşam. Peyğəmbər ﷺ hədislərindən sizə nə nəql etsəm, onunla kifayətlənin, nəql etməyəcəyim hədislər barədə isə məni məcbur etməyin".

Lakin Zeyd ibn Ərqamın رضي الله عنه bu ehtiyatı və unutqanlıq qorxusu Qədir-Xum hadisəsinə aid deyildi. Belə ki, Zeyd bu hədisi və bu hadisəni sanki gözləri ilə görürmüşcəsinə nəql edirdi. Çünki o həmin yeri və orda olan şeyləri vəsf etmiş, baş verənləri təfsilatı ilə anlatmış və Qədir-Xum xütbəsini rəvayət etmişdir. Ondan: "Sən bunu Allah rəsulunun özündənmi eşitdin?" – deyə soruşduqda o belə cavab vermişdir: "Qədir-Xum ağaclıqlarında elə bir kəs yox idi ki, onu öz gözləri ilə görməsin və dediklərini də öz qulaqları ilə eşitməsin".[48]

• Səhabələr bu hədisi rəvayət etmiş və bu hadisə ilə əlaqəli Əli رضي الله عنه onların şahidliyini istədikdə onlar da buna şahid olmuşlar. Belə ki, Əli رضي الله عنه həyatının son çağlarında bir gün insanları Kufə məscidinin həyətində topladı və onlara belə dedi: "Allah eşqinə, Qədir-Xum günü Peyğəmbərin ﷺ dediklərini eşidən hər bir müsəlman ayağa qalxsın!" Otuz nəfər ayağa qalxdı və şahidlik etdilər ki, Allah rəsulu ﷺ həmin gün insanlara belə demişdir: *"Siz mənim möminlərə özlərindən daha yaxın olduğumu bilmirsinizmi?"* Camaat: "Bəli, bilirik", – dedikdə Peyğəmbər ﷺ də belə buyurdu: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır (dostudur, yaxınıdır, ağasıdır). Allahım, ona dost olana dost, düşmən olana düşmən ol!"* Onların hər biri bu sözü Peyğəmbərdən ﷺ eşitdiyinə dair şahidlik etdi.[49]

Həmçinin bir gün Əli رضي الله عنه Kufə məscidində minbər üzərində ikən belə dedi: "Mən Peyğəmbərin ﷺ əshabından başqa heç kəsə Allahın adı ilə and verərək səslənmirəm. Sizi

Allaha and verirəm, kim Qədir-Xum günü Peyğəmbərin ﷺ *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır (dostudur, yaxınıdır, ağasıdır). Allahım, ona dost olana dost, düşmən olana düşmən ol!"* sözlərini eşidib?" Minbərin bir tərəfindən altı, digər tərəfindən də altı nəfər ayağa qalxdı və Allah rəsulunun ﷺ bu sözü dediyinə dair şahidlik etdi.[50]

• Bu hədis çoxsaylı səhabə tərəfindən rəvayət edilmişdir. Hədisi Əli ibn Əbu Talib, Bureydə ibn Huseyb, Zeyd ibn Ərqam, Səd ibn Əbu Vəqqas, Talha ibn Übeydullah, Abdullah ibn Abbas, Əbu Hureyrə, Ənəs ibn Malik, Əbu Səid əl-Xudri, Malik ibn əl-Huveyris, Hubşi ibn Cunədə, Abdullah ibn Ömər, Cabir ibn Abdullah, Əbu Əyyub əl-Ənsari, əl-Bəra ibn Azib, Əsad ibn Zürarə, Hüzeyfə ibn Əsid əl-Ğifari, Ammar ibn Yasir, Yalə ibn Murra və digər səhabələr nəql etmişlər. Allah hamısından razı olsun![51]

Bu səbəbdən də Qədir-Xum hədisi mütəvatir hədislərdən hesab olunur. Bu hədisin mütəvatir olduğunu bir çox alim, o cümlədən də Zəhəbi "Siyər əlamin-nubələ" əsərində, Süyuti "Qutufu əl-əzhar əl-mütənasira fil-əxbar əl-mütəvatira" kitabında, Kəttəni "Nəzmul-mutənəsir"də, Əcluni "Kəşful-xafə"də və Əlbani də "Silsilə əs-səhihə" əsərində qeyd etmişdir.[52]

Hafiz ibn Həcər bu hədis barədə belə demişdir: "Bu hədis çox yoldan rəvayət olunmuşdur və onun sənədlərinin əksəriyyəti səhih (etibarlı) və ya həsəndir (yaxşıdır)".[53]

Hətta imam İbn Cərir ət-Təbəri, İbn Uqdə və Zəhəbi kimi bəzi alimlər Qədir-Xum hədisi ilə əlaqəli müstəqil kitablar təlif etmiş və orada bu hədisin bütün rəvayət yollarını və mətnlərini bir araya toplamışlar.[54]

# HƏR MÖMİNİN MÖVLASI

Möminlər arasında olan vəlayət (dostluq, sevgi və sayğı) qırılmaz bir ip və möhkəm bir bağdır. Deməli, hər bir mömin digər mömin qardaşlarının mövlasıdır: *“Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır”* (ət-Tövbə, 71). Bu dostluq özündə yardımlaşmanı, sevgi və sayğını ehtiva edən bir dostluqdur.

Bu vəlayət möminlər arasında ümumi bir vəlayət olsa da, Peyğəmbər ﷺ Əlinin vəlayətini xüsusi olaraq qeyd etmişdir. ***Bunun da özünəməxsus səbəbi və hikməti vardır:***

Peyğəmbər ﷺ tərəfindən Əlinin vəlayətinin xüsusi olaraq qeyd edilməsi bu vəlayətin önəmini və xüsusiliyini göstərir. Allah rəsulu ﷺ demək istəyir ki, kim məni özünə yaxın bilib mənə yardım edibsə, Əlini də özünə yaxın bilsin və daima onun köməyində dursun!

Şübhəsiz ki, bu, böyük bir fəzilətdir. Çünki Peyğəmbər ﷺ ilə yoldaşlıq etməyin dərəcələri olduğu kimi, vəlayətin – dostluğun, yaxınlığın və sevginin bir-birindən üstün və möhkəm olan dərəcələri vardır. Məsələn, bir kəs: “Əbu Bəkr Peyğəmbərin dostudur” dedikdə, heç şübhəsiz ki, o bu sözü ilə digər səhabələrə də xas olan və ümumi mənada işlənən dostluğu nəzərdə tutmur. Belə ki, digər səhabələr də onun dostudur. Elə isə o bu sözü ilə hansı fəziləti qeyd etmək istəyir? Şübhəsiz ki, o bununla Əbu Bəkrin Peyğəmbərin ﷺ yanında xüsusi bir məqama sahib olduğunu vurğulamaq istəmişdir.

Peyğəmbər ﷺ ilə ümməti arasında olan vəlayət (sevgi və dostluq bağı) möminlərin öz aralarında olan vəlayətdən daha möhkəm bir vəlayətdir. Təsəvvür edin ki, Allah rəsulu ﷺ bu cür möhkəm və ali zirvədə olan bir vəlayəti Əliyə aid etmişdir. Təbii ki, əgər Allah rəsulu ﷺ *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* sözü ilə bunu qəsd etməmişdirsə, o zaman onun bu sözündə Əli (ə) üçün heç bir fəzilət olmaz və bu söz sanki mənasız bir söz sayılardı. Çünki onsuz da möminlərin bir-birlərinin dostu olması bilinən bir xüsusdur. Elə isə Əlinin (ə) adının ayrıca qeyd edilməsi xüsusi bir üstünlüyü və onun vəlayətinin uca bir zirvədə olmasını göstərməkdədir.

Deməli, möminlər arasında ümumi bir vəlayət bağı olmasına baxmayaraq, Peyğəmbər ﷺ tərəfindən Əlinin vəlayətinin xüsusi olaraq qeyd edilməsi onun üçün ayrıca bir fəzilət hesab olunmalıdır. Necə ki Uca Allah *"Namazları və orta namazı qoruyun!"* (əl-Bəqərə, 238) buyuraraq "orta namaz"ı xüsusi olaraq qeyd etmişdir. Halbuki orta namaz da *"namazları qoruyun!"* əmrinə daxildir. Bu həmin namazın xüsusi bir yerinin olduğuna və fəzilətinə dəlalət etməkdədir.

Uca Allah digər bir ayədə belə buyurur: *"Kim Allaha, Onun mələklərinə və elçilərinə, Cəbrayıla və Mikayıla düşməndirsə, şübhəsiz ki, Allah da o kafirlərə düşməndir"* (əl-Bəqərə, 98). Cəbrayıl və Mikayıl adlı mələklər ayənin əvvəlində qeyd edilən *"Onun mələkləri"* ibarəsinə daxil olmalarına baxmayaraq, adları ayrıca qeyd edilmişdir. Çünki bu iki mələyin digər mələklər arasında xüsusi bir məqamı və üstünlüyü vardır. Eləcə də Əlinin vəlayətinin xüsusi olaraq qeyd edilməsi onun fəzilətinə və vəlayətinin ucalığına dəlalət etməkdədir.

Gözəl həyat tərzinə, qəlbinin təmizliyinə, sabitqədəmli olmasına və İslamı qəbul etməkdə, Allahın yolunda cihad etməkdə bir çoxlarını qabaqladığına görə, habelə Allah rəsuluna yaxınlığı və qohumluğu səbəbilə Peyğəmbər ﷺ Əlinin vəlayətini önə çəkmişdir. Şəkk yoxdur ki, bu, Əli ؑ üçün dünya və Axirət şərəfi sayılırdı.

Möminlər arasında ümumi bir vəlayət bağı olmasına baxmayaraq, Peyğəmbər ﷺ tərəfindən Əlinin vəlayətinin xüsusi olaraq qeyd edilməsi öz nəfsindən danışmayan Peyğəmbər ﷺ tərəfindən Əli ؑ üçün bir təzkiyə idi. Bu təzkiyə ilə onun qəlbindəki iman Peyğəmbər ﷺ tərəfindən təsdiqlənmiş sayılırdı. Həmçinin bu, Əlinin ؑ zahirən və batinən bu vəlayətə layiqli biri olmasına dair Peyğəmbər ﷺ tərəfindən onun üçün bir şahidlik idi. Belə ki, kim zahirən müsəlman olduğunu ifadə edərsə, artıq müsəlmanlar tərəfindən onun vəlayəti təsdiqlənməlidir, qəlbi isə Allaha həvalə olunur. Lakin Peyğəmbər ﷺ tərəfindən Əlinin vəlayətinin dilə gətirilməsi onun qəlbindəki imana açıq bir dəlil təşkil edirdi. Beləcə bu, insanlara bir işarə idi ki, onun zahiri də elə batini kimi imanla doludur və o bu vəlayətə layiqli biridir. Şəkk yoxdur ki, bu, Əli ؑ üçün böyük bir fəzilət sayılır.

Mövzu ilə əlaqədar Peyğəmbərin ﷺ bu kəlamını da qeyd etmək olar: *"O, Allah və Rəsulunu, Allah və Rəsulu da onu sevir".* [55] Bu, Əlinin Allah və Rəsulunu sevdiyinə dair Peyğəmbər ﷺ tərəfindən bir şahidlik idi. Belə ki, o öz sevgisində səmimi və sadiq biri idi. Bunun sübutu isə hədisin sonunda qeyd olunduğu kimi, Allah və Rəsulunun onu sevməsidir. Əgər Əli ؑ öz sevgisində sadiq olmasaydı, Allah və Rəsulu ﷺ onu sevməzdi.

Əlinin ﵁ qeyd olunan vəlayəti bütün dövrlər üçün keçərli olan bir vəlayətdir. Əlinin ﵁ bu vəsfi onun üçün həm Peyğəmbərin ﷺ sağlığında və vəfatından sonra, həm də öz sağlığında və vəfatından sonra dəyişməz, sabit bir vəsfdir.

Deməli, Əli ﵁ bu gün bizim, habelə atalarımızın, övladlarımızın  və Qiyamət gününə qədər gəlib-gedəcək olan hər bir möminin mövlasıdır. Biz bununla fəxr edirik! Onun vəlayətindən yalnız zəlil olan üz çevirər, ona yalnız münafiq olan nifrət edər. Mömin olan kəs onun fəzilətini inkar etməz, alim olan kəs onun Allah və Rəsulu yanındakı məqamından cahil qala bilməz. Mövlası Əli ﵁ olmayan kəs isə, heç şübhəsiz ki, ziyana və xüsrana uğrayanlardan sayılar.[56]

Ağamız Əliyə, zövcəsinə – dünya qadınlarının ən üstünü olan Zəhraya və onların gəlib-keçmiş pak zürriyyətinə Uca Allahın salamı, rizası və xeyir-bərəkəti olsun! Allah onlardan razı olsun!

Ey əhli-beyt, Uca Allahın rəhməti və bərəkəti sizin üzərinizə olsun! Həqiqətən, Allah həmdü-sənaya və tariflərə layiqdir!

Allahım, Sənin üçün əhli-beytə qarşı olan sevgimiz naminə onlarla birgə bizə də rəhm eylə!

# QƏDİR-XUM HƏDİSİNİN BAŞQA BİR VERSİYASI

## ("canişin təyinetmə" versiyası)

Şiə kitablarında Qədir-Xum hədisinin başqa bir versiyası mövcuddur. Həmin rəvayətin mətni uzunluğuna və qısalığına görə fərqli formalardadır. Hətta şiə alimi Əbu Mənsur Əhməd ibn Əli ət-Təbərsinin "əl-İhticac" adlı kitabında Qədir-Xum xütbəsi on bir səhifədə yer alır.[57]

Həmin rəvayətin mətnləri fərqli olsa da, demək olar ki, hamısı bir mövzu üzərində ittifaq etmişdir. Həmin mövzu da Əlinin ﵁ Peyğəmbərdən ﷺ sonra xəlifə təyin edilməsi və onun Peyğəmbər ﷺ tərəfindən ümmətin imamı (rəhbəri) seçilməsi mövzusudur. Həmin rəvayətlərə əsasən, bu məsələ birbaşa Allah tərəfindən vəhy yolu ilə Peyğəmbərə ﷺ bildirilmiş və bunun ümmətə çatdırılması əmr edilmişdir. İlk öncə Allah rəsulu ﷺ insanların bunu qəbul etməyəcəyindən ehtiyat etmiş, buna görə də Uca Allah bu ayəni nazil etmişdir: *"Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar"* (əl-Maidə, 67). Beləcə Peyğəmbər ﷺ Qədir-Xumda hamını bir yerə toplamış və Əlinin ﵁ əlini qaldıraraq belə demişdir: *"Əli ibn Əbu Talib mənim qardaşım, vəsim, canişinim və məndən sonra imamdır....Eşidin və itaət edin!..."*.[58]

Beləcə Qədir-Xumda Allah rəsulu ﷺ ilə birgə olan bütün səhabələr, habelə Əbu Bəkr, Ömər, Osman, mühacir və ənsarlar – bir sözlə, hər kəs Əliyə beyət etdi. Bununla da din tamamlandı və Uca Allah bu ayəni nazil etdi: *“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim”* (əl-Maidə, 3).

Qədir-Xum beyətində iştirak edən səhabələr həddən ziyadə çox idi. Hətta onların yetmiş min və daha çox olduğu deyilmişdir. Onların içində mühacir və ənsarlar, habelə Peyğəmbərin ﷺ qohumları, zövcələri və Mədinə ətrafında olan qəbilələrin nümayəndələri var idi.

Səksən dörd gündən sonra* səhabələr hamılıqla birlikdə bu əhdi pozmuş və Peyğəmbərə ﷺ verdikləri vədə xilaf çıxmışlar. Beləcə onlar Əlinin رضي الله عنه xilafət haqqını qəsb edərək əlindən aldılar. Əlidən öncə elə Qədir-Xumda Əlinin özünə beyət edən üç səhabə – Əbu Bəkr, Ömər və Osman xəlifə oldu. Vaxtı ilə özünə beyət edilən Əli isə bu xəlifələrin hamısına beyət etmiş və onların vəziri (köməkçisi, məsləhətçisi) olmuşdur.

Ümumiyyətlə, şiə alimləri tərəfindən Qədir-Xum hadisəsi ilə əlaqədar bu yöndə, bu üslubda çoxsaylı kitablar təlif edilmişdir. Həmin kitablardan biri də Əbdülhüseyn Əhməd əl-Əmini ən-Nəcəfinin qələmə aldığı “əl-Ğadir fil-Kitəbi vəs-sünnəti vəl-ədəb” (“Quranda, hədislərdə və ərəb ədəbiyyatında Qədir-Xum hadisəsi”) adlı on cildlik kitabdır. Böyük ehtimalla bu kitab bu üslubda yazılmış ən geniş kitabdır.

---

* Peyğəmbər ﷺ Qədir-Xumdan səksən dörd gün sonra vəfat etmişdir.

# QƏDİR-XUM HƏDİSİNİN "CANİŞİN TƏYİNETMƏ" VERSİYASI BARƏDƏ TƏHLİLLƏR

Biz Qədir-Xumda baş verən hadisələrdən bəhs edən, Qədir-Xum hadisəsinin Əlinin ﵁ imamətinə, Peyğəmbərdən ﷺ sonra xəlifə təyin edilməsinə, bu yöndə Peyğəmbərin ﷺ öz ümmətindən əhd almasına və hər kəsin Peyğəmbərin ﷺ önündə Əliyə ﵁ beyət etməsinə dəlalət edən rəvayətə diqqət yetirdikdə, daha sonra isə səksən dörd gündən sonra hər kəsin bu əhdi pozduqlarını, vədlərinə xilaf çıxdıqlarını, Qədir-Xumda iştirak edən, bu hadisəyə şahid olan, söz verib beyət edən hər kəsin Peyğəmbərin ﷺ vəsiyyətini dəyişdirdiklərini gördükdə bir anlıq duruxur, düşüncələrə dalır və həqiqət axtarışına çıxaraq məsələni təhlil etmək məcburiyyətində qalırıq. Ona görə ki əgər, doğrudan da, sevimli Peyğəmbərimizin ﷺ belə bir vəsiyyəti varsa və ümməti ilə belə bir əhd bağlayıbsa, qoy həmin əhdə vəfa göstərilsin, əgər belə bir şeyi əmr edibsə, əmri icra edilsin. Təbii ki, bütün bunlar tarixi hadisələrin gedişi işığında və məntiqin tələb etdiyi dəlillər ilə təhlil edilməlidir. Əgər belə etsək, o zaman həm qəlbimizdəki sevgiyə sadiq qalmış, həm də ağıl və məntiqlə hərəkət etmiş, nəticə etibarilə də imkan daxilində tarixi həqiqətlərə yaxınlaşmış olarıq. Necə ki böyük alim İbn Xaldun öz "Müqəddimə"sində, dördüncü fəsildə bu cür məsələlərə aydınlıq gətirərək qeyd etmişdir ki,

tarixi hadisələrin rəvayətində və qəbul edilməsində ağıl və məntiqlə hərəkət etmək zəruridir.[59]

***Tarixçiləri düşünməyə vadar edən, mütəfəkkirlərin diqqətini özünə cəlb edən, etinasız yanaşılması və göz yumulması mümkün olmayan həmin əqli və məntiqi dəlillərdən bəziləri aşağıdakılardır:***

**1.** Qədir-Xumda Peyğəmbər ﷺ ilə birlikdə müxtəlif yerlərdən və müxtəlif qəbilələrdən olan bu qədər insanın – on minlərlə şəxsin Allah rəsulunun ﷺ bu vəsiyyətini gizlətməsi, verdikləri sözə xilaf çıxıb əhdə vəfasızlıq göstərməsi və bir nəfər kimi hamılıqla bu işin üzərində ittifaq etmələri təsəvvür oluna bilərmi?

Halbuki heç iki nəfərin bildiyi bir şey artıq sirr sayılmır, əksinə, hər tərəfə yayılır. Elə isə necə oldu ki, "hamılıqla namaza tələsin!" nidası ilə insanlar bir yerə cəm edilsin, daha sonra Peyğəmbər ﷺ tərəfindən onlara xitab edilsin və həmin xütbədə Allah rəsulu ﷺ qəti bir şəkildə onlardan söz alıb, onlarla əhd-peyman bağlasın, lakin hər kəs öz evinə-eşiyinə dağılışandan sonra Əlinin ؓ xəlifə təyin edilməsi xəbəri heç yana yayılmasın və Əlidən ؓ başqası xəlifə seçildikdə isə Qədir-Xumda iştirak edənlərdən heç kəs qalxıb buna etirazını bildirməsin?!

Necə olur ki, Əbu Bəkr ؓ xəlifə seçildiyi gün nə bir nəfərin, nə də ki Mədinə ətrafındakı qəbilələrdən birinin gəlib buna etiraz etdiyini, bu məsələni sorğuladığını və ən azından bu işi qəribsədiyini eşitmirik?!

Deməli, bütün bunlar onu göstərir ki, Əbu Bəkrin ؓ xəlifə seçilməsi ilə qəribsənəcək, yaxud etiraz ediləcək bir hadisə baş verməmişdir.

**2.** Peyğəmbər ﷺ Vida həccində həm Ərəfatda, həm bayram günü Minada, həm də Zilhiccənin on birinci günü yüyənindən Əli ؓ tutduğu halda qatırının üzərində insanlara xütbə vermiş və bu xütbələrdə camaata dinin əsaslarını anlatmışdır.[60] Daha sonra Məkkədən Mədinəyə qayıtdıqda yol üstündə – nisbətən Mədinəyə yaxın bir yerdə "Qədir-Xum" xütbəsini söyləmişdir. Bu vaxt isə artıq həcc ziyarətində Peyğəmbərlə ﷺ birlikdə olan qəbilələr öz diyarlarına getmiş, insanlar dağılışmış və hər kəs öz ev-eşiyinə çəkilmişdi. İbn Abbasın ؓ da dediyi kimi: "İnsanlar Minadan hərə öz istiqamətində dağılışırdı".[61] Məkkə əhli artıq Məkkədə qalmış, Taif əhli Taifə, Yəmən əhli Yəmənə və Nəcd əhli də Nəcdə qayıtmışdı. Peyğəmbər ﷺ ilə Məkkədən yalnız Mədinə əhli və bir də evləri yol üstündə olanlar çıxmışdılar.

Əgər Əlinin ؓ xəlifə təyin edilməsi dində bu qədər önəmli və mühüm bir məsələ idisə, Peyğəmbər ﷺ bunu Qədir-Xumdan öncə deməli və yuxarıda qeyd etdiyim üç xütbədə bu məsələyə toxunmalı idi. Xüsusən də, biləndən sonra ki o bu xütbələrində artıq insanlarla vidalaşmış və belə demişdir: *"Ola bilsin ki, bu ildən sonra bir daha sizinlə görüşə bilməyim"*.[62]

Yaxud ən azından Mədinəyə döndükdən sonra və xüsusən də, vəfatı ilə nəticələnən xəstəliyi günlərində bu mövzuya yenidən qayıtmalı idi. Çünki o, ömrünün son günlərini yaşadığını artıq bilirdi və bunu qızı Fatiməyə də xəbər vermişdi.[63]

Xəstəliyinin ilk günlərində başında qara sarıq olduğu halda, insanların yanına gəlmiş və məsciddə minbərin üzərində oturmuşdu. Səhabələr ilə söhbətləşərək, bir növ,

onları yavaş-yavaş özünün ayrılığına hazırlayırdı. Ənsar ilə yaxşı davranmağı tövsiyə etmiş, Əbu Bəkrin və Əlinin qapısından başqa məscidə açılan bütün qapıların bağlanmasını əmr etmişdi.[64]

Əgər Peyğəmbər ﷺ özündən sonra kimisə xəlifə təyin etmişdisə, yaxud etmək istəyirdisə, məgər bu iş Əbu Bəkrin və ya Əlinin qapısından daha önəmli bir iş deyildimi?!

Təbii ki, əgər ortada belə bir mövzu var idisə, belə bir məqamda həmin mövzunun dilə gətirilməsi lazım idi.

Nə üçün Allah rəsulu ﷺ insanlara qıldırdığı son namazı üçün məscidə gəldikdə bu məsələyə toxunmadı? Həmin vaxt ağrılarının azaldığını hiss etmiş, Əli və Abbasın ﷺ çiyinləri arasında, ayaqları da yerə sürtülərək məscidə gəlmiş və Əbu Bəkrin ﷺ yanında oturmuşdur. Beləcə oturaq halda camaata namaz qıldırmış, daha sonra isə Əli ilə Abbas onu gətirdikləri kimi də evinə geri aparmışlar.[65]

Əgər Peyğəmbərin ﷺ özündən sonra birini canişin təyin etmək niyyəti var idisə, məgər bu məqam və bu zaman canişinin təyin edilməsi üçün, yaxud Qədir-Xumda təyin etmişdisə, yenidən bunun təkidlə vurğulanması üçün ən əlverişli bir zaman deyildi?! Xüsusən də, biləndən sonra ki həmin vaxt Əli ﷺ onun düz yanında idi və Peyğəmbərin ﷺ məscidə gətirilməsi üçün məhz o, köməklik göstərmişdi.

Bütün bunlar onu göstərir ki, Peyğəmbər ﷺ Qədir-Xumda əhli-beytini vəsiyyət etdikdə məqsədi o idi ki, onun əhli-beyti ilə oturub-duran, daima onlarla ünsiyyət quran mühacir və ənsarlar, habelə Mədinə ətrafında və yaxınlığında yaşayan qəbilələr onları sevsinlər, onlara sayğı və hörmət bəsləsinlər, onların öz haqlarını və əhli-beytə bağlı olaraq Peyğəmbərin ﷺ haqlarını ödəsinlər və onların

qədir-qiymətlərini bilsinlər. Yoxsa məqsəd özündən sonra kiminsə xəlifə olaraq vəsiyyət edilməsi və buna dair əhd-peyman bağlanılması deyildi.

**3.** Ola bilərmi ki, Peyğəmbər ﷺ özündən sonra Əlini ؓ xəlifə təyin etsin, daha sonra isə vəfatı ilə nəticələnən xəstəliyi günlərində insanlara namaz qıldırmağı Əbu Bəkrə ؓ tapşırsın?[66]

Əgər Peyğəmbər ﷺ tərəfindən bir xəlifə təyin edilmişdirsə, şəkk yoxdur ki, onun məscidində imam olmağa və onun insanlara namaz qıldırdığı yerdə durmağa ən çox layiq olan kəs də elə həmin canişindir. Yox, əgər camaata namaz qıldırmaq üçün başqa biri təyin edilirsə, deməli, hansısa bir əhd-peymandan və kiminsə canişin təyin edilməsindən söhbət gedə bilməz. Böyük imamətə (xilafətə) təyin edilmiş birinin kiçik imamətə (pişnamazlığa) təyin edilməməsi mümkünsüz bir şeydir.

Bu səbəbdən də Əli ؓ belə demişdir: “Peyğəmbəriniz bir rəhmət peyğəmbəridir. Nə bir kəs tərəfindən qətlə yetirilmiş, nə də qəfildən ölmüşdür, əksinə, günlərlə xəstə olmuşdur. Hər namaz vaxtı müəzzin gəlib azan verdikdə Əbu Bəkrə tapşırardı ki, insanlara namaz qıldırsın. Allah rəsulu vəfat etdikdən sonra öz aramızda məşvərət etdik və Peyğəmbərin bizim dinimiz (namaz) üçün seçdiyi şəxsi (Əbu Bəkri) öz dünyamız (xilafət) üçün seçdik”.[67]

**4.** Ənsarlar ؓ Səqifədə yığışıb öz içlərindən birini xəlifə seçmək istəyirdilər. Çünki belə hesab edirdilər ki, onlar ev əhli, yəni Mədinənin əsli sakinləri olduqlarına görə xəlifə də onlardan biri olmalıdır. Çünki onlar Peyğəmbər ﷺ Mədinəyə hicrət etməmişdən öncə də bu şəhərin rəhbərləri idilər.

Deməli, Allah rəsulunun ﷺ vəfatı ilə də rəhbərlik yenidən onlara qaytarılmalı idi.

Məgər onların Peyğəmbərdən ﷺ sonra Əlinin ؓ xəlifə təyin edilməsinə dair bir əhd-peymanları olsaydı, heç öz aralarında xilafət məsələsini müzakirə edər və bu işə meyl göstərərdilər?

Hətta Əbu Bəkr və Ömər ؓ onların yanına gəldikdə onlardan bəziləri bir həll yolu kimi belə təklif irəli sürdü ki, bir xəlifə sizdən (mühacirlərdən), bir xəlifə də bizdən olsun.[68]

Əgər xilafətə dair Peyğəmbərin ﷺ vəsiyyəti var idisə və onlar da bu vəsiyyətə şahid olub Allah rəsulunun ﷺ önündə əhd-peyman bağlamışdılarsa, belə bir təkliflə necə çıxış edə bilərdilər?

Biz ənsarlar barədə buna etiqad edirik ki, əgər, doğrudan da, Əli ؓ Qədir-Xumda xəlifə təyin edilsəydi, onlar öz içlərindən birini xəlifə seçmək üçün heç vaxt Səqifədə toplaşmazdılar. Əksinə, məsciddə Əlinin ətrafında toplaşar və ona belə deyərdilər: “Peyğəmbərə ﷺ söz verdiyimiz kimi, biz sənə beyət edirik”. Onların belə etməməsi ilə bizə aydın olur ki, ortada heç bir vəsiyyət və əhd-peyman yox idi.

**5.** Məlumdur ki, Əli ؓ insanlar içində ən güclü və ən şücaətli olanlardan biri idi. Maraqlıdır, görəsən, Peyğəmbər ﷺ xilafəti ona vəsiyyət etdiyi və buna görə də insanlardan əhd-peyman aldığı halda, Əlinin ؓ camaat içində ayağa qalxıb uca səslə öz haqqını və Peyğəmbərin ﷺ vəsiyyətinin yerinə yetirilməsini tələb etməsinə nə mane oldu?! Əgər, doğrudan da, ortada bir vəsiyyət var idisə, nə üçün Əli ؓ Peyğəmbər vəsiyyətinin icrası üçün savaşmadı? Beləcə ya

həmin vəsiyyətin yerinə yetirilməsinə nail olar, ya da ki bu yolda canından keçərdi.

Zənn edirsən ki, o, ölümdən qorxdu və ya ehtiyat elədi? Əksinə, Əli ﵁ elə bir şəxsiyyət idi ki, başqaları tərəddüd və ya ehtiyat etdiyi halda, o, daima ölümün gözünə dik baxmış və ona meydan oxumuşdu. Belə ki, hicrət gecəsi Peyğəmbərin ﷺ yatağında yatmış və özünü hər an bədənini tikə-tikə edə biləcək düşmən silahları önündə sipər etmişdi.[69]

Bədr savaşında ölümə meydan oxumuş və ilk döyüşənlərdən olmuşdu.

Uhud döyüşündə də ehtiyat etmədən döyüş meydanına ilk atılanlardan və müşriklərin bayraqlarını yerə salanlardan idi.

Həmçinin Xəndək savaşında da ölümə meydan oxumuşdu. Bu döyüşdə Amr ibn Əbdu Vudlə cəngə girən və onu öldürən də məhz Əli ﵁ olmuşdur.

Xeybər savaşında qorxmadan ölümə doğru irəliləmiş və bu şeri oxumuşdu:

“Anamın Heydər* adlandırdığı kəs mənəm.
Vahiməli meşə aslanlarıtək
Düşmənləri darmadağın edərəm”.

Bu döyüşdə Mərhəbə ilə cəngə girmiş və onu öldürmüş, daha sonra isə heç kəsin aça bilmədiyi Xeybər qalasını fəth etmişdi.[70]

Əli ﵁ Peyğəmbərlə ﷺ birlikdə döyüşmək və onun önündə savaşmaq fürsətini əldən verdikdə üzüldüyü qədər, bəlkə də, başqa heç bir şeyə üzülməmişdir. Buna görə də Təbuk savaşı zamanı Allah rəsulu ﷺ onu öz arxasında –

---

* Heydər – ərəb-dilində aslanın adlarından biridir.

Mədinədə əmir təyin etdikdə buna çox üzülmüş və belə demişdir: "Ey Allahın rəsulu, sən məni qadınların və uşaqların yanında qoyursan?" Peyğəmbər ﷺ isə cavab olaraq Əliyə ؓ belə dedi: *"Mənim yanımda Harunun Musa yanında olan məqamı kimi məqamının olmasına razı deyilsən?"*[71]

Elə zənn edirsiniz ki, Əlinin ؓ coşub-daşan bu şücaət şöləsi Peyğəmbərin ﷺ "vəsiyyət"i tapdalandığı və əhdi pozulduğu vaxt bir anda söndü? Əli ؓ güclü və şücaətli olduğu halda, heç bir mövqe ortaya qoymadı? Şəkk yoxdur ki, Əbül-Həsən Əli ibn Əbu Talib ؓ haqqı dilə gətirməkdə acizlik göstərməkdən və haqqın tapdalanmasına göz yummaqdan tamamilə uzaq bir şəxsiyyətdir.

Buna görə də onun nəticəsi olan Abdullah ibn Həsən ibn Həsən ibn Əli daima belə deyərdi: "Kim deyir ki, Əli ؓ haqqı əlindən alınmış, qəsb edilmiş biridir və Peyğəmbər ﷺ ona yerinə yetirilməsi zəruri olan bəzi işləri (xilafət və s.) əmr etmiş, o isə bunu icra edə bilməmişdir?! Əslində, Peyğəmbər ﷺ tərəfindən icrası əmr edilən bir işin Əli tərəfindən həyata keçirilməməsini iddia etmək elə Əlini alçaltmaq üçün kifayət edər".[72]

Şeyx Əli Tantavi Əlinin Əbu Bəkrə ؓ beyət etməsi mövzusu ətrafında danışdıqda belə demişdir: "Əli Əbu Bəkrə necə beyət etdi? Könül xoşluğu ilə, yoxsa məcburiyyətlə?

Əgər deyilsə ki, məcburiyyətlə beyət edib, bu düzgün olmaz. Çünki Əli ؓ kimlərinsə onu istəmədiyi bir işə məcbur edə bilmələrindən çox uca və izzətli biridir. Bunun da ən böyük sübutu budur ki, Əli Əbu Bəkr ؓ xəlifə seçildikdən sonra düz altı ay ərzində müəyyən səbəblərə

görə ona beyət etməmişdi və bu müddət ərzində də heç kəs ona təzyiq göstərə bilməmişdir.

Yox, əgər deyilsə ki, Əli رضي الله عنه könül xoşluğu ilə beyət edib, bu zaman ortaya belə bir sual çıxır: Görəsən, Əli Əbu Bəkrə beyət edərkən onun xilafətə layiqli biri olduğunu bilərək və bu beyəti ilə Uca Allahı razı salacağına etiqad edərək beyət etmişdir, yoxsa hər hansı bir dünya mənfəətinə görə?

Şəkk yoxdur ki, Əli رضي الله عنه xilafətə layiq görmədiyi bir kəsə beyət etməkdən uzaq və Allahdan qorxan bir şəxsiyyət idi". Müxtəsər şəkildə nəql etdim.[73]

**6.** Bəzi səhabələr dindən dönənlərə qarşı yürüdülən savaşlarda ilk öncə Əbu Bəkrə رضي الله عنه müxalif olmuş, sonra isə onunla razılaşmışdılar. [74] Bəziləri İraqın fəth edilmiş ərazilərinin bölgüsündə Ömərə رضي الله عنه müxalif olmuşdur. [75] Həmçinin Əli رضي الله عنه Təməttü həcci məsələsində Osmanla رضي الله عنه razılaşmamışdır.[76]

Bəs necə olur ki, bu cür məsələlərdə onlara müxalif olan və öz şəxsi rəylərini açıq bir şəkildə elan edən səhabələr bundan daha önəmli və daha mühüm olan bir məsələdə və üstəlik etiraz etmələri üçün əllərində dəlil – sübut, yəni Əlinin xəlifə olacağına dair Peyğəmbər "vəsiyyət"i olduğu halda, müxalif olmadılar?!

Allaha and olsun ki, əgər ortalıqda xəlifəliyə dair bir vəsiyyət olsaydı, onlar öz fikirlərini açıq bir şəkildə ifadə edər və etiqad etdikləri haqq sözü dilə gətirərdilər.

**7.** Əlinin Ömərin vəfatından sonra xəlifə seçimi üçün təyin etdiyi altı nəfərlik şuranın tərkibinə daxil olması, bu təklifi qəbul etməsi, beləcə Əbdürrəhman ibn Aufun üç gün ərzində Osman və ya Əlidən birinin xəlifə seçilməsi üçün

insanlarla məsləhət-məşvərət etməsi[77] açıq bir sübutdur ki, Peyğəmbər ﷺ tərəfindən Əlinin xəlifəliyinə dair hansısa bir vəsiyyətin mövcudluğundan söhbət belə gedə bilməz. Əgər belə bir vəsiyyət olsaydı, Əli رضي الله عنه onu insanlara xatırladar və dəlil olaraq ortalığa qoyardı.

Əgər Peyğəmbərin ﷺ Əli رضي الله عنه haqda belə bir vəsiyyəti olsaydı, camaat Əbdürrəhman ibn Aufa رضي الله عنه deyərdi ki, Peyğəmbər ﷺ artıq Əlini özündən sonra xəlifə təyin etdiyi halda, sən bizimlə necə məsləhət-məşvərət edirsən?

**8.** Uca Allah Qurani-Kərimdə bir çox ayədə səhabələri vəsf etmiş və onların üstün cəhətlərini sadalamışdır. Beləcə bu ayələr hər gələn yeni nəslə Uca Allahın onlar barədə olan səna və tərifini çatdırmaqdadır. Məgər Uca Allahın Rizvan beyətində iştirak etmiş səhabələr haqda olan bu tərifindən daha böyük bir tərif ola bilərmi? Uca Allah buyurur: *"Möminlər Hüdeybiyyədə ağac altında sənə beyət edərkən Allah onlardan razı qaldı. Allah onların qəlbində olanı bildi, onlara mənəvi rahatlıq endirdi və onları yaxın bir zəfərlə mükafatlandırdı"* (əl-Fəth surəsi, 18-ci ayə).

Uca Allah bu ayədə onları təkcə sözlərinə və əməllərinə görə deyil, həm də qəlblərindəki imana və sadiqliyə görə tərifləmişdir. Hansı ki onların qəlblərində olanı yalnız və yalnız aşkarı və gizlini bilən, qəlblərdə gizlədilənlərdən xəbərdar olan Allah bilə bilərdi. Belə ki, Uca Allah buyurur: *"Allah onların qəlbində olanı bildi və onlara mənəvi rahatlıq endirdi"*(əl-Fəth, 18).

Uca Allah Mədinədə yurd salmış və iman gətirmiş ənsarları tərif edərək belə buyurur: *"Onlardan (mühacirlərdən) öncə Mədinədə yurd salmış və iman gətirmiş kimsələr (ənsarlar) öz yanlarına hicrət edənləri sevir, onlara*

*verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"* (əl-Həşr surəsi, 9-cu ayə). Bu mənada çox ayələr qeyd etmək olar.

Bu yerdə sual olunur: Az və ya çox, fərq etməz, Uca Allahın təriflədiyi bu səhabələr harada idilər? Peyğəmbərin "vəsiyyət"inə qarşı onların mövqeyi necə oldu? Heç mümkündürmü ki, Peyğəmbərin ﷺ ətrafında Uca Allahın tərif etdiyi bu cür gözəl səhabələr olsun, amma daha sonra onun vəsiyyətinə əməl etməsinlər və vədə xilaf çıxsınlar?!

Nə gözəl deyilmişdir: Uca Allah Qurani-Kərimdə səhabələri xeyirlə vəsf etmiş və tərifləmişdir. Əgər bu insanlar, həqiqətən də, mövcud idilərsə, o zaman onlar kimlər idi? Yox, əgər bu cür insanlar real həyatda yox idilərsə, o zaman bu, mənasız bir söz sayılar ki, Uca Allahın kəlamı da bu cür bir vəsfdən tamamilə bəridir.

**9.** Əbu Bəkr رضي الله عنه özündən sonra xilafəti Ömərə رضي الله عنه təhvil verdikdə ölüm yatağında idi. Belə ki, o, ilk öncə böyük səhabələr ilə məsləhətləşmiş, daha sonra can üstə olarkən yazılı şəkildə xilafəti Ömərə رضي الله عنه təhvil vermişdi. O, öldükdən sonra yazılı vəsiyyəti insanlara oxundu və hər kəs bunu qəbul etdi.[78]

Heç mümkündürmü ki, Əbu Bəkrin vəsiyyəti insanlara yalnız ölümündən sonra oxunsun və hər kəs bunu qəbul etsin, lakin Peyğəmbər ﷺ elə öz sağlığında insanlarla əhd-peyman bağlasın, onlara vəsiyyət etsin, lakin vəfatından sonra sözü eşidilməsin və vəsiyyəti qəbul edilməsin?

Unutmaq lazım deyil ki, Əbu Bəkrin رضي الله عنه həyatı boyunca əldə etdiyi şərəf və izzəti məhz Muhəmmədə ﷺ iman

etdiyinə, onun yaxın dostu və səhabəsi olduğuna görə idi. Heç Peyğəmbərin ﷺ dostuna qarşı göstərilən vəfadarlıq Peyğəmbərin ﷺ özünə qarşı olan vəfadarlıqdan daha dəyərli ola bilərmi?

**10.** Əgər Peyğəmbər ﷺ xilafəti Əliyə عليه السلام vəsiyyət etmişdirsə və Qureyşin digər ailələri bu vəsiyyəti gözardı edib özləri xilafətə can atmışlarsa, o zaman Mədinədə tərəfsiz bir camaat var idi ki, onlar heç Qureyşdən deyildilər. Həmin tərəfsiz camaat ənsarlar – Mədinə əhli idi. Ənsarlar vaxtı ilə Peyğəmbərə ﷺ yardım edəcəklərinə və onu qoruyacaqlarına dair beyət etmiş, sədaqət andı içmişdilər. Ərəblərin hamısı bir yumruq olub Peyğəmbərə ﷺ qarşı müharibə elan etdikdə onlar Allah rəsulunun ﷺ yanında durmuş və onun gözü önündə savaşlarda canlarından belə keçmişdilər. Beləcə Uca Allah Qiyamət gününə qədər hər gələn yeni nəslin oxuyacağı Kitabda – Qurani-Kərimdə onları tərifləmiş və belə buyurmuşdu: *"Onlardan (mühacirlərdən) öncə Mədinədə yurd salmış və iman gətirmiş kimsələr (ənsarlar) öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"* (əl-Həşr surəsi, 9-cu ayə). Bu cür insanların Peyğəmbərin ﷺ vəfatından sonra onun vəsiyyətini gözardı etmələri və vəsiyyət etmədiyi bir kəsə beyət etmələri mümkün bir şeydirmi?

Ənsarlar Peyğəmbər ﷺ onların yanına Mədinəyə hicrət etdikləri vaxt onu qoruyaraq, ona dəstək olaraq verdikləri sözlərinə sadiq qalmış və əhdlərinə vəfa göstərmişdilər.[79] Beləcə Uca Allah onların əli ilə öz dinini qalib etmişdir. Bu

cür insanların Peyğəmbərin ﷺ "vəziyyət"inə arxa çevirərək başqa birinə meyil etmələri düşünülə bilərmi? Üstəlik onu da nəzərə almaq lazımdır ki, onlar Mədinədə, yəni öz doğma diyarlarında idilər. Sayları da az deyildi və zəif də deyildilər ki, kimlərsə onlara basqı edərək onları istəmədikləri bir işi görməyə vadar edə bilsinlər.

Onu da qeyd edək ki, Əli ؓ ənsarlara, ənsarlar da Əliyə digərlərindən daha yaxın idi. Çünki onlar Əlinin və onun babası Əbdülmüttəlibin dayıları sayılırdılar. Belə ki, ənsarların babaları cahiliyyət dönəmində Mədinədən Məkkəyə getmiş və əmisi Nofəl tərəfindən əlindən torpaqları alınan Əbdülmüttəlibə dəstək olmuşdular. Həmin vaxt Əbdülmüttəlib Xəzrəcli* dayılarından yardım istəmiş, onlar da Mədinədən gələrək Əbtah adlı yerdə qonaqlamış və Əbdülmüttəlibin əlindən alınmış haqqını ona geri qaytarmışlar.

Bu barədə şair Şimr ibn Uveymir əl-Kinəni [80] belə demişdir:

And olsun ki, Haşim oğlunun soylu dayıları
Ona yaxın əmilərindən vəfalı oldular.
Nofəl zülm və hiylə ilə aldatdıqda onları
Bacıoğlunun çağırışına cavab verdilər.
Əl çəkmədilər bu işdən haqqını almadıqca,
Əlindən alınmış haqqını ona qaytarmadıqca.
Allah Xəzrəc əhlinə əta etsin əcr və xeyir
Xeyirdə vəfalı olanlar fəzilətli kəslərdir.

Ənsarların İslam dinini qəbul etdikdən sonra onun övladı (nəvəsi) Əliyə ؓ dəstək olmaları daha məntiqə uyğun bir haldır. Belə ki, Əli ؓ onların bacısı oğlu sayılır. Hədisdə

---

* Mədinənin əsas iki qəbiləsindən biridir.

də qeyd edildiyi kimi, *“Bir qövmün bacısı oğlu elə onlardan hesab edilir”*.[81] Elə isə əgər onlar Əlinin ﵁ əlindən alınan bir haqqı olduğuna inansaydılar, heç vaxt onun haqqını Əbu Bəkrə ﵁ və ya başqasına verməzdilər.

**11.** İnsanlar Əbu Bəkrə ﵁ beyət etdilər, Səd ibn Ubadə ﵁ isə beyət etmədi və bu xəbər hər yana yayıldı. Sonra Əbu Bəkr ﵁ ona xəbər göndərərək belə dedi: “Artıq bütün camaat və sənin qövmün də beyət edib. Sən də gəl, beyət et!” Onun cavabı isə belə oldu: “Əsla! Allaha and olsun ki, mən beyət etməyəcəm”. Bəşir ibn Səd Əbu Bəkrə ﵁ belə dedi: “Ey Peyğəmbərin xəlifəsi, o beyət etməkdən imtina edib və bunda israr edir, onu narahat etməyin! Onsuz da hər kəsin beyəti ilə artıq iş öz yoluna qoyulub. O isə tərk olunmuş və təkbaşına qalmış biridir”. Əbu Bəkr ﵁ onun bu nəsihətini qəbul etdi və ona bir şey demədi. Beləcə Səd ibn Ubadə ﵁ Mədinədə qalaraq öz qövmünün ağası kimi izzətli və şərafətli bir ömür sürdü. Əbu Bəkr ﵁ vəfat edib Ömər ﵁ xilafətə gəldikdən sonra da Ömərə beyət etmədi. Bir gün Ömər Səd ﵁ ilə rastlaşdıqda Səd ona belə dedi: “Bu iş (xilafət) artıq sənə keçib. Lakin Allaha and olsun ki, dostun (Əbu Bəkr) bizə səndən daha sevimli idi”.[82]

Bütün bunlarla yanaşı Səd ibn Ubadə ﵁ Xəzrəclilərin ağsaqqalı, böyüyü olaraq qaldı. O, iki xəlifəyə beyət etmədiyinə baxmayaraq, heç kəs onun qövmü içindəki ağsaqqallığına, şəninə və şərəfinə ləkə gətirəcək hər hansı bir hərəkətə yol vermədi.

***Biz baş verən bu hadisəyə iki aspektdən yanaşırıq:***

Birincisi, Səd ﵁ heç kəsə beyət etməsə də, beyətin məhz Əlinin ﵁ haqqı olduğunu da demədi. Əgər belə olsaydı, çəkinmədən bunu elan edər və bu işdə bütün ənsarlar ona

tabe olardı. Sadəcə olaraq, Səd ﵁ özünün və qövmünün xilafət işlərində payı olduğuna inandığı üçün beyət etmədi. Çünki Səd ﵁ son dərəcə alicənab, qürurlu biri idi və beləcə kiməsə beyət etməyi öz qüruruna sığışdıra bilmədi.

İkincisi, Səd ﵁ beyət etmədi və etmədiyini də açıq şəkildə hər kəsə elan etdi. Görəsən, Əli ﵁ barədə zənn edə bilərikmi ki, Peyğəmbərin ﷺ onun haqda "vəsiyyət"i olsun, lakin o, Səd ﵁ kimi hərəkət edə bilməsin və aciz vəziyyətdə qalsın?

Əgər Səd ﵁ beyət etmədikdə Əbu Bəkr və Ömər ﵄ ona qarşı heç bir təzyiq göstərmədilərsə, Əli ﵁ beyət etməyəcəyi halda ona təzyiqmi göstərəcəkdilər?! Şəkk yoxdur ki, əgər Əli ﵁ də Səd ﵁ kimi düşünsəydi, ondan daha cürətli hərəkət edər və daha şücaətli bir mövqe ortaya qoyardı. Əgər məsələ bu yerdədirsə, o zaman, görəsən onun xilafətinə dair əlində Peyğəmbərin ﷺ "vəsiyyət"i olsaydı, necə hərəkət edərdi?!

**12.** Əbu Bəkr əs-Siddiq ﵁ Qureyş qəbiləsinin adlı-sanlı, güc və söz sahibi olan nəsillərindən deyildir. O, Qureyş qəbiləsi içində heç bir nüfuza sahib olmayan Bənu Teym ailəsindən idi. Onların isə digər Qureyş ailələri kimi Kəbəni ziyarətə gələn zəvvarların su və qida tədarüklərini qarşılayacaq nə fəxri bir vəzifələri, nə silah anbarları, nə məsləhət-məşvərət məclisləri var idi, nə də ki, Kəbənin açarlarına sahib idilər.[83]

Əgər Əbu Bəkr əs-Siddiq ﵁ Bənu Məxzum, Bənu Əbdud-dar kimi Qureyşin sayılıb-seçilən və rəhbərliyə can atan nəsillərindən olsaydı, deyərdik ki, o öz əşirətinin, qohum-əqrəbasının hesabına cəsarət tapdı və Haşim nəslinə qibtə etdi. Necə ki Əbu Cəhl Amr ibn Hişam əl-Məxzumi

Peyğəmbərin nübüvvətinə görə ona qısqanmışdı. Çünki Allah rəsulu ﷺ Mənaf oğullarından idi və Bənu Məxzum Qureyşin şan-şöhrətini onlara təhvil vermək istəmirdi. Əbu Bəkrə ﵁ gəldikdə isə onun söz və güc sahibi əşirəti yox idi. O öz gücünü və dəstəyini qohum-əqrəbasından deyil, müsəlmanların şurasından, onların könül xoşluğu ilə verdikləri beyətlərindən və seçimlərindən almışdı.

Həmçinin Ömər ibn Xattab ﵁ da Qureyşin söz sahibi olan böyük ailələrindən deyildi. Ona görə də Peyğəmbər ﷺ Hudeybiyyə sülhü zamanı onu Məkkəyə – Qureyşin yanına göndərmək istədikdə üzrxahlıq etmiş və belə demişdi: "Ey Allahın rəsulu, Məkkədə Bənu Ədiy içərisində məni himayə edəcək, qoruya biləcək bir nəfər belə yoxdur".[84]

Bir sözlə, ilk iki xəlifə Haşim nəsli ilə rəqabət apara biləcək hansısa bir əşirətin və ya güc sahibi hansısa bir nəslin nümayəndələri deyildilər ki, hətta biz: "Onlar rəqabət, yaxud güc yolu ilə xilafəti qəsb etdilər" deyə bilək. Əksinə, onların müsəlmanların əhd-peymanlarına, beyətlərinə nail olmalarına səbəb müsəlmanların şurası, könül xoşluğu və söz birliyi ilə onları xilafətə layiq bilmələri olmuşdur.

**13.** Əhzab günü müsəlmanlar Peyğəmbər ﷺ ilə birlikdə heç vaxt qarşılaşmadıqları sıxıntı ilə qarşılaşdılar. Belə ki, bir tərəfdən şiddətli aclıq və soyuq hava şəraiti, digər tərəfdən isə düşmənin hücum təhlükəsi və digər çətinliklər. Uca Allah onların bu halını Qurani-Kərimdə belə vəsf etmişdir: *"O zaman onlar sizin həm yuxarı və həm də aşağı tərəfinizdən üstünüzə gəlmişdilər. O vaxt qorxudan gözlər bərəlmiş, ürəklər xirtdəyə çatmış və siz də Allah barəsində zənnə-gümana qapılmışdınız. Orada möminlər imtahana çəkilmiş və güclü*

*sarsıntıya məruz qalmışdılar"* (əl-Əhzab surəsi, 10-11). Uca Allah bu ayədə qeyd etdiyi sıxıntıdan başqa heç bir dünya sıxıntısını Axirət sıxıntısına bənzətməmişdir. Çünki bu sıxıntı, bir növ, Axirət sıxıntısına bənzəyirdi. Uca Allah Axirət sıxıntısı barədə belə buyurur: *"Onları ürəklərin xirtdəyə çatacağı, özləri də qəm-qüssə içində olacaqları Yaxınlaşan günlə qorxut!"* (Ğafir surəsi, 18-ci ayə)[85]

Əhzab savaşı zamanı mühasirə günlərində səhabələrin Peyğəmbərlə ﷺ birgə ac hallarını təsəvvür et. Bir tərəfdən qida ehtiyatı az, digər tərəfdən isə hava çox soyuq idi. Əyinlərində isti paltarları yox idi. Özləri isə döyüş hazırlığından və şəhər ətrafına xəndək qazdıqdan sonra yorğun halda idilər. Digər tərəfdən də önlərindən hücum etməyə hazırlaşan düşmənin və arxadan zərbə vurmağı fürsət güdən yəhudilərin çoxluğu, özlərinin isə az və yorğun olmaları səbəbi ilə qorxu içində idilər. Mədinənin içində isə münafiqlər məqam gözləyirdilər, artıq nifaqları da tam çılpaqlığı ilə üzə çıxmışdı: *"O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: "Allah və Onun Elçisi bizə ancaq yalan vədə vermişdir", – deyirdilər"* (əl-Əhzab surəsi, 12-ci ayə).

Bir sözlə, ən qüvvətli qəlbləri sarsıdan və ən əzmkar insanların əzmini qıran şiddətli bir sıxıntı!

Əgər mühacirlər din və imanlarında şəkk və şübhə içində olsaydılar, bu cür çətin və sıxıntılı bir gündə Peyğəmbəri ﷺ tərk edər, xəndəyi keçərək müşrik qövmlərinin yanında səff tutardılar. Əbu Bəkr رضي الله عنه Bənu Teymə, Ömər رضي الله عنه Bənu Ədiyə, Osman رضي الله عنه da əmisi oğlu, müşriklərin rəisi Əbu Süfyana qoşular və onlara belə deyərdilər: "Muhəmməd ilə birlikdə idik, artıq onu tərk edərək sizə qoşulduq". Əgər onlar belə etsəydilər, şəkk

yoxdur ki, öz əşirətlərindən hörmət və izzət görəcək, Məkkəni tərk etdikdən sonra talan olunmuş mal-dövlətlərini də yenidən əldə etmiş olacaqdılar. Elə müşriklərin də onlardan istədikləri və umduqları bu idi.

Lakin onlar belə etmədilər. Nəinki etməmək, heç belə bir təmənnini ağıllarının ucundan belə keçirtmədilər. Əksinə, onlar üçün yanıb kül olmaları belə bir fikri ağıllarından keçirtmələrindən daha yüngül bir şey olardı. Bu cür sıxıntılı və çətin anda belə onların şüarı Uca Allahın onlar barədə xəbər verdiyi və Qiyamətəcən oxunacaq Kitabında qeyd etdiyi kimi oldu: *"Onlar dedilər: Bu, Allahın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər! Bu onların yalnız imanını və itaətini artırdı"* (əl-Əhzab, 22-ci ayə).

Belə bir sıxıntılı gündə Allah rəsulu ﷺ ilə birlikdə sabitqədəm qalan və bu çətinlikdə ona qarşı vəfalı olan kəslər barədə zənn etmək olarmı ki, Peyğəmbər ﷺ vəfat etdikdən sonra onlar öz əhdlərinə xilaf çıxıb vədlərini pozdular?

**14.** Uhud döyüşündə müsəlmanlar məğlubiyyətə uğradıqda və "Peyğəmbər öldürüldü" xəbəri ətrafa yayıldıqda müsəlmanlar qəmə qərq oldu və döyüş meydanında olanlar dağlara, təpələrə dağılışdılar. Onlardan bir dəstə isə döyüş meydanından qaçdı. Qaçanlardan biri də Osman ibn Əffan رضي الله عنه idi.[86]

Onlar hara getdilər? Onlar Mədinəyə qayıtdılar ki, orada qalan digər müsəlmanların yanına getsinlər və Peyğəmbərin ﷺ geridə qoyduğu məmləkətinə və orada olan məscidinə, namazgahına, evinə geri dönsünlər.

Halbuki Osman رضي الله عنه istəsəydi, Mədinəyə deyil, müşriklərin yanına gedər və onlara qoşulardı. Belə ki,

müşriklərin başçısı onun əmisi oğlu Əbu Süfyan idi. Onun yanına getsəydi, ondan hörmət və izzət görərdi. Həmçinin də digər mühacirlər. Əgər onlar müşriklərin yanına getsəydilər, müşriklərin içində onlardan hər birini qoruya və himayə edə biləcək yaxınları var idi. Lakin Peyğəmbərin ﷺ öldürüldüyünü zənn etmələrinə baxmayaraq, onlardan heç birinin ağlına belə bir fikir gəlmədi. Çünki Allah rəsulu ﷺ öldürülsəydi belə, onun dini ölməmişdi və səhabələr də bu din üzərində sabitqədəm qalmışdılar.

Bu səbəbdən də Quran onların döyüş meydanından qaçmalarını və Uca Allahın artıq onları əfv etdiklərini xəbər vermişdir: *"Şeytan Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən üz döndərənləri qazandıqları bəzi günahlar üzündən səhv etməyə vadar etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah Bağışlayandır, Həlimdir"* (Ali-İmran surəsi, 155-ci ayə). Çünki onlar döyüş meydanından qaçsalar da, bu çətin və ağır anda Uca Allahın haqq dinindən üz döndərməmişdilər.

Bundan sonra kimsə zənn edə bilərmi ki, bu cür insanlar Peyğəmbərin ﷺ vəfatından sonra onun dinindən üz döndərsinlər və vədlərinə xilaf çıxsınlar? Halbuki Peyğəmbərin ölüm xəbəri və müsəlmanların məğlubiyyətə uğradığı məlumatı hər yana yayıldıqda onlar haqq din üzərində sabit qaldılar. Baş verən bu hadisələr onların din üzərində olan sabitliklərinə maneə törətmədi. Onlar döyüş meydanından qaçmalarına baxmayaraq, Peyğəmbəri ﷺ itirdiklərini zənn etsələr belə, onun dinindən üz çevirmək barədə fikirləşmədilər.

Belə bir vəziyyətdə öz dinlərindən üz döndərməyən bir qövmün bundan sonra hər hansı bir məqamda dinlərindən üz döndərmələri qeyri-mümkün bir şeydir!

**15.** Osman ﵁ evində mühasirəyə alındıqda insanlara İslamı ilk qəbul edənlərdən olduğunu və Peyğəmbərin ﷺ onun haqda dediyi kəlamını xatırlatmışdı. O belə demişdi: "Allah üçün sizə xatırladıram, məgər Peyğəmbər Təbuk döyüşü üçün əl-Usra ordusunu hazırlayarkən: *"Kim Allah qatında qəbul olunan bir sədəqə verər"* dedikdə və hamı sıxıntı içində olduğu halda, mən ordunun xərclərini ödəmədimmi?" Camaat: "Bəli", – dedi. Osman ﵁ sözünə davam edərək dedi: "Allah üçün sizə xatırladıram, məgər bilmirsinizmi ki, Rumə quyusundan yalnız pul müqabilində su götürmək olurdu və mən həmin quyunu satın alaraq camaatın: varlının, kasıbın, yolçunun – bir sözlə, hamının istifadəsinə vermədimmi?" Camaat: "Bəli", – dedi. Daha sonra Osman ﵁ başqa şeylər də saydı.[87]

Necə olur ki, Osman ﵁ Allaha and verərək insanlara Rumə quyusunu aldığını xatırlada bilir, amma Əli ﵁ isə hər kəsin gözü önündə baş vermiş bir hadisəni – Peyğəmbərin ﷺ onu özündən sonra "xəlifə təyin etdiyi"ni camaata xatırlatmır?

**16.** Səhabələrin haqqı hər şeydən üstün tutmalarına dair mövqeləri heyrətedicidir. Misal olaraq, Əbu Hüzeyfə ibn Ütbə ibn Rabiəni qeyd etmək olar. Belə ki, o, Bədr döyüşündə iştirak etmiş, atasının, əmisinin və qardaşının müsəlmanların qılıncları ilə necə öldürüldüyünün şahidi olmuşdu. Daha sonra atasının cansız bədəninin Bədr quyularına tərəf sürütdəndiyini və ora atıldığını gördü. Bu cür ağır bir səhnə qarşısında möhkəm qəlbli və güclü insanlar belə ağıllarını itirə bilər. Lakin səhabələrin haqq üzərindəki sabitqədəmlikləri bundan daha qüvvətli idi. Bu səbədən də o, atasının bu acınacaqlı halını gördükdə və

Peyğəmbər ﷺ ona *"ey Əbu Hüzeyfə, deyəsən, atanın başına gələnlər səni üzdü"* dedikdə onun üzünün rəngi dəyişmədi və Allah rəsuluna ﷺ belə cavab verdi: "Ey Allahın elçisi, mənə nə olub ki, mən Allah və Rəsuluna iman etməyim?! Lakin qövmü içərisində ağlında və şərəfində Ütbəyə bənzər biri yox idi. Buna görə də çox istəyirdim ki, Allah onu İslama hidayət etsin. Ölümünü gördükdə isə bu hal məni çox üzdü".[88]

Haqdan bu cür möhkəm tutunan, haqqı öz atalarından və digər doğmalarından üstün görən bu insanların Əbu Bəkrə və ya başqa birisinə görə Peyğəmbərin ﷺ vəsiyyətinə və qoyub getdiyi haqqa arxa çevirmələri təsəvvür oluna bilərmi?

Uca Allaha and olsun ki, bu, qeyri-mümkün bir şeydir! Əgər, doğrudan da, ortada hər hansı bir vəsiyyət və əhd-peyman olsaydı, onlar haqqı dilə gətirməkdən və haqqı icra etməkdən geri qalmazdılar. Çünki onlar haqqı hər şeydən uca tutmaqda insanların ən sadiq olanları və haqqı icra etməkdə ən cəsurları idilər.

**17.** Peyğəmbər ﷺ vəfat etdikdə mürtədlər dindən döndülər. Əbu Bəkr رضي الله عنه də onlara qarşı savaş elan etdi.[89] Onlarla savaşmasının səbəblərindən biri də zəkat verməkdən imtina etmələri və ya Əbu Bəkrin رضي الله عنه xilafətinə etiraz etmələri idi. Necə ki onlardan biri nəzmə çəkərək belə demişdir:[90]

Peyğəmbər aramızda ikən ona itaət edirdik
Bəs indi Əbu Bəkrə nə üçün itaət etməliyik?!

Lakin onlardan heç kəs "Əlinin xilafəti barədə bizim əlimizdə Peyğəmbərin vəsiyyəti var, ona görə də sonuna qədər səninlə savaşacayıq" demədilər. Əgər ortalıqda belə

bir vəsiyyət olsaydı, heç şübhəsiz ki, bu, Əbu Bəkrə ﵁ qarşı savaşmaları üçün onların əlində olan ən əsaslı dəlil və onun rəhbərliyinə qarşı qaldırdıqları üsyan üçün tutarlı bir bəhanə olardı.

**18.** Bənu Hənifə Müseyləmənin yalançı olduğunu bildiyi halda, yerlibazlıq səbəbi ilə onun səfində duraraq Əbu Bəkrə və müsəlmanlara qarşı vuruşdu.* Həmçinin Bənu Əsəd Tuleyha əl-Əsədinin, Bənu Təmim isə Səcahın səfində savaşdı. Hamısı da yalan iddialar ilə insanları aldatmaq istəyən kəslər idi. Bu cür yalançıların səfində duran, onlara dəstək olan kəslər tapıldığı halda, heç mümkündürmü ki, Əli ﵁ kimi doğru danışan və təmiz bir şəxsiyyətin əlində haqq olan bir vəsiyyət olsun, amma ona dəstək olacaq, onun səfində duracaq və onunla birgə vuruşacaq bir nəfər belə olmasın?!

**19.** Səhabələr Peyğəmbərin ﷺ həyat tərzini hər bir incəliyinə qədər diqqətli bir şəkildə izlədi. Onun qonaqladığı yerləri, getdiyi yolları, özünə doğru namaz qıldığı sütunu, danışıq tərzini, oturuş və duruş şəklini, gəzərkən necə gəzdiyini, yatarkən necə yatdığını bizlərə vəsf etdilər. Yatarkən necə nəfəs alıb-verməsindən namaz qılarkən saqqalının tərpənməsinə qədər hər bir incəliyi nəql etdilər. Onun kəlamlarını hifz edib sonrakı nəsillərə ötürdülər. Deyə bilərik ki, Peyğəmbərimizdən ﷺ səhih olaraq nəql olunanlar qədər heç bir peyğəmbərdən bu genişlikdə elmi və mədəni irs nəql olunmamışdır. Bütün bunları biləndən sonra heç mümkündürmü ki, Peyğəmbər ﷺ

---

* Müseyləmə – Peyğəmbərin ﷺ vəfatından sonra Əbu Bəkrin ﵁ xilafəti zamanı özünün peyğəmbər olduğunu iddia etmiş yalançı biri idi.

hər hansı bir mövzuda vəsiyyət etsin, müsəlmanlar ilə əhd-peyman bağlasın, amma bu vəsiyyət gizli qalsın və ya gizlədilsin, aşkara çıxmasın və yayılmasın?

**20.** Səhabələr ﵃ müxtəlif qəbilələrdən və ayrı-ayrı əşirətlərdən idilər. Onları bir araya toplayan və bir-birlərinə yaxın edən yalnız və yalnız din faktoru və Peyğəmbər ﷺ sevgisi idi. Elə fərz edək ki, həmin qəbilələrdən və ya əşirətlərdən biri vəsiyyəti gizlətdi və hiylə etdi, bəs digərləri harada idilər? Elə fərz edək ki, bir diyar nahaqdan yana iş gördü, bəs digər şəhərlər harada idi?

**21.** Süffə əhli öz məmləkətlərini, qohum-əqrəbalarını tərk edib Mədinəyə – Peyğəmbərin ﷺ yanına hicrət edən kəslər idi. Onlar bu yolda hər bir çətinliyi, aclığı, yoxsulluğu göz önünə almışdılar.* Məqsədləri isə yalnız Peyğəmbərə ﷺ tabe olmaq, onun yanına gələrək dini öyrənmək idi. Bütün bunlardan sonra Peyğəmbərin ﷺ vəsiyyətini gizlətmələri üçün kim onları dünya malı və ya başqa bir şeylə aldada bilərdi?

**22.** Əli ﵁ xəlifə olana qədər keçən bütün illər ərzində heç vaxt xilafət arzusu ilə yaşamadı və xəlifə olduqda da buna görə fərəh hissi duymadı, əksinə, belə dedi: “Məni tərk edin və məndən başqasını seçin!”[91]

Maraqlıdır, görəsən, Əli ﵁ nə üçün: “Bəli, bu Peyğəmbərin ﷺ haqq olan vəsiyyəti və sizin boynunuzda olan əhdidir” demədi?! Həmçinin Əli ﵁ “məni tərk edin və məndən başqasını seçin” deyib üzrxahlıq edəndə nə üçün

* Mədinədə ev-eşikləri olmadığına görə Peyğəmbər ﷺ məscidində qalırdılar.

camaat: “Sən Peyğəmbərdən sonra onun canişinisən, biz səndən başqasını seçə bilmərik, çünki bu, Peyğəmbərin bizə olan vəsiyyəti idi” demədilər?

**23.** Abdullah ibn Zübeyr ؓ Yezidə qarşı çıxdı. Nəticədə, bir qrup insan onun ətrafına toplandı və Kəbəyə sığındılar. Ölənə qədər də savaşdı.[92] Halbuki onun əlində Peyğəmbərin ﷺ əhdi və vəsiyyəti yox idi.

Məgər imam Əli ؓ, yaxud oğlu Həsən ؓ əllərində Peyğəmbərin ﷺ “vəsiyyət”i olduğu halda, bibisi oğlu Abdullah ibn Zübeyrin ؓ etdiyinin eynisini edə bilməzdilər?

**24.** Təsəvvür edin ki, Peyğəmbərin “vəsiyyət”ini gözardı etməklə, onun əhdini pozmaqla vəsf olunan bu insanlar vaxtı ilə Allah rəsulu ﷺ Məkkədə tək və gücsüz olduğu halda, İslamı qəbul edib ona tabe olan kəslər idi. Bütün dünya bir səff halında önlərində durduğu halda, onlar saylarının az olmasına baxmayaraq, Peyğəmbər ﷺ ilə bir səfdə durmuşdular. Bu seçimlərində isə onlar heç vaxt tərəddüd hissi duymamış, öz səflərini yəqinliklə və əminliklə bəlli etmişdilər. Bütün dünyanı əldən versəydilər belə, onlar Allah və Rəsulu ilə birlikdə idilər. Bu səbəbdən də onların özlərini din uğrunda fəda etmələri, canlarından belə keçməyə hazır olmaları iman gücündən doğan bir hal idi. Çünki onlar yəqinliklə inanırdılar ki, iman etdikləri, hər sözünü təsdiq etdikləri və özünə tabe olduqları şəxs, həqiqətən də, Allahın haqq və sadiq elçisidir. Onlar yəqinliklə inanırdılar ki, tabe olduqları bu yolda bütün dünya nemətlərini əldən versələr belə, bu yol sonunda onları Axirət Cənnətinə aparacaqdır.

Bütün bunlardan sonra onların öz etiqadlarını və qənaətlərini dəyişdirdiklərinə və hər hansı bir keçici dünya marağına görə Peyğəmbərə verdikləri sözü pozduqlarınamı inanaq?

Təsəvvür edin ki, bu insanların Peyğəmbərin ﷺ dilindən çıxan hər kəlməsinin doğruluğuna dair qəlblərində daşıdıqları yəqinlikləri gözləri ilə gördükləri şeyin həqiqətinə dair hasil olan yəqinliklərindən daha böyük idi. Onlara: "Muhəmməd gecə vaxtı Beytül-Məqdisə getdiyini və sonra yenidən həmin gecə Məkkəyə qayıtdığını iddia edir", – deyildikdə cavabları belə oldu: "Əgər belə deyibsə, deməli, doğru söyləyibdir".[93]

Bütün bunlardan sonra mümkündürmü ki, Peyğəmbər ﷺ hər hansı bir mövzuda vəsiyyət etsin, müsəlmanlarla əhd-peyman bağlasın, lakin onlar bu əhdi pozsunlar və vədlərinə xilaf çıxsınlar? Halbuki məhz onlar ona yəqinliklə iman etmiş və hər dediyi sözünü təsdiqləyərək bütün dünya nemətlərindən üz çevirmişdilər.

Həmçinin Peyğəmbərin ﷺ vəfatından sonra onların Allah yolunda etdikləri cihadlarına, ələlxüsus dindən üz döndərənlərə qarşı etdikləri savaşlarına və yalançı peyğəmbərlik iddialarını necə alt-üst etdiklərinə baxın! Onlar bu cihadlarını Allah rəsulu ﷺ ilə birlikdə etdikləri cihadlarının bir davamı hesab edirdilər. Peyğəmbərlik iddiasında olan yalançı Müseyləmənin ordusuna qarşı vuruşduqda kəfənlərini geyinmiş, bədənlərini şəhadət ətri ilə ətirləmişdilər. Beləcə şəhadət məqamına ucalmaq üçün can atırdılar ki, onlar ölsələr belə, Peyğəmbərin ﷺ dini və risaləti yer üzündə əbədi qalsın. Bu döyüşdə şəhid olanların əksəriyyəti Quranı əzbər bilən səhabələr idi.

Necə düşünə bilərik ki, bu cür döyüşlərdə şəhadət məqamına yüksələn bu Quran hafizləri Əlinin ﵇ haqqını qəsb etmiş və Peyğəmbərin ﷺ vəsiyyətini gözardı etmiş bir xəlifənin bayrağı altında vuruşduqlarını bilə-bilə ölümə doğru can atsınlar?!

**25.** Məkkə dönəmində İslamı qəbul edənlərin Allah rəsulu ﷺ ilə birlikdə məruz qaldıqları bəla və müsibətləri, çəkdikləri əziyyətləri xatırla! Onlar öz doğma ev-eşiklərindən didərgin düşmüş, mal-mülklərini əldən vermiş və Peyğəmbər ﷺ ilə birlikdə tamamilə başqa bir diyara, yəni onlara yad olan bir şəhərə – Mədinəyə hicrət etmişdilər. Həmin şəhərdə isə nə mal-mülkləri, nə də ev-eşikləri var idi. Əgər Allah və Rəsulunun dediklərinə tam imanları, Allah və Rəsulunun vəd etdiklərinə tam əminlikləri olmasaydı, sanki nəticəsi bəlli olmayan bir yola qədəm qoyardılar. Kimsə zənn edə bilərmi ki, onlar bütün bunları hansısa bir dünya mənfəətinə görə edirdi?

Bir sözlə, onlar Allah və Rəsulu üçün dünyadan əllərini üzmüş kəslər idi. Elə isə heç düşünülə bilərmi ki, onlar Peyğəmbər ﷺ ilə bu qədər çətin və keşməkeşli həyat yolu keçdikdən, öz gözləri ilə vəhyin ona necə endiyini və ecazkar bir möcüzənin onun önündə dil açıb necə danışdığını gördükdən sonra ömürlərinin sonlarında hansısa bir dünya mənfəətinə görə Allah və Rəsulundan üz çevirsinlər?!

**26.** Budur, Ammar ibn Yasir ﵁, onun anası və atası peyğəmbərliyin ilk günlərindən Allah rəsuluna ﷺ tabe olmuş, zəif, kölə olmalarına baxmayaraq, bu yolda min bir əzab-əziyyətə səbir etmiş və Qureyşin qaniçən cəlladları

qarşısında dik dura bilmişdilər. Məkkənin qızmar çöllərində İslam dinindən üz döndərmələri üçün işgəncələrə məruz qalmış, bu işgəncələr qarşısında Məkkənin dağları dözə bilmədiyi halda, onlar hər cür əzaba tab gətirmiş və zəiflik göstərməmişdilər. Beləcə Ammarın atası Yasir ؓ işgəncələr altında canını tapşırmış, anası Sumeyyə isə İslamın ilk şəhidi olmuşdur. Bütün bunların müqabilində isə Allah rəsulu ﷺ onlara qəlblərində yəqinliklə iman etdikləri Axirət nemətindən başqa dünya mənfəətindən heç bir şey vəd etməmiş və onlara belə demişdir: *"Ey Ammarın ailəsi, səbir edin! Şübhəsiz ki, yeriniz Cənnətdir"*.[94]

Bütün bunlardan sonra Ammar ibn Yasir ؓ əlli il yaşamış, Peyğəmbər ﷺ ilə birlikdə Mədinəyə hicrət etmişdir. Allah rəsulu ﷺ onun fitnələr önündə haqq üzərində sabit qalacağını qabaqcadan xəbər vermiş və belə demişdir: *"Ammarı baği – həddi aşmış tayfa öldürəcəkdir"*.[95] İmam Əli ؓ xəlifə seçildikdə Ammar ؓ onunla birgə idi və yaşının çox olmasına baxmayaraq, onunla birgə döyüş meydanlarına çıxırdı. Yaşı doxsan dördə yaxın idi. Bu səbəbdən əlində qılınc, nizə tutduqda əli əsərdi. O, Əli ؓ ilə birgə döyüş meydanına çıxdıqda belə demişdir: "Canım Əlində olan Allaha and olsun ki, mən bu bayraq ilə Peyğəmbərlə ﷺ birlikdə üç dəfə döyüş meydanına çıxmışam, bu artıq dördüncüdür. Canım Əlində olan Allaha and olsun ki, Əhsaya qədər bizi vursalar belə, yenə də əminəm ki, biz haqq, onlar isə batil üzərindədirlər".[96]

Bu cür yəqinliyə sahib olan və möminlərin əmiri Əli ibn Əbu Talibi ؓ bu dərəcədə sevən bir kəsin Peyğəmbərin ﷺ vəsiyyətini eşitdikdən və buna şahid olduqdan sonra Əlidən başqasına beyət etməsi təsəvvür oluna bilərmi?

Əgər ortalıqda hər hansı bir vəsiyyət, əhd-peyman var idisə, Ammar Əbu Bəkrə, Ömərə və Osmana: “Siz haqqınız olmayan xilafəti qəsb etdiniz və Peyğəmbərə ﷺ verdiyiniz sözü pozdunuz”, – deyə bilməyəcək qədər zəif birisi idi?

Görəsən, özü və valideynləri Allah yolunda o qədər çətinliklər gördükdən, ana-atası işgəncələr altında şəhid olduqdan sonra Ammar رضي الله عنه nədən qorxurdu?!

Görəsən, yaşının çox, bədəninin isə zəif olmasına baxmayaraq, Əliyə رضي الله عنه beyət etdiyinə görə ona qarşı vəfa borcunu ödəməsi üçün ölümün gözünə dik baxan Ammar رضي الله عنه nədən ehtiyat edirdi?! Əgər Peyğəmbərin ﷺ Əlinin رضي الله عنه xilafətinə dair vəsiyyəti var idisə, nə üçün Ammar رضي الله عنه bu vəsiyyətə qarşı vəfa borcunu ödəmədi və öz şücaətini ortaya qoymadı?!

**27.** Həsən ibn Əli رضي الله عنه Qədir-Xumda valideynləri ilə birgə idi və hər şeyi dərk edəcək yaşda idi. Valideynləri Əli və Fatimə Peyğəmbər ﷺ ilə birgə həcc etmişdilər. Allah rəsulu ﷺ Qədir-Xumda xütbə verərkən, böyük ehtimalla, o da atasının yanında idi və Peyğəmbərin ﷺ atasının əlini necə qaldırdığını da görmüş, xütbədə Allah rəsulunun ﷺ nə dediyini də eşitmiş və yadda saxlamışdı. Həmin vaxt onun səkkiz yaşı var idi. İllər ötdükdən sonra elə bir vaxt gəldi ki, o özü də xəlifə oldu və xilafət dövrü cəmi altı ay sürdü. Özü xilafətə daha layiqli olduğu halda, müsəlman cəmiyyətini və dövlətini qorumaq naminə onu Muaviyəyə təhvil verdi. Heç mümkündürmü ki, Həsən رضي الله عنه Qədir-Xum hadisəsində iştirak etsin və Peyğəmbərin ﷺ atası barədə dediyi vəsiyyətini eşitsin, amma daha sonra xilafətdən əl çəkib onu Əbu Süfyanın oğluna təhvil versin?!

Ağamız Həsənin ﷺ dəyərini düşürməkdən ötrü bundan da "əlverişli" bir məqam ola bilərmi? O özü atası üçün edilmiş bir vəsiyyəti gözardı etmişdisə, bu vəsiyyəti gözardı edəcək digər insanları necə qınamaq olar?

Bir anlıq Həsən ilə Osmanın ﷺ halını müqayisə et! Osman ﷺ Peyğəmbərin "vəsiyyət"i ilə deyil, müsəlmanların şurasının seçimi ilə xilafətə gəldi. Evi mühasirəyə alınıb ondan xilafətdən əl çəkməsi tələb olunduqda sonuna qədər müqavimət göstərdi və özünü ölümün ağuşuna atdı, lakin müsəlmanların beyətinə xilaf çıxmadı.

Elə isə anası Allah rəsulunun ﷺ cismindən bir parça olan, atası Allah və Rəsulunun sevimlisi, hər bir mömin mövlası olan, Peyğəmbərin nəvəsi Həsənin ﷺ Allah elçisinin ﷺ əhdinə xilaf çıxması, Peyğəmbər ﷺ tərəfindən atasına vəsiyyət edilmiş xilafət öz əlində olduğu halda, onu başqasına təhvil verməsi necə düşünülə bilər?

Mümkündürmü ki, Peyğəmbərin ﷺ gül ətirli nəvəsi atası haqda deyilmiş "vəsiyyət"i eşitsin, amma məcbur qalacağı halda, Osmanın ﷺ etdiyinin eynisini edə bilməsin? Halbuki əgər, doğrudan da, ortalıqda Peyğəmbər vəsiyyəti var idisə, Həsən ﷺ üçün ölümə getməsi bu vəsiyyətdən əl çəkib xilafəti başqasına verməsindən daha yüngül olmalı idi.

**28.** Mövzu ilə əlaqədar bir qrup da vardır ki, onların tərəfkeşlikdə ittiham olunmaları mümkünsüz idi. Həmin kəslər Peyğəmbərin ﷺ zövcələri idilər. Uca Allah öz Kitabında onlara seçim vermiş və belə buyurmuşdur: *"Ey Peyğəmbər! Zövcələrinə de: "Əgər siz dünya həyatını və onun bər-bəzəyini istəyirsinizsə, gəlin sizi dünya malı ilə məmnun edib gözəl tərzdə sərbəst buraxım. Yox, əgər Allahı, Onun Elçisini və Axirət yurdunu istəyirsinizsə, bilin ki, Allah aranızdan yaxşı işlər*

*görənlər üçün böyük bir mükafat hazırlamışdır"* (əl-Əhzab surəsi, 28-29). Bu seçim qarşısında onlar tərəddüd etməmiş, Allahı, Rəsulunu və Axirət həyatını seçmişlər. Dünya həyatında isə aza qane olmuşlar. Təbii ki, bundan sonra Uca Allahın onları Peyğəmbərə ﷺ tərifləməsi və Rəsulu üçün başqalarını deyil, yalnız onları layiq bilməsi heç də təəccüblü bir hal deyildir. Uca Allah buyurur: *"Bundan sonra başqa qadınlarla evlənmək, gözəllikləri səni heyran etsə də, onları başqa qadınlarla dəyişmək sənə halal deyildir. Sahib olduğun cariyələr isə istisnadır. Allah hər şeyə nəzarət edəndir"* (əl-Əhzab, 52-ci ayə).

Beləcə Peyğəmbər ﷺ nə onları başqaları ilə dəyişmiş, nə də onlardan kimisə boşamışdı. Bütün bunların nəticəsində Uca Allah onları Qiyamət gününə qədər möminlərin anaları etmişdir: *"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"* (əl-Əhzab, 6). Artıq möminlərin anaları sayıldıqlarına görə də Allah rəsulunun vəfatından sonra başqa biri ilə evlənmələri onlara haram edilmişdir: *"Sizə Allahın elçisinə əziyyət vermək, vəfatından sonra onun həyat yoldaşları ilə evlənmək qətiyyən yolverilməzdir. Həqiqətən, bu, Allah yanında böyük günahdır"* (əl-Əhzab, 53). Beləcə onların həm bu dünyada, həm də Axirətdə Peyğəmbərin ﷺ zövcələri olduqları bəlli olur. Uca Allah onların hamısından razı olsun!

Onu da qeyd edək ki, Peyğəmbərin ﷺ zövcələri müxtəlif qəbilələrdən idilər. Onların içində Qureyş qəbiləsindən olan, Cuveyriyyə binti Haris kimi Mustalaq qəbiləsindən, Safiyyə binti Huyey ibn Əxtab kimi Nadir qəbiləsindən, Meymunə binti Haris kimi Hilal qəbiləsindən olanlar var idi.

Həmçinin Qureyş qəbiləsindən olanlar da müxtəlif ailələrdən idilər. Onlardan Teym, Ədiy, Məxzum, Amir, Əsəd və Əməvi nəslindən olanlar var idi.

Peyğəmbərin ﷺ zövcələrinin hamısı Vida həccində onunla birlikdə idilər və Qədir-Xumda digər insanların eşitdiklərini onlar da eşitmişdilər.

Uca Allahın öz Kitabında təriflədiyi, səna etdiyi bu qadınların şahid olduqları bir vəsiyyəti gizlətmələri, Peyğəmbər əhdinin pozulmasına göz yummaları və səssiz qalmaları mümkünsüz idi.

Necə olur ki, möminlərin anaları dünya və onun bər-bəzəyindən üz çevirərək Allah və Rəsulunu tərcih etsinlər, daha sonra isə Peyğəmbərin ﷺ vəsiyyətinin gözardı edildiyini görüb buna qarşı biganə qalıb səs çıxarmasınlar?!

Onların müxtəlif qəbilələr və nəsillərdən olmalarına rəğmən Əliyə رضي الله عنه qarşı olan hansısa bir əşirət ilə əlbir olmaları, birləşmələri və kimisə Peyğəmbərin ﷺ xilafət üçün seçdiyi kəsdən üstün görmələri qeyri-mümkün idi.

**29.** Qədir-Xum hadisəsi ilə Peyğəmbərin ﷺ vəfatı və Əbu Bəkrin رضي الله عنه xəlifə seçilməsi arasında cəmi səksən dörd gün vaxt keçmişdi. Bu isə son dərəcə qısa bir müddət idi. Ona görə də həmin hadisədə iştirak edənlərin, demək olar ki, hamısı sağ idi, olub-keçənləri də heç kəs unutmamışdı və vəziyyət də dəyişməmişdi. Deyilə bilməzdi ki, o vaxt vəziyyət ayrı idi, indi isə tamam başqadır. Əsla!

Necə ola bilər ki, bu qədər adam – on minlərlə şəxs Peyğəmbər "vəsiyyəti"nin şahidi olsun, aradan qısa bir müddət keçdikdən sonra vəsiyyət dəyişdirilsin, vədə xilaf çıxılsın, lakin bir nəfər belə səsini çıxartmasın, etiraz

etməsin, hətta olub-bitənləri qəribsəyərək sual belə verməsin?!

Hər hansı bir nəsil barədə bunu təsəvvür etmək mümkünsüz olduğu halda, Allah rəsuluna ﷺ qarşı hədsiz sevgi və itaəti ilə seçilən səhabə nəsli barədə bu necə təsəvvür oluna bilər?!

**30.** Uca Allah din təbliğatının kamil olması və Peyğəmbərin ﷺ elçilik vəzifəsinin tamamlanması münasibəti ilə müjdə olaraq "ən-Nəsr" surəsini nazil etdi: *"Allahın köməyi və qələbə gəldiyi zaman insanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!* (ən-Nəsr, 1-3). Təbii ki, zəfər müjdəsinin əlamətlərinin hasil olması Allah rəsulunun tezliklə Uca Dostuna qovuşacağına bir işarə idi.

Şübhəsiz ki, bu surə dinin tamamlanacağı, hər işin öz qaydasında yürüyəcəyi, insanların İslamı qəbul edib bu dinə daxil olacaqları barədə bir müjdə idi.

Əgər insanlar bu dinə nifaq üzərində daxil olacaqdılarsa, İslamı qəbul edib beyət edərək əhd-peyman bağlayıb daha sonra Peyğəmbərin ﷺ vəfat etdiyi gündə ən böyük vədlərinə xilaf çıxacaqdılarsa, hansı müjdədən söhbət gedə bilərdi?

Əgər onlar Peyğəmbərin ﷺ vəfat etdiyi gün hamılıqla onun dinindən üz çevirəcək, vədlərinə xilaf çıxacaqdılarsa, Uca Allah buna görə mi Rəsulunu ﷺ həmin insanların dəstə-dəstə dinə girəcəkləri səbəbilə müjdələmiş və bu nemətə görə ona zikr və istiğfarla şükr etməsini əmr etmişdir?

Uca Allah tərəfindən İslam dini üçün bu necə bir yardım və necə bir zəfərdir ki, elə bu yardımın və bu zəfərin gerçəkləşməsinə səbəb olacaq səhabələrin ən seçkinləri

Peyğəmbərlə ﷺ əhd-peyman bağlayacaq, daha sonra da şərəfli cəsədi hələ torpağa tapşırılmamış bu əhdi pozacaqlar?! Əgər Peyğəmbər dostlarının ən öndə gedənləri belədirsə, bəs onlara tabe olan və onlardan sonra İslamı qəbul edənlər barədə nə düşünə bilərik?

Belə bir nəticənin ömrünün və dəvətinin sonlarında Peyğəmbər ﷺ üçün ilahi bir müjdə hesab edilməsindən Allaha pənah aparırıq!

Lakin biz bilirik ki, nazil olan bu surə Allahın dininin və Peyğəmbərin risalətinin həyat davam etdikcə yer üzündə əbədi qalacağının, Muhəmmədin ﷺ vəzifəsinin artıq tamamlandığının bir müjdəsi və Uca Dostuna qovuşma vaxtının gəlib çatdığının bir xəbərçisi idi. Belə ki, Rəsul ﷺ gedəcək, lakin onun risalət nuru sönməyəcəkdir, ilahi təbliğatçı dünyadan köçəcək, amma onun təbliğ etdikləri yer üzündə əbədi qalacaqdır.

Ən-Nəsr surəsi ilə əlaqədar yuxarıda qeyd etdiklərimiz eynilə İslam dininin bütün dinlərdən üstün olacağını və Allah tərəfindən Peyğəmbərə ﷺ kömək olunacağını bəyan edən "müjdə" ayələri barədə də keçərlidir. Həmin ayələrin birində Uca Allah buyurur: *"Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur"* (ət-Tövbə, 33). Əgər bu dinin nuru Peyğəmbərinin ﷺ vəfat etdiyi gün onun qüslundan, kəfənlənməsindən və dəfnindən öncə ən böyük əhdinin pozulması ilə sönəcəkdisə, o zaman bununla İslam dini və Muhəmməd şəriəti digər dinlərdən necə üstün ola bilər?! Elə isə bu necə ilahi bir zəfər, ilahi bir müjdə sayıla bilər?!

Lakin biz bilirik ki, bu, Allahın dininin və Peyğəmbərin ﷺ risalətinin bizə çatdırıldığı kimi dəyişmədən yer üzündə əbədi qalacağının bir müjdəsi idi.

**31.** Biz müsəlmanlar Peyğəmbərimizin ﷺ risalət tarixini, yəni onun dəvət həyatını və bu istiqamətdə əldə etdiyi uğurlarını dilə gətirəndə daima onun bəşəriyyətin ən böyük islahatçısı olduğunu, əldə etdiyi uğurların və gördüyü işlərin də bəşəriyyət tarixində ən böyük uğurlar və işlər olduğunu deyirik. Belə ki, o, qısa zaman içərisində insanları zülmətlərdən nura çıxartmış, onların dəstə-dəstə Allahın dinini qəbul etmələrinə səbəb olmuş və ətrafında olan insanları, dostlarını misli görünməmiş şəkildə nümunəvi bir nəsil kimi yetişdirmişdir. Beləcə İslam dinini qəbul edib ona itaət edən, din təbliğatında ona yardımçı olan kəslər həqiqi mənada əsl sadiq möminlər olmuşlar. Allah rəsulu ﷺ onlara öz ana-atalarından daha sevimli olmuşdur. Elə bu səbəbdən də Peyğəmbərin ﷺ vəfatından sonra Ərəbistan yarımadasının bəzi bölgələrində baş qaldıran “riddət” – dindən dönmə hərəkatları tez bir zamanda sönmüşdü. Çünki bu, qısa müddətli məhdud sahədə olan üsyan hərəkatı idi. Allah rəsulunun ﷺ vəfatından sonra onun əshabı risalət nurunu hər tərəfə yaydı, öz Peyğəmbərlərindən öyrəndikləri dini digər insanlara öyrətməyə və Peyğəmbərin ﷺ gətirdiyi dini bütün dünyaya yaymağa başladılar.

Bu gün də dünyanın hər yerində, hər bölgəsində, hər irqdən və millətdən olan insanların içində *“əşhədu ənnə Muhəmmədən rəsulullah”* şəhadətinin ucaldığını gördükdə səhabələrin gördükləri bu əzəmətli və danılmaz əməyə qarşı qəlbimizin dərinliklərində bir yəqinlik kök salır və öz-

özümüzə belə deyirik: Bu Peyğəmbərin Rəbbi yanında olan hörmət və izzəti necə də böyükdür! *“Biz adını sənə görə ucaltmadıqmı?”* (əş-Şərh surəsi, 4-cü ayə)

Lakin Qədir-Xum hadisəsinin “canişin təyinetmə” versiyasına əsasən orada Əli ﷺ Peyğəmbər ﷺ tərəfindən canişin təyin edilmiş, lakin onun “vəsiyyət”i gözardı edilmiş və pozulmuşdur. Deməli, nəticə etibarilə belə qənaətə gəlmək olar ki, Peyğəmbərin ﷺ bəşəriyyətə göndərilmə missiyası uğurlu olmamış və öz səmərəsini göstərməmişdir. Əgər ona iman edən və digər insanların da İslamı qəbul etmələrinə səbəb olan, Peyğəmbər ﷺ ilə birlikdə həyat sürən, onunla birgə hicrət edən, onunla bərabər savaşan, sonda onunla birlikdə həcc edən və Qədir-Xumda onun “vəsiyyət”ini qəbul edib onunla əhd-peyman bağlayan səhabə nəsli daha sonra bu əhdi pozur və vəsiyyəti gözardı edirsə, deməli, qəlblərində gizlətdikləri nifaq daha sonra ortaya çıxmış olur. Beləcə bizə aydın olur ki, Peyğəmbərin ﷺ iyirmi üç il ərzində gördüyü iş yalnız və yalnız münafiqlərdən ibarət bir cəmiyyət yetişdirməsi olmuşdur. Allah rəsulu ﷺ dünyadan köçdükdən sonra da onların əsl niyyətləri üzə çıxmış və Peyğəmbəri ﷺ aldatdıqları bəlli olmuşdur. Elə çıxır ki, bütün həyatı boyunca onların Peyğəmbərdən ﷺ eşitdikləri kəlamlar və gördükləri möcüzələr onlara heç bir təsir göstərməmişdir. Beləcə onun risalətinin doğruluğuna qane olmamış, əhdinə vəfa göstərməmiş və dininə əməl etməmişlər.

Qədir-Xum hadisəsinin “canişin təyinetmə” versiyası Peyğəmbərin ﷺ əshabı ilə birlikdə keçirdiyi təlim-tərbiyə, əzab-əziyyət dolu həyatında gördüyü işlər və gəldiyi nəticə barədə yalnız pis və mənfi obraz yaradır.

Əgər bu dinin ilk nəsli və Peyğəmbərin ﷺ yanında yetişmiş əshabı bu halda olubsa, bundan sonra hansısa bir dövrdə kim cürət edərək insanları bu dinə çağıra bilər? Yuxarıda qeyd edilənlərə etiqad etdiyimiz halda, insanları İslam dininə dəvət etdikdə bizə nə deyərlər? Təsəvvür edin ki, insanları elə bir dinə səsləyirik ki, bu dinin Peyğəmbəri belə öz yanındakı insanları, ən yaxın adamlarını bu dinin haqq bir din olduğuna inandıra bilməmişdir və onun sağlığında özünü əsl mömin kimi göstərən kəslərin sonradan imanlarında sadiq olmadıqları bəlli olmuşdur. Onlar öz Peyğəmbərlərini aldatmış, ona qarşı hiylə qurmuş, bunun üçün də o vəfat etdikdə həmən əhdlərinə xilaf çıxmışlar. Əgər, həqiqətən də, onun peyğəmbərliyinə iman edirdilərsə, o zaman sağlığında da, vəfatından sonra da ona qarşı vəfalı olmalı idilər.

Bu barədə geniş məlumat almaq istəyən kəs şeyx şərif Əbül-Həsən Əli əl-Həsəni ən-Nədvinin *"Suratəni mutəzadətəni li-nətəic cuhudur-Rəsul əl-Əzam ﷺ əd-dəviyyə vət-tərbəviyyə və sirati əl-ceylil-məsəlil-əvvəl ində Əhlis-sünnə vəş-Şiətil-iməmiyyə"** adlı kitabına müraciət edə bilər.

**32.** Qədir-Xum hadisəsini "canişin təyinetmə" versiyası əsasında təqdim etmək, əslində, Peyğəmbəri ﷺ, bir növ, sadəlövhlükdə ittiham etmək deməkdir. Yəni, o ən yaxın dostları tərəfindən aldadılmışdır. Hiylə və yalanlarını qəlblərində gizlədərək zahirən ona vəd verib əhd-peyman bağlamış və beləcə öz yalanları ilə onu aldatmağa müvəffəq

---

* Mənası: *"Təlim-tərbiyə yönündə Peyğəmbərin ﷺ gördüyü böyük işlərin nəticəsi, habelə ilk nəslin – səhabə nəslinin həyatı barədə Əhli-sünnə və Şiə məzhəbləri arasında bir-birlərinə zidd olan iki tablo"*.

olmuşlar. Bu elə münafiqlərin Peyğəmbəri ﷺ ittiham etdikləri şeyin eynisidir. Belə ki, onlar Allah rəsulu ﷺ barədə *“O bir qulaqdır”* (ət-Tövbə, 61) demişdilər. Yəni o hamını dinləyən, hər sözü eşidib inanan bir qulaqdır. Yəhudilərin bu sözünə cavab olaraq Uca Allah belə demişdir: *“De, o sizin üçün ancaq xeyirli sözlər eşidən biridir”* (ət-Tövbə, 61).

Halbuki biz Peyğəmbərin ﷺ həyat hekayəsi ilə tanış olduqda görürük ki, o, ömrü boyunca kimisə aldatmamış və kiməsə aldanmamışdır. Hiyləsindən xəbərdar olmadığı kəslər olduqda belə bu barədə ona vəhy nazil olar və beləcə həmin işdən xəbər tutardı. Bir sözlə, sadəlövh birinin bu böyüklükdə tarixi nailiyyətlərə imza atması və bəşəriyyəti idarə edəbiləcək gücə sahib olması mümkünsüz bir şeydir. Əks halda, münafiqlər və hiyləgərlər öz yalan və kələklərini gizlədərək hər addımında onu aldatmağa müvəffəq olardılar.

**33.** Şiə alimlərinin birindən eşitdiyim ən gözəl sözlərdən biri bu idi: “Əlinin ؓ hökm vermək dönəmi təkcə onun xilafəti ilə məhdudlaşmırdı. Əksinə, bu onun xilafəti ilə birlikdə, həm də özündən öncəki xəlifələrin vəziri olduğu zamanı da əhatə edirdi”.

Əslində, bu söz son dərəcə doğru bir sözdür! Bu sözün doğruluğunu təsdiqləyən məqamlardan biri də budur ki, nə Əbu Bəkr ؓ “riddət” savaşlarına başçılıq etməsi üçün, nə də Ömər və Osman ؓ kafir diyarlarının fəth edilməsi üçün Əlini ؓ ordu rəhbəri kimi döyüşlərə yollamazdı. Əgər yollasaydılar, heç şübhəsiz ki, qılınc öz kəskinliyini döyüş meydanında ortaya qoyardı. Lakin hər üç xəlifə də Əlini ؓ daha mühüm olan işlər üçün, yəni dövlət idarəçiliyi ilə əlaqəli işlər üçün Mədinədə saxlayardı. Bu səbəbdən də Əli

ﷺ həm dəyərli məsləhətləri, həm də idarəçiliyi ilə hər üç xəlifənin zamanında görülən işlərə öz töhfəsini vermişdir.

Elə isə rəyinə bu qədər önəm verilən, sözü dinlənilən Əli ﷺ nə üçün ilk növbədə Peyğəmbərin ﷺ özü barədə dilə gətirdiyi "vəsiyyət"inə əməl edilməsinin vacibliyini onlara xatırlatmadı və bu barədə öz dəyərli fikrini söyləmədi? Əgər, doğrudan da, ortalıqda Peyğəmbərin ﷺ vəsiyyəti var idisə, nə üçün onları bu vəsiyyətə əməl etməyə və əhdə vəfalı olmağa səsləmədi?

**34.** Əlinin ﷺ özündən əvvəlki xəlifələrlə sıx əlaqəsi var idi və onların fikrinə müxalif olsa belə, öz rəyini dilə gətirməkdən çəkinməzdi. Hər kəs onu belə tanıyırdı. Buna misal olaraq aşağıdakıları qeyd etmək olar:

İbn Abbasın ﷺ rəvayətinə əsasən, Əli Ömərin ﷺ zina edən dəli bir qadını rəcm etmək istəyinə qarşı çıxmışdır. Belə ki, bir gün Əli Ömərin zina etdiyinə görə rəcm olunmasına hökm verdiyi ağlı başında olmayan bir qadının yanından keçir. Əli ﷺ həmin qadının rəcm –daşqalaq olunmasına mane olur və Ömərin yanına gedərək ona belə deyir: Ey möminlərin əmiri, bu qadın rəcm olunacaq? Ömər ﷺ: Bəli, – dedikdə Əli ﷺ belə cavab verir: Məgər Peyğəmbərin ﷺ: *"Qələm üç kəsin – ağlı başında olmayan dəlinin, oyanana qədər yatanın və büluğ yaşına çatana qədər uşağın üzərindən qaldırılmışdır (yəni bu üç şəxs məsuliyyətdən azad edilmişdir)"* dediyini eşitmədinmi? Ömər ﷺ dedi: Bəli, düz deyirsən və həmin qadını azad etdi.[97]

Ömər ibn Xattab ﷺ Əbül-Həsənin (yəni Əlinin) ﷺ həll edə bilməyəcəyi problemdən Allaha sığınardı.[98]

Həmçinin Osman ﷺ xilafəti dönəmində təməttü həccini qadağan etdikdə Əli ibn Əbu Talib ﷺ buna öz etirazını

bildirmişdir. Səid ibn Müseyyəb belə rəvayət edir: Əli və Osman Usfəndə olduqda təməttü həcci barədə ixtilaf etdilər. Belə ki, Osman ؓ zəvvarın həcc ilə ümrəni birləşdirməsini qadağan edir, Əli ؓ isə bunu əmr edirdi. Osman Əliyə dedi: "Məgər mənim bunu qadağan etdiyimi bilmirsənmi?" Əli ؓ: "Bəli, bilirəm", – deyə cavab verdi. Osman ؓ dedi: "Mən onu qadağan etdiyim halda sən edirsən?" Əli ؓ belə cavab verdi: "Peyğəmbərin etdiyi bir işi qadağan etməyində sənin məqsədin nədir?" Osman ؓ dedi: "Mübahisələrinlə bizi yorma!" Əli ؓ belə dedi: "Bu işi boş buraxa bilmərəm, çünki mən Peyğəmbərin ﷺ ümrə və həccə bir yerdə təlbiyə (niyyət) etdiyini eşitdim. Bu səbəbdən də kiməsə görə Allah rəsulunun ﷺ sünnətini tərk edəsi deyiləm". Osman ؓ isə belə cavab verdi: "Bəli, Peyğəmbərin ﷺ təməttü həcci etməsi doğrudur, lakin biz həmin vaxt (ifrad həccinin təməttü həccindən daha əfzəl olmasından) ehtiyat edirdik və bu səbəbdən təməttü həcci etdik". Əli ؓ vəziyyətin belə olduğunu gördükdə (təməttü həccinin icazəli olduğunu insanlara bəyan etməkdən ötrü) ümrə və həccə bir yerdə niyyət etdi.[99]

Əlinin ؓ söylədiyi nurani kəlama diqqət yetirin: "Mən kiməsə görə Allah rəsulunun sünnətini tərk edəsi deyiləm!"

Bu sözü dilə gətirən Əlinin ؓ kiməsə görə Peyğəmbərin ﷺ vəsiyyətini tərk etməsi düşünülə bilərmi?

Mümkündürmü ki, Əli ؓ bu cür məsələlərdə öz etirazını ortaya qoysun, amma əlində Peyğəmbərin ﷺ vəsiyyəti olduğu halda, onların xəlifə seçiminə qarşı öz etirazını bildirməsin və Peyğəmbər ﷺ onu özündən sonra canişin təyin etdiyi halda, xilafətin başqası tərəfindən "qəsb"

olunmasına qarşı çıxmasın? Halbuki bu məsələ digər məsələrə nisbətdə daha önəmli və daha öncül bir məsələdir!

**35.** Əbu Bəkr رضي الله عنه xəlifə seçildikdə Fatimə anamız onun yanına gələrək Peyğəmbərin ﷺ qoyub getdiyi miras malından ona da pay ayırmasını istədi. Əbu Bəkr رضي الله عنه ona belə dedi: Allah rəsulu ﷺ belə demişdir: *"Biz Peyğəmbərlər özümüzdən sonra miras buraxmırıq, bizim arxamızda qoyduğumuz mal-mülk sədəqə sayılır".* Beləcə Əbu Bəkr رضي الله عنه Peyğəmbərin ﷺ mirasından Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə də Fatimə anamız çox qəzəbləndi, Əbu Bəkrdən incidi və vəfat edənə qədər onunla danışmadı. Fatimə anamız Peyğəmbərin ﷺ vəfatından sonra cəmi altı ay yaşadı.[100]

Fikir verin! Dünya qadınlarının fəzilətlisi olan Fatimə özünün haqqı saydığı bir şeyi tələb etməkdə tərəddüd etmədi. Əksinə, öz fikrini, tələbini dilə gətirdi, hətta qəzəbini belə gizlətmədi. Bütün bunlar isə Peyğəmbərin ﷺ mirası – torpaq sahəsi barədə idi. Məgər torpaq sahəsi yerinə öz yoldaşının, əmisi oğlunun xilafətini tələb etsəydi, daha düzgün olmazdımı?!

Necə olur ki, Fatimə anamız özünün haqqı saydığı torpaq sahəsini tələb edir və buna görə Əbu Bəkrə qəzəblənir, lakin onun əri Əli öz "haqqı" olan xilafəti tələb edə bilmir?!

**36.** Şəkk yoxdur ki, Əli ilə Əbu Bəkr رضي الله عنهما arasında son dərəcə isti münasibət, sayğı və hörmət var idi. Biz bunu Əbu Bəkrin رضي الله عنه xilafəti zamanında baş vermiş bir hadisədə də görə bilirik: "Belə ki, Əbu Bəkr Əli ilə birlikdə Əsr namazından sonra məsciddən çıxdıqda yolda onun oğlu Həsəni رضي الله عنه

uşaqlarla oynayan görür. Əbu Bəkr رضي الله عنه ona doğru gedir, onu qucağına alaraq çiyninə qaldırır və belə deyir:

Həsənin Peyğəmbərə oxşarlığı çoxdur,
Atası Əliyə isə heç bir oxşarlığı yoxdur.

Əli رضي الله عنه isə Əbu Bəkrin رضي الله عنه yanında gəzərək onun bu sözünə gülürdü".[101]

Bu cür sevinc dolu, qarşılıqlı sayğı və sevgi dolu səhnədən daha gözəl bir səhnə harda var?

Əlinin رضي الله عنه övladlarından birinin adını Əbu Bəkr qoyması da onların arasında olan sayğı və hörmətin bir təcəllisi idi. Həmin Əbu Bəkr ibn Əli qardaşı Hüseyn ilə birlikdə Kərbəlada şəhid olanlardan biridir.[102]

Həmçinin Əli رضي الله عنه Əbu Bəkr vəfat etdikdən sonra onun dul qalan yoldaşı Əsma binti Umeyslə ailə həyatı qurmuş və onun oğlu Muhəmməd ibn Əbu Bəkrin təlim-tərbiyəsi ilə məşğul olmuşdur.[103] Muhəmməd ibn Əbu Bəkr Əlinin رضي الله عنه evində və onun tərbiyəsi altında böyümüşdür. Cəməl və Siffin savaşlarında da Əli رضي الله عنه ilə birlikdə idi. Cəməl müharibəsində piyadaların rəhbəri o idi. Daha sonra Əli onu Misirin valisi təyin etmişdi. Muhəmməd ibn Əbu Bəkr öldürülən gün Əli رضي الله عنه çox kədərlənmiş və belə demişdir: "Mən onu öz balam sayırdım. O mənim qardaşım və qardaşımın balası idi. Allahın qatında daha dəyərli olduğuna inanırıq!".[104]

Əlinin رضي الله عنه Fatimədən olan qızını – Ümmü Gülsümü Ömərə ərə verməsi onunla Ömər رضي الله عنه arasında olan sayğının və hörmətin göstəricisi idi.[105]

Ömər رضي الله عنه məhz Peyğəmbərin ﷺ nəsli ilə qohum olsun deyə, Ümmü Gülsümə elçi düşmüşdü. O belə demişdir: Mən Allah rəsulunun ﷺ belə dediyini eşitdim: *"Qiyamət günü*

*mənim səbəbimdən və nəsəbimdən başqa bütün səbəblər və nəsəblər qırılacaqdır"*. Mən də istədim ki, mənimlə Allah rəsulu ﷺ arasında bir qohumluq və nəsəb bağı olsun.[106]

Bu evlilikdən onların iki övladı oldu: oğlanları Zeyd ibn Ömər və qızları Ruqeyyə binti Ömər. Zeyd gənc yaşlarında anası Ümmü Gülsüm ilə eyni gündə vəfat etdi.[107]

Əlinin ﷺ övladlarından birinin adını Ömər qoyması da onların arasında olan hörmətin bir təcəllisi idi. Həmin uşaq Ömərin xilafəti dönəmində dünyaya gəlmişdi. Ömər ﷺ uşağa öz adını qoydu və hədiyyə olaraq onlara Muvarriq adlı bir xidmətçi bağışladı. Əli ﷺ isə öz növbəsində buna razılığını bildirdi. Ömər ibn Əli ibn Əbu Talib əməvi xəlifəsi Valid ibn Əbdülməlikin xilafəti dönəmində vəfat etdi.[108]

Ömər ibn Xattab ﷺ vəfat etdikdə və cəsədi yatağının üstünə qoyulduqda Əli ﷺ ona rəhmət oxumuş və belə demişdir: "Əməli kimi əməl edərək Allaha qovuşacağımı təmənni etdiyim səndən daha sevimli bir kəs qalmadı yer üzündə. Uca Allaha and olsun ki, Allahın səni iki dostuna (Peyğəmbər və Əbu Bəkrə) qovuşduracağını bilirdim. Çünki mən çox vaxt Allah rəsulunun ﷺ belə dediyini eşidirdim: *"Mən, Əbu Bəkr və Ömər getdik. Mən, Əbu Bəkr və Ömər daxil olduq. Mən, Əbu Bəkr və Ömər çıxdıq"*.[109]

Əgər Əli ﷺ özündən öncəki xəlifələrin onun haqqını qəsb etdiyinə və Peyğəmbər ﷺ ilə aralarında olan əhd-peymanı pozduqlarına inanırdısa, o zaman onlarla necə bu cür xoş münasibət qururdu?

**37.** Peyğəmbər ﷺ vəfat etdikdə Bənu Haşimin sayı az deyildi. Onların içində Abbas ibn Əbdülmüttəlib, onun oğlanları Fəzl, Qusəm və Abdullah, habelə Əqil ibn Əbu Talib, Əbu Süfyan ibn Haris ibn Əbdülmüttəlib, Nofəl ibn

Haris ibn Əbdülmüttəlib, Rabiə ibn Haris ibn Əbdülmüttəlib və digərləri var idi. Həmçinin onların əmisi oğlanları sayılan Bənu Müttəlib ibn Əbdi Mənaf da var idi. Peyğəmbər ﷺ onlar barədə belə demişdir: *“Bənu Haşim və Bənu Müttəlib bir nəsil sayılır”*.[110]

Bəs necə oldu ki, onlardan biri önə çıxıb danışmadı və öz etirazını dilə gətirmədi? Aralarında güclü qohumluq bağı olmasına rəğmən, nə üçün Peyğəmbər ﷺ tərəfindən Əlinin (ə) xəlifə təyin edilməsi ilə əlaqədar onların bir mövqeyi olmadı?!

Vaxtilə Peyğəmbərin ﷺ sağlığında Bənu Haşim və Bənu Müttəlibin müsəlman olanları ilə birlikdə hətta kafir olanları da Şib mühasirəsində üç il boyunca Qureyş qəbiləsinin önündə tab gətirə bildilər və qohumları Muhəmmədi tək buraxmadılar. Bəs nə üçün əlində Peyğəmbər “vəsiyyət”i olan Əlini (ə) müdafiə etmədilər?!

**38.** Seyyid Muhəmməd Rəşid Rza “əl-Mənar” adlı təfsirində *“Ey Elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər belə etməsən, Onun göstərişini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar”* (əl-Maidə, 67) ayəsinin şərhində belə demişdir: “Biz dəqiq bilirik ki, əgər xilafət ilə bağlı hər hansı bir ayə və ya hədis olsaydı, bu xəbər hər tərəfə yayılar, heç kəsə gizli qalmaz və bu barədə heç bir ixtilaf olmazdı. Həmçinin Əli (ə) Peyğəmbər ﷺ vəfat edən gün müsəlmanların işlərini öz əlinə alar, önə çıxaraq onlara xitab edər, Peyğəmbərin ﷺ vəsiyyətini xatırladar və həmin vaxt deyilməsi zəruri olan hər şeyi onlara bəyan edərdi. Əgər, doğrudan da, o, Peyğəmbərdən ﷺ sonra Allah və Rəsulu tərəfindən seçilmiş xəlifə olduğuna inanırdısa, həmin vaxt bunu dilə gətirməsi ona vacib idi.

Lakin o belə bir şey demədi. Nə Səqifə günü,* nə Ömərin vəfatından sonra şura təyin edilən gün, nə də başqa bir vaxt nə o özü, nə əhli-beytindən kimsə, nə də onu digərlərindən üstün görən ən yaxın dostları onun xilafətinə dair hər hansı bir ayəni dəlil gətirmədilər. Halbuki Əli ﵁ o kəs idi ki, Allah üçün haqqı deyər və heç kəsin qınağından qorxmazdı. Onun nə əməlində, nə də sözündə heç vaxt təqiyyə görülməmişdi. Onun Peyğəmbər ﷺ tərəfindən canişin seçilməsi iddiası firqələrin və məzhəb təəssübkeşliyinin zühur etməsindən sonra ortaya çıxmış, mövzu ilə əlaqədar hədis və rəvayətlər uydurulmuşdur.

Xilafət barədə olduğu iddia edilən ayənin (yəni əl-Maidə surəsi, 67-ci ayənin) əhli-kitab ilə əlaqəli ayələrin arasında qeyd edilməsinin bir mənası yoxdur və bu, Quranın bəlağətinə də tamamilə ziddir. Əgər, doğrudan da, Peyğəmbər ﷺ özündən sonra Əlini ﵁ canişin təyin etmək və bunu bütün insanlara bildirmək istəsəydi, bunu Vida həcci zamanı edərdi. Hansı ki elə bu həcdə insanlardan dini onlara çatdırdığı xüsusunda şahidlik istəmiş və onlar da hamılıqla buna şahidlik etmiş, Peyğəmbər ﷺ də öz növbəsində Uca Allahı buna şahid tutmuşdu.

Hətta əl-Maidə surəsi, 67-ci ayənin siyaqını – əvvəlini, sonrasını bir kənara qoysaq belə, yenə də bu ayədə qeyd edilən *"təbliğ et!"* əmri "Əlinin xilafətini insanlara təbliğ et" mənasını verməz. Ayənin zahirindən də ilk ağıla gələn şey İslamın ilk dönəmlərində olan ümumi din təbliğinin əmr edilməsidir. Ayəyə təqlid və təəssübkeşlik gözü ilə deyil, bəsirət gözü ilə baxın!

---

* Əbu Bəkr ﵁ xəlifə seçilən gün.

Qədir-Xum hədisinə gəldikdə isə bu hədisə əməl edir, Əlini ﷺ və onu sevənləri biz də sevir, onları özümüzə yaxın və dost bilirik. Onları özlərinə düşmən görənləri biz də özümüzə düşmən sayırıq. Bu dostluğu, bu sevgini Peyğəmbərə ﷺ qarşı olan dostluğumuzun və sevgimizin bir parçası hesab edirik. Həmçinin etiqad edirik ki, Peyğəmbərin ﷺ əhli-beyti hamılıqla birlikdə, yəni icma şəklində Uca Allahın nazil etdiyi Kitaba – Qurana müxalif ola bilməz. Çünki Kitab və itrət (əhli-beyt) Peyğəmbərin ﷺ özündən sonra bizlərə əmanət qoyduğu iki mirasdır və bu barədə Qədir-Xum hədisindən əlavə başqa bir səhih hədis də mövcuddur. Elə isə əgər əhli-beyt bir məsələ üzərində ittifaq edərsə, onların icmasını qəbul edər və ona görə əməl edərik.* Yox, əgər əhli-beyt özü öz arasında ixtilaf edərsə, o zaman həmin məsələnin həllini Quran və sünnəyə qaytararıq". İxtisarla nəql etdim.[111]

---

* Peyğəmbər ﷺ demişdir: *"Mənim sünnətimdən və məndən sonra gələcək, hidayətə çatmış Raşidi xəlifələrimin sünnətindən azı dişləriniz ilə yapışın!"* (Əhməd, "Müsnəd" 4/126, Tirmizi 5/44-də. Hədis səhihdir. Bax: "Mişkətul-məsabih" 1/58).

Həmçinin o ﷺ: *"Məndən sonra iki şəxsə – Əbu Bəkrə və Ömərə tabe olun!"* – demişdir. (Əhməd 5/399, Tirmizi 5/610, Hakim 3/79. Hədis səhihdir. Bax! Əlbaninin "Silsilətul-əhadis əs-səhihə" əsəri 3/233, hədis: 1233).

Əhli-beytə tabeçiliyi əmr edən hədislər də bu cürdür. Bu hədislərə əsasən, bəzi alimlər demişdir ki, Raşidi xəlifələrin icması (yəni bir məsələ üzərində yekdil rəyə gəlmələri) şəriətdə hüccət (dəlil) sayılır. Alimlərin bir qismi isə yuxarıda qeyd etdiyim ikinci hədisə əsasən "Əbu Bəkr və Ömər bir məsələdə ittifaq etsələr, bu mənim üçün hüccət sayılar", – demişdir. Əbu Yalə də: "Tirmizinin rəvayət etdiyi hədisə əsasən Haşim övladlarının (yəni əhli-beytin) icması hüccətdir", – demişdir (Bax! "Minhəcüs-sünnə" 4/85) ***(Tərcüməçi)***.

**39.** Hal-hazırda biz tarixin axışına və baş verən tarixi hadisələrə nəzər yetirdikdə yəqinliklə anlayırıq ki, Peyğəmbərin ﷺ özündən sonra heç kəsi xəlifə təyin etməməsi Uca Allahın öz bəndələrinə bir lütfü və şəriətində olan sonsuz hikməti idi. Çünki dövlət siyasəti və rəhbər seçimi dünyəvi bir işdir. Bu da zamana və məkana görə dəyişə bilən nisbi bir məsələdir. Allah rəsulu ﷺ əshabı içindən müəyyən bir şəxsi özündən sonra canişin təyin etmədi. Beləcə Əbu Bəkr ؓ kiçik şura yolu ilə, Ömər ؓ özündən əvvəlki xəlifənin söz sahibi kəslərlə məsləhət-məşvərət etməsindən sonrakı təyini ilə, Osman ؓ geniş şura vasitəsilə, Əli ؓ isə camaatın seçimi ilə xilafətə gəldi. Çünki onun zamanında ondan daha layiqlisi yox idi. Sonra Həsən ibn Əli ؓ xilafətə gəldi və daha sonra ümmətin mənafeyi naminə xilafətdən əl çəkdi. Hüseyn ibn Əli ؓ isə ümməti qurtarmaqdan ötrü xilafət uğrunda mübarizə apardı. Beləcə qısa zaman içərisində xəlifələr arasında rəhbərin seçim metodu növbənöv oldu və hər biri də öz zamanına uyğun idi.

İslam şəriətinin hikməti və genişliyi səbəbi ilə xəlifənin seçimi şəriət tərəfindən təyin edilmədən ümmətin ixtiyarına verilmişdi ki, hal-vəziyyətin dəyişməsinə və insanların halına münasib olaraq onlar öz aralarında kimisə rəhbər seçə bilsinlər.

# QƏDİR-XUM HADİSƏSİ
# VƏ
# MƏNTİQİ TƏHLİLİN VACİBLİYİ

İslam tarixini hekayələrin, nağılların nəql olunduğu kimi, yəni rəvayət etdiyimiz şeylər barədə ağlımızı işlətmədən və etiqad etdiyimiz şeylər barədə məntiqi təhlil aparmadan nəql edə bilmərik. Ələlxüsus, əgər rəvayət etdiyimiz məlumatlar Peyğəmbərimiz ﷺ, yaxud ağamız Əli رضي الله عنه barədədirsə, daha diqqətli olmalıyıq.

Çünki rəvayət etdiyimiz şeylər bizim qəlbimizdə etiqadımızın, dinimizin, hisslərimizdə isə sevgi və ya nifrətin, dostluq və ya düşmənçiliyin formalaşmasına səbəb olur. Bununla da bizi əbədi Axirət ünvanına aparan yolumuz, istiqamətimiz bəlli olur.

Deməli, insanın imanı, dini və onu Rəbbinə doğru aparan yolu gərək ağıldan və məntiqdən uzaq düşməsin. Çünki ağıl insanın mükəlləf olmasının səbəbidir.* Düşünmə, məntiqi təhlil aparma İslam dinin əmrlərindəndir. Ağılı işlətməyin ən mühüm və ən dəyərli məqamlarından biri insanın öz etiqadını gözdən keçirməsinə və Rəbbinə doğru gedən yolunu düzəltməsinə dair verdiyi qərardır.

İnsanın dünyəvi işlərində ağlını işlədib, dini mövzularda ağlını işlətməməsi düzgün deyildir.

---

* Elə bu səbəbdən də ağlı olmayan dəlilər və büluğ yaşına çatmamış uşaqlar mükəlləf (şəriətin hökmlərindən məsul) sayılmırlar ***(Tərcüməçi)***.

Quran ayələri barədə məntiqi təhlil aparıldığı qədər heç bir şey barədə məntiqi təhlil aparılmamışdır. İslam dini ağılı işlətməyi və məntiqi təhlil aparmağı əmr etdiyi kimi, ağılı işlətmək və məntiqi təhlil aparmaq da dindarlığın düzəldilməsinə və həqiqi İslamı əldə etməyə səbəb olan bir amildir.

İslam dinində ağılın mümkünsüz gördüyü və qəbul edə bilməyəcəyi bir şey ola bilməz. Əgər dinimizdə ağılın dərk edə bilmədiyi və anlamadığı bir şey olsa, biz deyərik ki, dinimizdə ağılın dərk edə bilmədiyi bəzi məqamlar var. Bu, mümkün bir şeydir. Dinin ağılın qəbul edə bilməyəcəyi və tamamilə rədd edəcəyi bir şey gətirməsi isə mümkünsüzdür. Belə bir deyim vardır: "Şəriət ağılı heyrətə salan şey gətirə bilər, lakin ağılın mümkünsüz gördüyü şey gətirməz".

Quran ayələrinə diqqət yetirsək, görərik ki, Uca Allah öz Kitabında ağılı yalnız və yalnız təzim və ağılı işlətməyin vacib olduğunun bəyanı məqamında qeyd etmişdir.

Uca Allah buyurur: *"Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə Axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız?"* (əl-Ənam, 32)

*"Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar"* (əl-Bəqərə, 269).

*"Bax gör! Biz ayələri belə izah edirik ki, bəlkə başa düşsünlər"* (əl-Ənam, 65).

*"Məgər onlar Quran haqqında düşünmürlərmi? Yoxsa qəlbləri qıfıllıdır?"* (Muhəmməd, 24)

Bu və bu qəbildən olan ayələrlə İslam dinində ağılın və düşüncənin yeri bəlli olur. O da aydın olur ki, İslamın müraciət etdiyi ağıl məhz vicdani duyğuları mühafizə edən,

gerçəkləri dərk edən, ağı-qaradan, düzü-əyridən ayırd edə bilən, düşüncə və təhliletmə qabiliyyətinə sahib olan ağıldır. İslam dini ağıla müraciət etməyə təşviq etdikdə məhz səfehliyin, səhv düşüncənin əksi olan, təhlil etmək qabiliyyətində olan ağılı nəzərdə tutur, dəliliyin ziddi olan mücərrəd ağılı deyil.

Bunu xüsusilə qeyd etməliyik ki, Qurani-Kərimdə fərqli xüsusiyyətlər üzərindən ağılın önəminə təsadüfən yol verilməmiş və Quranda bu məsələ sırf təkrarçılıq olsun deyə, dönə-dönə qeyd edilməmişdir. Əksinə, Quranın ağıla verdiyi bu önəm, əslində, İslam dininin cövhərindən süzülüb gələn və gözlənilən bir haldır. Bu dinin mahiyyətini və insan övladının fitrətini dərk edən hər kəs bunu təbii qarşılayar və qəribsəməz.

İnsan həyatında ağılın önünü kəsən və təfəkkür nurunu söndürən ən böyük amil digərlərini kor-koranə təqlid etmək və dini məsuliyyətimizi başqalarının üzərinə yükləməkdir.

Bəzən biz öz etiqadımızı ata-babalarımızın və ya içində yaşadığımız cəmiyyətin öhdəsinə buraxırıq.

İslam dini insanın öz xətalarını ört-basdır etməkdən ötrü ata-babalarının əməllərini dəlil olaraq gətirməsini qətiyyətlə rədd etmiş və haqqı eşitdikdən sonra ağlını işlətmək istəməyən kəsləri ayıblamışdır. Çünki beləlləri öz ata-babalarından heç bir məntiqi əsası olmayan inancları miras götürmüşlər.

Uca Allah beləlləri barədə buyurur: *"Onlara: "Allahın nazil etdiyinə tabe olun!"– deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!"– deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?"* (əl-Bəqərə, 170)

Şübhəsiz ki, atalarımıza qarşı itaətkar və vəfadar olmaq hər birimizin borcudur. Lakin bu itaət zəlalət və cəhalət üzərində olmalı deyil.

Ağıllı insanlar hər şeyin yerini bilən və haqqını verən kəslərdir.

Həmçinin içində yaşadığımız cəmiyyətin etiqad etdiyi inanc əsaslarını ağlımızı işlətmədən, incələmədən və araşdırmadan qəbul etməyimizi bizdən tələb etmələri barədə onu deyə bilərik ki, cəmiyyətin basqısından qurtulmaq güclü iradəyə, əmək sərf etməyə və oyaq düşüncəyə ehtiyac duyan bir haldır. Uca Allah buyurur: *"Uğrumuzda cihad edənləri (cidd-cəhdlə çalışanları) mütləq Öz yolumuza yönəldəcəyik"* (əl-Ənkəbut, 69).

Belə olacağı təqdirdə ağılı işlətmək Uca Allahın bir əmri hesab ediləcək və insan sayları nə qədər çox olursa-olsun, özü kimi digər insanları, cəmiyyəti razı salmaqdan ötrü, yaxud onlardan ehtiyat etdiyinə, qorxduğuna görə ağlını işlətməkdən əl çəkməyəcəkdir.*

Bunu bilmək lazımdır ki, vaxt gələcək bizim nəşimizi öz çiyinlərində son mənzilimizə aparan kəslər bizi orada tərk edib geri dönəcəklər və yenə də sonda öz əməllərimizlə baş-başa qalacağıq.

Həmçinin Qiyamət günü dirilərək qəbirlərimizdən çıxdıqda dünya həyatında ətrafımızda olan kəslər bizim yanımızda olmayacaqdır: *"Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcəkdir"* (Məryəm, 95).

---

* Bu bölümdə Ustad Abbas əl-Aqqadın *"ət-Təfkir faridatun isləmiyyə"* adlı kitabından istifadə edilmişdir. Geniş məlumat üçün o kitaba müraciət oluna bilər.

Rəbbimizin hüzuruna tək-tənha çıxdıqda dünya həyatında ətrafımızda olan kəslərdən heç kəs bizimlə birgə olmayacaqdır: *"Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha gəldiniz"* (əl-Ənam, 94).

Qiyamət günü dünya həyatında ətrafımızda olanlardan heç kəsi görməyəcəyik: *"O gün onlardan hər birinin yetərincə işi olacaqdır"* (Əbəsə, 37).

Bu dünyada bizimlə mübahisə edənlər o dünyada bizə görə mübahisə etməyəcəklər: *"O gün hər kəs öz canını qurtarmağa çalışacaqdır (hər kəs öz canının hayında olacaqdır)"* (ən-Nəhl, 111).

Biz Qiyamət günü nə qədər böyük şəxsiyyət olmasından asılı olmayaraq, kiməsə itaət edib-etmədiyimiz barədə soruşulmayacağıq. Bizim soruşulacağımız yalnız bir kəs olacaqdır, o da Peyğəmbərimiz Muhəmməddir ﷺ. Biz yalnız ona itaət edib-etmədiyimiz barədə sorğu-sual olunacağıq, başqa biri barədə deyil: *"O gün Allah onları çağırıb: "Elçilərə nə cavab verdiniz?"– deyəcək."* (əl-Qasas, 65).

Məgər sabah Rəbbimizin önündə soruşulacağımız suallara tam əminliklə cavab verə bilməyimiz üçün ağılımızı işlətməyə, əmək sərf edib cidd-cəhdlə çalışmağa dəyməzmi?

Biz Qiyamət günü hidayət əhlinə həsrətlə baxacağımız gün məhz o gün hidayət nemətinə arxa çevirdiyimizin fərqinə varacağıq. O zaman isə artıq gec olacaqdır. Ümid edirik ki, biz sabah Cənnət taxtları üzərində əyləşərək *"Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik"* (əl-Əraf, 43) deyənlərdən olarıq.

Həmçinin ümid edək ki, Uca Rəbbimizdən tərəfsiz və səmimi bir şəkildə hidayət diləyərik ki, qoy O bizim ağlımızı

düzgün istiqamətə yönəltsin, bəsirət gözümüzü nurlandırsın və qəlbimizi hidayətə çatdırsın!

Allahım, doğru yola yönəltdiyin kəslərlə birgə bizi də haqqa yönəlt! *"Bizi doğru yola yönəlt!"* (əl-Fatihə, 6) Allahım, ixtilafda olduğumuz məsələlərdə izninlə bizi haqqa yönəlt! Həqiqətən də, Sən istədiyin bəndəni doğru yola yönəldirsən.

*"Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!"* (Ali-İmran, 53)

*"Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"* (əl-Həşr, 10)

Son duamız aləmlərin Rəbbi olan Allaha həmd etməkdir.
Allahın sizlərə salamı, rəhməti və bərəkəti olsun!

# KİTABIN ƏRSƏYƏ GƏLMƏSİ

**1.** Belə bir kitab qələmə almaq fikri məndə qardaşım Əbu Həni Həməd əl-Ğəmməs ilə müzakirə əsnasında yarandı. Düz iyirmi il bundan öncə belə bir fikri mənə təklif etmişdi. O vaxtdan bəri hər dəfə bu mövzu ətrafında düşündükcə, araşdırma apardıqca, yaxud mövzu ətrafında danışdıqca və ya dostlarımla bu mövzunu müzakirə etdikcə bu fikir məndə daha da qətiləşdi. Beləcə bu formada bir kitab ərsəyə gəldi.

**2.** Bu mövzunu ilk başlarda tədqiqatçı qardaşlarımla müzakirə etdim. Beləcə kitabın mövzuları dəqiqləşdi və əhatəsi genişləndi. Kitabı yazıb tamamladıqdan sonra onu bəzi qardaşlarıma və ustadlarıma təqdim etdim. Beləcə onların düzəlişlərindən, məsləhətlərindən və qeydlərindən bir xeyli yararlandım. Sonra həmin qeydləri kitaba əlavə edərək onu tamamladım. Allah onların əvəzini versin! Həqiqətən də, insan təkbaşına deyil, məhz qardaşları ilə birlikdə güclü sayılır.

**3.** *“Kəənnəkə məahu”* və *“Qasas ən-Nəbəviyyə”* kitablarında etdiyim kimi, bu kitabda da hədisləri və tarixi rəvayətləri qeyd edərkən həmin hədislərin bütün rəvayət yollarını cəm edərək bir yerdə qeyd etdim. Hədis kitablarından həmin rəvayətin mənbələrini də qeyd etdim. Həmin mənbələr ayrı-ayrılıqda qeyd etdiyim tarixi hadisəni tam şəkildə ehtiva etməsə də, bir yerdə həmin hadisəni tam təfərrüatı ilə

çatdırır. *"Kəənnəkə məahu"* kitabımın 163-cü səhifəsində bu metod barədə geniş izahat vermişəm.

**4.** İmkan daxilində yalnız səhih – etibarlı rəvayətləri qeyd etməyə çalışdım. Bəzən sənədində müəyyən qədər zəifliyi olan rəvayətlərə də yer verdim. Lakin həmin rəvayətlər kitabda qeyd etdiyim səhih rəvayətləri tamamlayıcı qismindən olan rəvayətlərdir. Bu qəbildən olan rəvayətləri qeyd edərkən hədisin mətnində ciddi bir problemin olmamasına diqqət yetirdim. Çünki bəzi hallarda sənədində zəiflik olan bütün rəvayətləri bir yerə yığmaqla həmin rəvayətin etibarlı versiyası arasında uyğunsuzluq əmələ gələ bilər. Bəzən isə tam əksinə, ayrı-ayrılıqda sənədlərində zəiflik olan rəvayətlər bir yerə gəldikdə, həm məna baxımından, həm də rəvayətin məzmunu yönündən qüvvət qazanmış olur.

**5.** Kitabı qələmə alarkən mövzudan kənara çıxacaq və xırdaçılığa səbəb olacaq qədər çox dərinə getməməyi önümə məqsəd qoydum. Əsas məqsədim Qədir-Xum hədisinin etibarlı olan bütün rəvayət yollarını toplamaq və həmin hadisəni hadisədən əvvəl və sonra baş vermiş olaylarla birlikdə ələ almaq və tam, bütöv bir şəkildə təqdim etmək idi. Bütün bunlarla birlikdə sevilməsi bizə əmr edilən, dostluğu bizə vacib olan kəsə, yəni Allah və Rəsulunun sevimlisi, möminlərin əmiri, ağamız Əli ibn Əbu Talibə ﵁ qarşı olan ülvi hisslərimizi də izhar etdim. Həmçinin kitabı qələmə alarkən fikrin tam çatdırılmasına, mövzular arasındakı bağlılığa diqqət yetirdim. İmkan daxilində mövzunu müxtəsər şəkildə ələ almağa, əmr etdiyi və söylədiyi sözlərində Allah rəsulunun ﷺ məqsədini bəyan

etməyə çalışdım. Uca Allahdan həm özüm, həm də sizlər üçün niyyətlərimizdə ixlaslı, sözlərimizdə sadiq və əməllərimizdə saleh olmağı təmənni edirəm! Həqiqətən də, Rəbbimiz istədiyi bəndəsinə qarşı lütfkardır. O hər şeyi biləndir və hikmət sahibidir.

# MİNNƏTDARLIQ VƏ İTHAF

Kitabın ərsəyə gəlməsi üçün əziyyəti olan hər bir ustadıma, qardaşıma öz təşəkkürümü bildirirəm. Onların qeydlərindən və məsləhətlərindən çox faydalandım, beləcə kitabı tamamladım. Bu kitabın ərsəyə gəlməsində onların çox əməyi keçib.

Qardaşım şeyx Həməd əl-Ğəmməs düz iyirmi il bundan öncə belə bir kitab qələmə almaq təklifini mənə bildirdi. Kitab tamamlandıqdan sonra onu gözdən keçirtdi və bəzi mühüm əlavələr etdi. O məndən öncə kitabın müəllifi və mənim təlifimdən sonra kitabın tamamlayıcısı sayılır. Allah onun əcrini versin! Məni bu işə məhz o təşviq etmiş və o yönəltmişdir.

Dr. Hatim əl-Avninin də kitab ilə əlaqədar bəzi mühüm təklifləri, qeydləri oldu ki, onları da lazımi yerlərə əlavə etdim.

Həmçinin bütün qeyd və təkliflərinə görə ustadlarım şeyx Saleh əş-Şəmiyə, dr. Əhməd əl-Bəra əl-Əmiriyə, qardaşım Xalid əl-Bəhlələ, Hüseyn Bəfəqihə, dr. Abdullah Subeyhə, dr. Xalid əd-Duveyşə, dr. Yasir əl-Matrafiyə, şeyx Xalid əl-Vusabiyə, dr. Sami əl-Məcidə öz minnətdarlığımı bildirirəm.

Kitabda qeyd edilən hədislərin təxricini (çıxarışlarını – mənbələrinin dəqiqləşdirilməsini) öz öhdəsinə götürdüyü üçün qardaşım Mahmud Şaban Əbdülmaqsuda, həmçinin

kitabın ərsəyə gəlməsində, dizaynında payı olan qardaşım saleh əl-Fovzana təşəkkür edirəm.

Həmçinin Qədir-Xum yerinə səfər əsnasında mənə yardımçı olan və orada olan yerləri mənə tanıdan bütün dostlarıma: dr. Əhməd ən-Numaniyə, şeyx Səlim əl-Ğanimiyə, ustad İzzuddinə və ustad Mənsur əl-Ənama, habelə Qədir-Xuma gedən yolun, o bölgənin xəritələrini, hava məsafəsini əldə etməkdə mənə köməklik edən coğrafiyaçı alim dr. Merac Mirzəyə minnətdaram.

Bir sözlə, kitabın ərsəyə gəlməsindəköməkliyi dəyən hər kəsə təşəkkür edirəm, minnətdaram və duaçıyam.

Bu kitabı uşaqlıq çağlarımı birgə keçirtdiyim, həyatım boyunca mənim yanımda olan, anamla birgə mənə analıq etmiş və öz dostluğunu məndən əsirgəməmiş doğma bacıma – Ümmü Nəyif ibn Suud əl-Useymi, Munira ən-Nasır ət-Tureyriyə, habelə mənə qarşı itaətkar, dözümlü, zəhmətkeş ömür-gün yoldaşım – Ümmü Nasır Həyə binti Əli ibn Fəvvaz Ali Musaya ithaf edirəm. Hər ikisinin də üzərimdə əvəzini qaytara bilməyəcəyim qədər zəhmətləri olmuşdur. Uca Allah əvəzlərini versin!

# XƏRİTƏ VƏ ŞƏKİLLƏR




**Vida həcci yolu üzərində Qədir-Xumun yeri**



**Məkkə və Mədinə şəhərləri arasında qədim karvan yolu**
**Bu yol "Peyğəmbərlərin yolu" adlanır**
**Qədir-Xum bu yolun şərqində yerləşir**



**Cuhfə vadisi**
**Qədir-Xum bu vadinin kənarında yerləşir**



**Qədir-Xumun qədim şəkillərindən biri**



**Xum nohurunun qədim şəkli**



**Sel basqınından sonra Qədir-Xum**



**Harameyn qatar yolu xəttinin kənarında Qədir-Xumun olduğu yer**



**Kitabın müəllifi (sağ tərəfdən üçüncü)
Qədir-Xumun yerləşdiyi yeri yaxşı tanıyan Rabığ
diyarının sakinlərindən şeyx Səlim əl-Ğanimi, Abid əl-
Bilədi və Saleh əl-Ənsari ilə birlikdə**



**Qədir-Xumun ətrafında olan vadidəki səmr ağacları**
**Peyğəmbər ﷺ iki səmr ağacının altında xütbə vermişdi**



**Ehtimal olunur ki, bura Peyğəmbərin ﷺ Qədir-Xumda namaz qıldığı yerdir. Tarixçi dr. Əhməd ən-Numani məhz həmin yerdə durmuşdur.**

## HAŞİYƏLƏR
## (kitabda qeyd edilən mənbələr)

---

[1] Əhməd, "Müsnəd" 642, 731, "Fədail əs-səhabə" 948, 961, 1102, 1107, Müslim, 78

[2] Əhməd ibn Hənbəl, "Müsnəd" 1490, "Fədail əs-səhabə" 954, 956, Buxari, 3706, 4416, Müslim, 2404

[3] Əhməd ibn Hənbəl, "Müsnəd" 857, 931, Buxari, 2699, 4251

[4] Əhməd ibn Hənbəl, "Müsnəd" 778, 1117, "Fədail əs-səhabə" 1044, 1122, Buxari, 3009, 4210, Müslim, 2404 - 2406

[5] İbn Əbu Şeybə, "Müsənnəf" 35938, Nəsai, "Sünən əl-kübra" 8439, 8440, Təbərani, "əl-Mucəm əl-kəbir" 19/40, Hakim, "Müstədrək" 3/125

[6] Yuxarıda 4-cü mənbəyə bax!

[7] Buxari, 3704, 4515, 4650, Nəsai, "Sünən əl-kübra" 8438, İbn Hibban, 5579, Təbərani, "əl-Mucəm əl-kəbir" 13948

[8] Buxari, 2704

[9] "Müsnəd" 22995, "Fədail əs-səhabə" 1358, Əbu Davud, 1109, Tirmizi, 3774, İbn Macə, 3600, Nəsai 3/108, 192, İbn Xüzeymə, 1456, 1801, 1802, İbn Hibban, 6308, 6039, Hakim 1/287, 4/189, İbn Əsakir, 1127

[10] "Müsnəd" 948, Buxari, 3965-3969, 4744, Müslim, 3033, Əbu Davud, 2665, İbn Əbu Asim, "Cihad" 295, Hakim 3/194, Beyhəqi, "Dələil ən-nübüvvə" 3/63, 73, "əs-Sirətul-Hələbiyyə" 2/219

[11] İbn Sad, “ət-Tabaqat” 3/20, İbn Hişam, “əs-Sira” 1/485, 493, Təbəri, “Tarix” 2/382, İbn Həzm, “Cəvamius-sira” səh. 72, Beyhəqi 6/472, “Usdul-ğabə” 4/87, Muhib ət-Təbəri, “Zəxairul-uqbə fi mənaqib zəvil-qurbə” səh. 281, İbn Kəsir, “əl-Bidəyə vən-nihəyə” 4/489, “Təlxisul-habir” 3/211, “Tarix əl-Xulafə” səh. 130, “Subul əl-hudə vər-rəşad” 3/239, Əlbani, “İrvaul-ğalil” 1546, “Əsməl-mətalib fi sirati əmiril-muminin Əli ibn Əbu Talib” səh. 52

[12] Əhməd, “Müsnəd” 4, 594, 5977, Buxari, 369, 4655 - 4657, Müslim, 1347, Əbu Davud, 1946, Tirmizi, 871, 3091, 3092

[13] Təyalisi, 1773, İbn Hişam, “əs-Sira” 2/603, Əhməd, “Müsnəd” 1374, 2359, 23036, 22967, “Fədail əs-səhabə” 989, 1177, 1179, 1180, Buxari, 2299, 4349, 4350, Müslim, 1218, 1317, Əbu Davud, 1866, 1905, Tirmizi, 1704, 3712, İbn Macə, 3074, Nəsai, “Sünən əl-kübra” 8428, Təbəri, “Tarix” 3/149, İbn Hibban, 3944, 6929, Hakim, “Müstədrək” 2/129, 130, 3/110, İbn Həzm, “Həccətül-vəda”, Beyhəqi, “əs-Sünən” 2/516, “Dələil ən-nübüvvə” 5/398, 399, “Tarixu Diməşq” 42/ 189-200, İbn Kəsir, “əl-Bidəyə vən-nihəyə” 7/295, 390-392, 665-668, 11/59-64, İbn Həcər, “Fəth əl-Bəri” 8/66, Əlbani, “əs-Silsilə əs-səhihə” 2223, “Sifətu həccətin-Nəbi kəənnəkə məahu”.

[14] Yuxarıda 3-cü mənbəyə bax!

[15] Beyhəqi, “Dələil ən-nübüvvə” 5/398, “Tarixu Diməşq” 42/ 200.

[16] Əhməd, “Müsnəd” 12730, 12766, 13913, “Fədail əs-səhabə” 1431, Buxari, 3778, 4330-4334, Müslim, 1059,

Tirmizi, 3901, Nəsai, "Sünən əl-kübra" 8277, 11158, İbn Hibban, 7278.

[17] Əhməd, "Müsnəd" 596, 838, Buxari, 3113, 3705, 5361, 6318, Müslim, 2727, 2728, Əbu Davud, 2988, 5062, 5063, Nəsai, "Sünən əl-kübra" 9127, İbn Hibban, 6921, 6922.

[18] İbn Həcər, "Fəth əl-Bəri" 12/309.

[19] İbn Əbu Şeybə, "Müsənnəf" 32900, Əhməd, "Fədail əs-səhabə" 882, 884, 905, İbn Əbud-Dünya, "Maqtəlu Əli" 105, Təbərani, "əl-Mucəm əl-əvsat" 3934, Əcurri, "əş-Şəriət" 1218, "Hilyətül-övliya" 1/81, 85, "Tərixu Diməşq" 24/401, 42/477, 478.

[20] "Nəhcul-bələğa" 16/369.

[21] Yuxarıda 17-ci mənbəyə bax!

[22] İbn Sad, "ət-Tabaqat" 3/37, Əbu Davud, "əz-Zühd" 105, İbn Əbud-Dünya, "Maqtəlu Əli" 98, 102, Bəzzar, "Müsnəd" 1339, Nəsai, "Sünən əl-kübra" 8354, Əbu Yalə, "Müsnəd" 6758, İbn Hibban, 6936, Xəlləl, "əs-Sünnə" 471, Təbərani, "əl-Mucəm əl-kəbir" 2719, 2722, 2723, "əl-Mucəm əl-əvsat" 8469, "Hilyətül-övliya" 1/65, "Tərixu Diməşq" 42/580, 581.

[23] Yuxarıda 3-cü mənbəyə bax!

[24] 34-cü mənbəyə bax!

[25] Yuxarıda 1-ci mənbəyə bax!

[26] Əhməd, "Müsnəd" 1629, 1631, "Fədail əs-səhabə" 85, 87, 256, Əbu Davud, 4649, Tirmizi, 3748, İbn Macə, 133, İbn Əbu Asim, "əs-Sünnə" 1428-1432, İbn Hibban, 6993, "əl-Əhadis əl-muxtara" 3/284-285, (1085).

[27] Əhməd, "Müsnəd" 3717, 12013, 13068, Buxari, 6168, 6171, Müslim, 2640.

[28] Əhməd, “Müsnəd” 14553, 14946, Müslim, 1297, Əbu Davud, 1970, Tirmizi, 886, İbn Macə, 3023, Nəsai 5/270, İbn Xüzeymə, 2877.

[29] Əhməd, “Müsnəd” 1936, Buxari, 1755 (müxtəsər olaraq), Müslim, 1327-1328, Tahavi, “Şərhu məanil-əsar” 2/233, İbn Xüzeymə, 3000, İbn Hibban, 3897, Dəraqutni 3/73, Hakim, “Müstədrək” 1/476.

[30] “Mucəmul-buldən” 2/111, 389, “Mucəmu məalimil-Hicəz” səh. 1243.

[31] Əhməd, “Müsnəd” 18966, 20695, 22260, 23497, Buxari, 4403, Müslim, 1218, Əbu Davud, 1905, Tirmizi, 1163, İbn Macə, 1851, 3057, 3074, İbn Xüzeymə, 2808-2810, İbn Hibban, 1457.

[32] İbn Əbu Şeybə, “Müsənnəf” 34648, Buxari, 483, “Hilyətül-övliya” 1/310, “Siyəru əlamin-nubələ” 3/237, İbn Rəcəb “Fəth əl-Bəri” 3/428.

[33] “Əl-yovmun-nəbəvi”. Bu kitab “Peyğəmbərin gündəlik həyatı” adı ilə doğma ana dilimizə tərcümə edilmişdir. Həmin kitabın “Günorta məclisi” bölümünə baxıla bilər!

[34] İbn Əbu Şeybə, “Müsənnəf” 32118, Əhməd, “Müsnəd” 18479, 19279, 19265, 19325, “Fədail əs-səhabə” 992, 1016, 1017, 1048, Əbdü ibn Həmid “Müsnəd” 265, Dərimi “Müsnəd” 3359, Müslim, 2408, Tirmizi, 3713, İbn Macə, 116, İbn Əbu Asim “əs-Sünnə” 1550-1552, Bəzzar “Müsnəd” 4324-4327, 4336, Nəsai, “Sünən əl-kübra” 8119, 8410, 8415, İbn Xüzeymə, 2357, Tahavi, “Şərhu məanil-əsar” 3464, Təbərani, “əl-Mucəm əl-kəbir” 5028, Əbu Neym, “Fədail əl-xüləfə ər-raşidin” 17-19, Hakim, “Müstədrək” 3/109, 116,

533, Beyhəqi 2/212, 7/48, 10/194, Əlbani "Silsilə əs-səhihə" 1750.

[35] Yuxarıda 10-cu mənbəyə bax!

[36] İbn Sad, "ət-Tabaqat" 2/64, İbn Hişam, "əs-Sira" 2/224-225, Təbəri, "Tarix" 2/574, Hakim, "Müstədrək" 3/32, Beyhəqi, 6/502, "əl-Kəmil fit-tərix" 2/67, İbn Kəsir, "əl-Bidəyə vən-nihəyə" 6/41-43, "Əsməl-mətalib fi sirati əmiril-muminin Əli ibn Əbu Talib" səh. 130.

[37] Müslim, 1807. Həmçinin 70-ci mənbəyə bax!

[38] Təbərani, "əl-Mucəm əl-kəbir" 14/23, "Müstədrək" 1/15-16/, Beyhəqi, "Şuab əl-imən" 9122, 9123, Əlbani "Silsilə əs-səhihə" 216.

[39] Bu mənada sözlər imam Əhməddən, Nəsaidən və İsmayıl ibn İshaq əl-Qazidən nəql olunmuşdur. Bax! "Müstədrək" 3/116, "əl-İstiəb" 3/1115, "Tabaqat əl-hənəbilə" 2/120, "ər-Riyad ən-nadira fi mənaqib əl-aşara" 3/188, "əl-Covhara fi nəsəbin-Nəbi və əshabihil-aşara" 2/254, İbn Həcər, "Fəth əl-Bəri" 7/74.

[40] İbn Əbu Şeybə, "Müsənnəf" 32118, Əhməd, "Müsnəd" 18479, "Fədail əs-səhabə" 1016, 1042, "əl-İstiəb" 2/18, "Tarixu Diməşq" 42/221, 233, 234, "əl-Bidəyə vən-nihəyə" 11/74, "Təfsir əl-Mənar" 6/385, Əlbani "Silsilə əs-səhihə" 4/344, (1750), "Silsilə əd-dəifə" 4923.

[41] Əhməd, "Müsnəd" 22967, "Fədail əs-səhabə" 1180, Nəsai, "Sünən əl-kübra"8428.

[42] "Tarixu Diməşq" 42/235,"ər-Riyad ən-nadira fi mənaqib əl-aşara" 3/128, "Feyzul-Qadir" 6/217. Bu hədisin sənədində zəiflik var. Ona görə də şeyx Əlbani hədisi "Silsilə əd-dəifə"

(10/693, hədis: 4961) əsərində qeyd etmişdir. Lakin hədisin mənası Ömərin Əli və əhli-beyt barədə dediyi sözü ilə üst-üstə düşür. Bu baxımdan hədis qüvvət qazanır və qəbul olunur.

43 Əhməd, "Müsnəd" 23563, "Fədail əs-səhabə" 967, Təbərani, "əl-Mucəm əl-kəbir" 4052, 4053.

44 Əhməd, "Müsnəd" 55, "Fədail əs-səhabə" 531, Buxari, 3712, 4035, 4240, Müslim, 1759.

45 Əhməd, "Fədail əs-səhabə" 971, Buxari, 3713, 3751, Mərvəzi, "Müsnəd Əbu Bəkr əs-Siddiq" 24, "Məclisu min əməli Əbu Bəkr ən-Nəccad" 6.

46 "Mətali əl-ənvər" 3/181, "Kəşf əl-müşkil" 1/33, "Fəth əl-Bəri" 7/79, "Dəlil əl-fəlihin" 3/202.

47 "Siyəru əlamin-nubələ" 13/341.

48 Əhməd, "Müsnəd" 19265, 19279, "Fədail əs-səhabə" 992, Müslim, 2408, İbn Əbu Asim "əs-Sünnə" 1555, Nəsai, "Sünən əl-kübra" 8092, 8410, Tahavi, "Şərhu məanil-əsar" 1765, Əcurri, "əş-Şəriət" 1523, 1706, Təbərani, "əl-Mucəm əl-kəbir" 4969, 4970.

49 Əhməd, "Müsnəd" 641, 950, 961, 19302, "Fədail əs-səhabə" 991, 1167, İbn Əbu Asim "əs-Sünnə" 1372, Nəsai, "Sünən əl-kübra" 8416, 8424, 8430, Əbu Yalə "Müsnəd" 567, İbn Hibban, 6931, Təbərani, "əl-Mucəm əl-kəbir" 4985, "Müstədrək" 3/109, "əl-Əhadis əl-muxtara" 2/105-106, (479-481).

50 İbn Əbu Şeybə, "Müsənnəf" 32091, İbn Əbu Asim "əs-Sünnə" 1373, 1374, Nəsai, "Sünən əl-kübra" 8419, Təbərani,

“əl-Mucəm əl-avsat” 2253, “Hilyətül-övliya” 5/26-27, “Tarixu Diməşq” 42/209, “əl-Əhadis əl-muxtara” 2/87, (464).

[51] “Silsilə əs-səhihə” 1750, “Ənis əs-səri təxricu əhədisi fəth əl-Bəri” 7/5266-5301.

[52] “Siyəru əlamin-nubələ” 8/335, “Qutufu əl-əzhar əl-mütənasira fil-əxbar əl-mütəvatira” səh. 100, “ət-Teysir bi-şərhi əl-cəmi əs-sağir” 2/442, “Nəzmul-mutənəsir”, 232, “Kəşful-xafə” 2/329, “Silsilə əs-səhihə”, 1750, Əlbani burada hədisin zəif olduğunu iddia edənlərə də cavab vermişdir.

[53] İbn Həcər, “Fəth əl-Bəri” 7/74.

[54] “Minhəc əs-sünnətin-nəbəviyyə” 7/319-320, “Siyəru əlamin-nubələ” 17/169, “ər-Risələ əl-müstatrafə” səh. 112, Zəhəbi, “Təzkira əl-hüffaz” 3/164, “əl-Bidəyə vən-nihəyə” 7/666, “Fəth əl-Bəri” 7/74.

[55] Yuxarıda 4-cü mənbəyə bax!

[56] “Təvil müxtələf əl-hədis” səh. 92-93, “əl-Hidəyə ilə buluğ ən-nihəyə” 4/2985, “Təfsir əl-Məvərdi” 1/163, “Zəd əl-məsir” 1/91, “Təfsir əl-Qurtubi” 2/51, “Təfsir əl-Xazin” 1/63, “Fəth əl-Bəri” 7/72.

[57] “əl-İhticəc” kitabı, 1-ci cild, 55-ci səhifədən 66-cı səhifəyə qədər.

[58] əl-Əmini, “əl-Ğadir” 1/215.

[59] “Müqəddimə İbn Xaldun” (Şəddədinin təhqiqi ilə) 1/13 və sonrakı səhifələr.

[60] “Sifətu həccətin-Nəbi kəənnəkə məahu” kitabına bax!

[61] Yuxarıda 29-cu mənbəyə bax!

[62] Yuxarıda 28-ci mənbəyə bax!

[63] Təyalisi, "Müsnəd" 1470, Əhməd, "Müsnəd" 24483, 26413, "Fədail əs-səhabə" 1322, 1343, Buxari, 3623-3626, Müslim, 2450.

[64] Əhməd, "Müsnəd" 1511, 2432, 3061, "Fədail əs-səhabə" 67, 134, 985, 1168, Buxari, 467, 3628, 3800, Tirmizi, 3732, İbn Əbu Asim "əs-Sünnə" 2463, Nəsai, "Sünən əl-kübra" 4048, 8355, "Müstədrək" 3/125, "əl-Əhadis əl-muxtara" 13/27-30, 32-37, "Tarixu Diməşq" 42/99-102, İbn Covzi, "əl-Movduat" 1/363, "Təfsir İbn Kəsir" 2/311, "Fəth əl-Bəri" 7/14-15, "Nazmul-mutənəsir" səh. 191-192, "Silsilə əd-dəifə" 2929, 4953. İbn Covzi və İbn Kəsir kimi bəzi alimlər Peyğəmbər ﷺ tərəfindən Əlinin ﵁ qapısının istisna edilməsini zəif saymışlar. Lakin İbn Həcər bunun etibarlı yolla nəql olunduğunu vurğulamış, "əl-Qovl əl-müsəddəd" (səh. 16-19) və "ən-Nukət alə kitəbi İbn əs-Salah" (1/462-470) əsərlərində bu mövzuya geniş yer vermişdir.

[65] Buxari, 198, 712, 713, 664, 665, 687 və Müslim, 418.

[66] Buxari, 664, 679, 713 və Müslim, 418.

[67] Əcurri, "əş-Şəriət" 4/1712, 1723, 4/2337, "Fədail əl-xüləfə ər-raşidin" 189, İbn Bişran, "əl-Əməli" 512, "ət-Təmhid" 22/129, "Tərixu Diməşq" 42/442, "Tərix əl-İsləm" 3/640, "Tərix əl-xüləfə" səh. 137.

[68] Əbdürrəzzaq, "Müsənnəf" 9758, İbn Hişam, "əs-Sira" 2/660, İbn Əbu Şeybə, "Müsənnəf" 37043, Əhməd, "Müsnəd" 133, 391, "Fədail əs-səhabə" 190, Buxari, 3667-3670, Nəsai, "Sünən əl-kübra", 7081, Təbəri, "Tarix" 3/218, İbn Kəsir, "əl-Bidəyə vən-nihəyə" 8/81-87.

[69] Əbdürrəzzaq, “Müsənnəf” 9743, İbn Hişam, “əs-Sira” 1/482-483, İbn Sad, “ət-Tabaqat” 1/194, Əhməd, “Müsnəd” 3061, “Fədail əs-səhabə” 1168, “Təfsir İbn Əbu Hatim” 6/1799, Hakim, “Müstədrək” 3/4-5, Beyhəqi, “Dələil ən-nübüvvə” 2/465-470, İbrahim əl-Əli, “Səhih əs-sira ən-nəbəviyyə” səh.120, “Əsməl-mətalib fi sirati əmiril-muminin Əli ibn Əbu Talib” səh. 52-53.

[70] Müslim, 1807, Hakim, “Müstədrək” 3/437, Beyhəqi, “əs-Sünən” 6/504, “Dələil ən-nübüvvə” 4/214, İbn Əbdülbər, “əd-Durar fixtisar əl-məğazi vəs-siyar” səh. 199, “Təhzib əl-əsma və əl-lüğat” 1/92, Nəvəvi, “Şərhu Səhih Müslim” 12/186, “Subul əl-hudə və ər-raşəd” 5/125, İbrahim əl-Əli, “Səhih əs-sira ən-nəbəviyyə” səh. 344-345, “Əsməl-mətalib fi sirati əmiril-muminin Əli ibn Əbu Talib” səh. 140.

[71] Yuxarıda 2-ci mənbəyə bax!

[72] Dəraqutni, “Fədail əs-səhabə” 40, Beyhəqi, “əl-İtiqad” səh. 355, “əl-Hüccə fi bəyən əl-məhəccə” 2/377-378, “Tərixu Diməşq” 27/375.

[73] “Zikrayat Əli ət-Tantavi” 3/386-388.

[74] Buxari, 1399, 1400, 6924, 6925 və Müslim, 20.

[75] Əbu Yusuf, “əl-Xərac” səh. 36-37, 45-46, Qasim ibn əs-Səlləm, “əl-Əmval” 147, Əhməd, “Fədail əs-səhabə” 378, İbn Zəncəveyh, “əl-Əmval” 224, Beyhəqi, “əs-Sünən” 6/517, 9/233, “Tərixu Diməşq” 2/196-197, “ər-Rovd əl-Unuf” 7/132.

[76] Buxari, 1563 və Müslim, 1223. Həmçinin 99-cu mənbəyə də bax!

[77] Buxari, 1392, 3700.

[78] İbn Sad, "ət-Tabaqat" 3/183, İbn Əbu Şeybə, "Müsənnəf" 32040, 37057, Əhməd, "Müsnəd" 259, Ömər ibn Şəbbə, "Tərixu əl-Mədinə" 2/665-667, Təbəri, "Tarix" 3/428, Xəlləl, "əs-Sünnə" 1/276, "Tərixu Diməşq" 30/410, 44/257, "Usdul-ğabə" 4/156, "Tərix əl-İsləm" 3/116, "Tərix əl-xüləfə" səh. 66.

[79] İbn Hişam, "əs-Sira" 1/442, Əhməd, "Müsnəd" 14457, 14653, Fəkihi, "Əxbaru Məkkə" 4/215, Təbəri, "Tarix" 2/362, Beyhəqi, "Dələil ən-nübüvvə" 2/447, "əl-Kamil fit-tərix" 1/692, "əl-Bidəyə vən-nihəyə" 4/401.

[80] "Ənsəb əl-Əşraf" 1/70, "əl-Münəmmaq fi əxbari Qureyş" səh. 86-87, Təbəri, "Tarix" 2/249. Şairin adında və beytlərin rəvayətində ixtilaf vardır.

[81] Əhməd, "Müsnəd" 12187, 13574, 19541, Buxari, 3528, 6762, Müslim, 1059.

[82] İbn Sad, "ət-Tabaqat" 3/569, 9/394, "Tərixu Diməşq" 20/265, "Usdul-ğabə" 3/329, "Tərix əl-İsləm" 3/148.

[83] İbn Hişam, "əs-Sira" 1/129-132, "əl-Münəmmaq fi əxbari Qureyş" səh. 189-190, əl-Əzraqi, "Əxbaru Məkkə" 1/110, Fəkihi, "Əxbaru Məkkə" 5/158.

[84] İbn Sad, "ət-Tabaqat" 5/189, İbn Hişam, "əs-Sira" 2/315, Əhməd, "Müsnəd" 18910, "Təfsir ət-Təbəri" 21/272-273, "Tərixu Diməşq" 39/78, "əl-Bidəyə vən-nihəyə" 6/214.

[85] Buxari, 2834, Müslim, 1788, "Təfsir ət-Təbəri" 3/636.

[86] Buxari, 3698, 4066.

[87] Əhməd, "Müsnəd" 511, "Fədail əs-səhabə" 827, 849, Buxari 3/109, 5/13, Ömər ibn Şəbbə, "Tərixu əl-Mədinə" 1/152, Tirmizi, 3699, Nəsai 6/236, İbn Xüzeymə, 2487, 2491,

İbn Hibban, 6916, 6920, "Müstədrək" 1/419, "əl-Əhadis əl-muxtara" 1/358-360, 482-484,

[88] "Məğazi əl-Vaqidi" 1/111-112, Əbdü ibn Həmid "Müsnəd" 1211, "Müstədrək" 3/224, "Tərixu Diməşq" 38/260, "İmtə əl-əsmə" 12/161.

[89] 74-cü mənbəyə bax!

[90] "əl-Ümm" 4/228, "Tərix əl-Mədinə" 2/547, Təbəri, "Tarix" 3/246.

[91] Təbəri, "Tarix" 4/434, "əl-Muntəzam" 5/65, "əl-Kəmil fit-tərix" 2/556, "Nəhc əl-bələğa" 7/23.

[92] "Xiləfətu əmiril-muminin Abdullah ibn Zubeyr" səh. 39.

[93] Əbdürrəzzaq, "Müsənnəf" 9719, "ət-Təfsir" 2/302, İbn Hişam, "əs-Sira" 2/245, "Təfsir ət-Təbəri" 14/421, Təbərani, "əl-Mucəm əl-kəbir" 24/432 (1059), Əcurri, "əş-Şəriət" 1030, 1259, "Müstədrək" 3/65, 81, Əbu Nueym, "Mərifə əs-səhabə" 62, Beyhəqi, "Dələil ən-nübüvvə" 2/360-361, "Tərixu Diməşq" 30/55, "əl-Bidəyə vən-nihəyə" 4/281, "Məa əl-Mustafa ﷺ" səh. 47.

[94] İbn Hişam, "əs-Sira" 1/319-320, Əhməd, "Müsnəd" 439, Təbərani, "əl-Mucəm əl-kəbir" 24/303 (769), "Müstədrək" 3/383, 388, Əbu Nueym, "Mərifə əs-səhabə" 5/2813, Beyhəqi, "Dələil ən-nübüvvə" 2/282, "Tərixu Diməşq" 43/368, "Usdul-ğabə" 4/122, "Siyəru əlamin-nubələ" 1/409, "əl-Bidəyə vən-nihəyə" 4/147, "əl-İsabə" 7/292.

[95] Əhməd, "Müsnəd" 6538, Buxari, 447, 2812, Müslim, 2916, "əl-Bidəyə vən-nihəyə" 4/536, 10/526.

[96] İbn Sad, "ət-Tabaqat" 3/240, Təyalisi, 678, Əhməd, "Müsnəd" 18884, İbn Hibban, 7080, "Müstədrək" 3/384, 386,

392, "əl-İstiab" 3/1140, "Tərixu Diməşq" 43/362, "Təhzib əl-Kəməl" 21/226, "Siyəru əlamin-nubələ" 1/408.

[97] Əhməd, "Müsnəd" 1183, 1328, 1362, Əbu Davud, 4399-4403, Tirmizi, 1423, İbn Macə, 2041, İbn Xüzeymə, 1003, 3048, İbn Hibban, 143, "Müstədrək" 1/258, Beyhəqi 4/448, 8/460, "əl-Əhadis əl-muxtara" 2/228-229, (607-608).

[98] İbn Sad, "ət-Tabaqat" 2/293, Əhməd, "Fədail əs-səhabə" 1100, Bəğavi, "Mucəm əs-səhabə" 1817, "əl-İstiab" 3/1103, "Tərixu Diməşq" 42/406, "Fəth əl-Bəri" 13/343, "Tərix əl-xüləfə" səh. 133.

[99] Təyalisi, 96, Əhməd, "Müsnəd" 402, 431, 1146, Buxari, 1563, Müslim, 1223, Nəsai 5/148.

[100] Əhməd, "Müsnəd" 3092, 3711, 3712, 9093, Buxari, 3092, 3093, 3711, 3712, Müslim, 1759.

[101] Əhməd, "Müsnəd" 40, Buxari, 3542, 3750.

[102] İbn Sad, "ət-Tabaqat" 6/442, Təbəri, "Tarix" 5/468, Təbərani, "əl-Mucəm əl-kəbir" 2803, İbn Hibban, "əs-Siqat" 2/311.

[103] Əbdürrəzzaq, "Müsənnəf" 7950, "əl-İstiab" 4/1784-1785, "Təhzib əl-Kəməl" 35/127, "əl-Bidəyə vən-nihəyə" 6/444-445.

[104] Əbu Nueym, "Mərifə əs-səhabə" 1/168, "Usdul-ğabə" 5/97.

[105] İbn İshaq, "əs-Sira" 1/248, İbn Sad, "ət-Tabaqat" 10/429, "əz-Zürriyyə ət-tahira" səh. 61, 116, "Tərixu Diməşq" 19/482, "Usdul-ğabə" 7/377, "əl-İsabə" 4/124.

[106] Əbdürrəzzaq, "Müsənnəf" 10354, Səid ibn Mənsur, "əs-Sünən" 520, Əhməd, "Fədail əs-səhabə" 1069, 1070, "əz-Zürriyyə ət-tahira" səh. 218, 219, Əcurri, "əş-Şəriət" 1714,

1820, “Müstədrək” 3/142, “əl-Əhadis əl-muxtara” 1/197-198, (101-102), “Müsnəd əl-Faruq” 1/389-392, “əs-Silsilə əs-səhihə” 2036.

[107] İbn Sad, “ət-Tabaqat” 10/429, Buxari, “ət-Tərix əl-əvsat” 1/102, Beyhəqi, “əs-Sünən” 7/111-112, “Dələil ən-nübüvvə” 7/283, “Tərixu Diməşq” 19/483, “Siyəru əlamin-nubələ” 3/502, “əl-Vafi bil-vəfəyət” 15/24, 272.

[108] İbn Əbud-Dünya, “Maqtəlu Əli” 127, “Tərixu Diməşq” 45/304, “Siyəru əlamin-nubələ” 4/134.

[109] Buxari, 3685 və Müslim, 2389.

[110] Buxari, 3140, 3502, 4229.

[111] “Təfsir əl-Mənar” 6/384-387.